

AZƏRBAYCAN XALQ ƏDƏBİYYATI







# TAPMACALAR











Ш3
T25

# TAPMACALAR

M.F.Axundov adına
Az... Milli
Kitabxana

"ŞƏRQ-QƏRB"
BAKI-2004

*Bu kitab* ***"Tapmacalar"*** *(Bakı, Elm, 1971) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Toplayanı və tərtib edəni: **Nurəddin Seyidov**

Redaktoru: **Təhmasib Fərzəliyev**

**398.6 - dc 21**
**AZE**
**Tapmacalar.** Bakı, "Şərq-Qərb", 2004, 208 səh.

Azərbaycan şifahi xalq ədəbiyyatının geniş yayılmış olan şəkillərindən biri də çoxvariantlılığı ilə seçilən tapmacalardır. Hər hansı bir əşya və ya hadisəni bənzətmə yolu ilə göstərən, nəzm və nəsr şəkilli bu yığcam məcazi ifadələrin qayəsi insanları düşünməyə sövq etməkdir.

Uzun əsrlərdən bəri nəsildən-nəsilə, ağızdan-ağıza keçərək müxtəlif dəyişikliklərə uğrayan tapmacalarda həyat hadisələrini həssas müşahidədən gələn, xalqın obrazlı təfəkkürünə xas olan bütün gözəl cəhətlər və həmçinin bədii dilin parlaqlığı lakonik bir şəkildə meydana çıxır.

Bu kitabda məzmun baxımından rəngarəng olub, həyatın ən müxtəlif sahələri ilə bağlı, o cümlədən təbiət və təbii hadisələr, səma cisimləri, bitkilər və heyvanat aləmi, ev əşyaları, geyimlər, silahlar, bəzək şeyləri və s. haqda dəyişik mövzulu tapmaca nümunələri toplanmışdır.

**ISBN 9952-418-19-9**

© "ŞƏRQ-QƏRB", 2004

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## MÜQƏDDİMƏ

Tapmaca Azərbaycan şifahi xalq ədəbiyyatının ən qədim və maraqlı janrlarından biridir. Bu janr uzun əsrlərdən bəri nəsildən-nəslə, ağızdan-ağza keçərək müxtəlif dəyişikliklərə uğramış, bəzən forma və məzmununu dəyişdirmiş, yeni məna, məzmun kəsb edərək bu günə qədər gəlib çıxmışdır.

Bir sıra mütəxəssislərin fikrincə, keçmiş dövrlərdə tapmacalar əsasən mifik səciyyə daşımışdır. Məsələn, yunan mifologiyasında Sfinksin adı ilə bağlı olan nağıllara görə, guya yüksək bir dağın zirvəsində əfsanəvi bir quş varmış. O, bir tapmaca deyərmiş, onu tapa bilməyəni məhv edərmiş. Tapmaca belədir: O nədir ki, səhər dörd, günorta iki, axşam üç ayaqlı olur? Nəhayət, məşhur Edip tapmacanın cavabını taparaq demişdi: O, insandır. Uşaq vaxtı əllərini yerə dirəyərək imeklədiyi üçün dörd ayaqlı, cavanlığında iki ayaqlı, qocalıqda isə, əlinə əsa aldığı üçün üç ayaqlı olur.

Çox maraqlıdır ki, Azərbaycanda da buna oxşar xeyli tapmaca vardır. Hazırda məlum olan beş variantdan ikisini aşağıda veririk:

1. O nədi ki, səhər dörd,
Günorta iki,
Axşam üç ayaqlı.

2. Əzəli dörd ayaqlı,
Sonra iki ayaqlı,
Aylar keçər, illər keçər,
Dolanar üç ayaqlı.

Azərbaycan şifahi xalq ədəbiyyatında geniş yayılmış belə bir əfsanə vardır: Bir kişi meşədə gedərkən şirə rast gəlir. Heyvan onu qovmağa başlayır. Kişi çox qaçır, nəhayət, bir uçuruma çatır. Orada bir ağac görür. Ağacın budağından yapışıb sallanmış halda qalır. Ətrafına baxıb görür ki, bir ağ siçanla qara siçan ağacın kökünü kəsir. Kişinin əlləri yorulur, yerə düşmək istəyir. Əyilib uçurumun dibinə baxdıqda, ağzını açıb onu udmaq istəyən nəhəng bir əjdahanı, yuxarıda – başının üstündə budaqlar arasında isə arı pətəyi görür. Belə bir vəziyyətdə əlini uzadıb barmağını bala batırmaq istəyir. Tapmaca formasına yaxın olan həmin əfsanənin mənası açılarkən məlum olur ki, şir əcəl, ağ və



qara siçan ömürdən gedən gecə və gündüz, əjdaha qəbir, arı pətəyi isə dünya malıdır.

Həmin əfsanə hazırda Azərbaycanın bir çox yerlərində müxtəlif variantlarda yaşamaqdadır.

Qeyd etdiyimiz əfsanəyə "Kəlilə və Dimnə"də[1] "Tacir əhvalatı" hekayəsində təsadüf olunur.

Qədim əfsanə və rəvayətlərin izlərini özündə saxlayan bir tapmaca haqqında da ötəri məlumat vermək istərdik:

Ağacda var bağırsaq
Yel babanı çağırsaq,
Ağzın açıb ney çalar,
Süleymanı çağırsaq.

(*Kaman*)

Əfsanəyə görə, guya qartal bir heyvanın cəmdəyini parçalayaraq onun bağırsağını caynaqlarına alıb ağacın başına qaldırır. Bağırsaq budaqlara ilişib isti gün altında quruyub nazilir. Əsən şiddətli küləyin uğultusu və budaqların ona toxunması ahəngdar səslər çıxarır. Bu zaman yoldan keçən adam həmin səslərə aludə olur. Hadisənin səbəbini öyrəndikdən sonra qurumuş bağırsaqdan sim düzəldərək guya ilk musiqi alətini icad edir. Həmin əfsanə yuxarıdakı tapmacada öz izlərini saxlamışdır.

Tapmacalar heç də birdən-birə bu gün gördüyümüz şəkildə olmamışdır. Əvvəlcə onlar sadəcə danışıqdan ibarət olmuş, hər hansı hadisə, əşya və sairəni açıq, öz adı ilə deyil, dolayı şəkildə, metaforik yollarla ifadə etmişdir.

İnsanların belə bir danışıq formasından istifadə etməsinin başlıca səbəbləri var idi. Qədim insanlar təbiət hadisələri, səma cisimləri, vəhşi heyvanlar və sairə haqqında dərin məlumata malik olmadığından, onları sehrli bildiklərindən və qorxduqlarından, o şeylərin adlarını olduğu kimi deyil, ona oxşar adlarla, dolayı yollarla çəkirdilər. Onlar elə təsəvvür edirdilər ki, ov zamanı heyvanın və ya oxun adını çəksələr, heyvan onu başa düşər, qaçar, yaxud insana zərər vurar.

Belə danışıq tərzinə "Dədə Qorqud" dastanlarında da rast gəlirik:

[1] "Kəlilə və Dimnə". Azərbaycan Dövlət Universiteti Nəşriyyatı, 1960, səh. 48.

"Qara qoç atları kişnədirən!
Ağca qoyun gördüyündə quyruq çırpıb qamçılayan!
Qanlı quyruq üzüb çap-çap udan!
Avazı qaba köpəklərə qovğa salan!
Çaxmaqlıcana çobanları dünyə yüyürdən!"[1]

və s.

Bunların hamısının cavabı canavardır.

İbtidai insan təbiət qüvvə və hadisələrinin, səma cisimlərinin "sirlərini" anlamadığına görə elə zənn edir ki, Ay, Günəş, ulduzlar, külək, ildırım, yağış, qar və sairə insan kimi canlı və şüurludur, həm də onlar daha fövqəladə, sehrli varlıqlardır. İbtidai insanın bu görüşləri onun yaratdığı tapmacalarda bu və digər şəkildə təzahür etməyə bilməzdi. İbtidai insanın əks etdirən tapmacalara indi də rast gəlmək mümkündür. Doğrudur, hazırda əlimizdə olan tapmacalar böyük dəyişikliklərə uğramış, məzmununu dönə-dönə dəyişmiş, şəkildən-şəklə düşmüş, hətta axırda uşaqların əyləncəsinə çevrilmişdir. Lakin buna baxmayaraq, orada ibtidai təfəkkürün izlərinə rast gəlmək mümkündür:

Burdan vurdum baltanı,
Ordan çıxdı qaltanı,
Anam bir oğlan doğdu,
Yerin, göyün soltanı.
*(Ay və ya gün)*

Eşiyə bir ağac düşüb,
Nə qolu var, nə budağı,
Bir quş gəldi, onu yedi,
Nə dili var, nə dodağı.
*(Qar, Günəş)*

Birinci tapmacada Ay və ya günün insan kimi doğulub törəməsinə işarə edilirsə, ikincidə Günəşin quşa bənzədiyi aşkar olur və bunlar yuxarıda dediklərimizi təsdiq edir.

Animistik görüşlərlə bağlı olaraq küləyin canlı insan kimi təsvir edilməsinə də tapmacalarımızda nümunələr göstərmək mümkündür:

Ayağı yoxdur qaçır,
Qanadı yoxdur uçur.
*(Külək)*

[1] "Kitabi-Dədə Qorqud". Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1962, səh. 32-33.



Ayağından aldırmaz,
Ağzına yüyən vurdurmaz.
*(Yel)*

Bir kilim var minbir naxışlı,
Yel baba süpürər payızı-qışı.
*(Yer)*

İlk nəzərdə bu tapmacalarda bənzətmə ruhunun üstünlüyü hiss olunur. Lakin dərindən diqqət yetirildikdə bunun heç də belə olmadığı aydın olur. Külək bu və ya başqa şəkildə canlı bir varlıq kimi təsəvvür edilmişdir. Birinci tapmacada külək quşa, ikincidə heyvana, üçüncüdə isə yenə canlıya, bəlkə də insana bənzədilmişdir. Hətta "Yel baba" deyə çağırılan külək insan kimi göstərilmişdir. Küləyin canlı varlıq kimi təsəvvür olunmasına nağıl və əfsanələrimizdə də rast gəlirik. Məsələn, "Fatmanın nağılı"nda yumağı aparan küləyə Fatma "Yel baba" deyə müraciət edir, onunla insan kimi danışır.

Animistik və totemistik görüşlərlə əlaqədar olaraq, qədim insanlarda guya heyvanların da insanın dilini, fikrini başa düşdüyü əqidəsi yaranırdı. Ona görə də ibtidai ovçu vuracağı heyvanın, quşun, silahın adını açıq şəkildə deməkdən çəkinmiş, onların adını gizli, yəni heyvanın başa düşə bilməyəcəyi bir dildə söyləyirmiş. Beləliklə, o, vuracağı ov heyvanını guya aldadırmış. İnsanlar nəinki ov heyvanları haqqında belə düşünürmüş, hətta elə zənn edirmişlər ki, meşənin, səhranın, suyun və sairənin də guya ecazkar görünməz sahibi varmış. Onları da müxtəlif yollarla aldatmaq lazım imiş. Beləliklə, ilk gizli-sirli danışıq dili əmələ gəlməyə başlayırdı ki, bu da tapmacalarda, cüzi də olsa, öz izlərini saxlamışdır.

Məşhur folklorşünas V.P.Anikin bu haqda yazır:

"Elm sübut etmişdir ki, mərasimlərlə əlaqədar olmasından başqa, tapmacaların ta qədim dövrlərdə inkişafı gizli nitqlə, heyvanların, balıqların, bitkilərin və müxtəlif əşyaların ilin müəyyən fəsillərində və müəyyən şəraitdə bilavasitə düzgün adının çəkilməsinin qadağan edilməsi ilə əlaqədardır"[1].

[1] В.П.Аникин. Современный русский фольклор. Изд. "Наука", Москва, 1966, стр. 206.

Təbiətin sirlərinin səbəbini dərk edə bilməyən ibtidai insan, sonralar onu öyrənməyə, gündəlik həyat hadisələri ilə əlaqələndirməyə çalışmışdır. Məlum olduğu kimi, meşədə, dağda, qayada çətin şəraitdə heyvanları, quşları ibtidai alətlərlə (daş, ağac, ox, tələ və s.) ovlamaq, meyvələr, yeməli otlar və sair axtarmaq, sonrakı inkişaf mərhələlərində isə əkinçilik, maldarlıq, sənətkarlıq, ticarət və sairənin müvəffəqiyyəti təbiət hadisələrindən, yağış, qar, külək, Günəş, isti, soyuq və s. asılı idi. İbtidai insanın gündəlik həyat arzusu olan bu məsələlər onun tapmacalarında bu və ya digər şəkildə, ibtidai formada öz əksini tapmışdır.

Nağıllardan məlum olur ki, tapmacalar keçmiş dövlət quruluşunda da rol oynamışdır. Belə ki, bir feodal digəri ilə müharibə etməzdən qabaq ona bir neçə tapmaca göndərər, qarşı tərəf cavab verə bilmədikdə isə müharibə elan edilərmiş. Bunun nümunəsi "Dərzi şagirdi Əhməd", "Daşdəmir" və başqa nağıllarda aydın görünür.

Tapmacalar bəzən feodal müharibələri zamanı gizli diplomatik sirləri söyləmək vasitəsi də olmuşdur. Bu barədə prof. Y.M.Sokolov yazır: "Tapmacadan bəzi hallarda gizli diplomatik dil formalarından biri kimi istifadə olunması haqqında rus salnamələrində maraqlı məlumatlar vardır"[1].

Tapmaca formasında olan və diplomatik xarakter daşıyan belə sorğulardan nağıl, dastan və rəvayətlərimizdə xeyli nümunələr tapmaq mümkündür. Bunun ən yaxşı nümunəsinə "Padşah və vəzir" adlı nağılda təsadüf edilir. Bu münasibətlər orada belə təsvir olunur:

Günlərin birində bir padşah özünün vəzirini göndərib başqa padşahdan tələb edir ki, ya onun verəcəyi tapmacanın cavabını tapsın, ya da taxt-tacdan əl çəksin. Vəzir öz suallarını yerdə işarə ilə çəkib cavab istəyir. Heç kim onu tapa bilmir. Axırda bir ağıllı, dünyagörmüş qoca tapılır. O, gəlib vəzirə işarə edir ki, suallarını təkrar etsin. Vəzir əsa ilə yerdə bir dairə çəkir. Qoca dairəni əlindəki ağacla tən ortadan iki yerə bölür. Elçi vəziyyəti belə gördükdə cibindən bir ovuc darı çıxardıb dairənin ortasına səpir. Qoca bir xoruz gətirib dairənin içərisinə buraxır. Xoruz az bir vaxtda darıları yeyib qurtarır. Vəzir qəzəblənib ortaya soğan atır. Qoca kefini pozmadan bir yumruq vurub soğanı əzir. Vəzir

[1] И.М.Соколов. Русский фольклор. Учпедгиз, Москва, 1936, стр. 248.



tapmacanın cavablarından razı qalıb gedir. Sonra qoca həmin tapmacanın cavabını izah edərək deyir: – Vəzir yerdə dairə çəkməklə demək istəyirdi ki, Yer kürəsinə sahib olmaq istəyirik. Mən dairəni iki yerə bölüb dedim ki, onun yarısı bizimdir. Vəzir razı olmayıb yerə bir ovuc darı səpdi ki, yəni təklifimizə razı olmasanız, saysız-hesabsız qoşunla sizə hücum edərik. Mən xoruzu ortaya atmaqla dedim ki, bizdə elə pəhləvanlar var ki, onları buraxsaq, sizin bütün qoşununuzu bu darı kimi dənləyib qurtararlar. Vəzir sözümdən qəzəblənib yerə soğan atdı və demək istədi ki, onda ortaya acılıq, ədavət düşər. Mən də soğanı əzməklə dedim ki, acılıq düşəndə də vecimizə deyil.

Bunlardan başqa, bir də tapmacalardan ağlı yoxlamaq üçün, toy mərasimlərində müxtəlif tapşırıqları yerinə yetirmək, şahlığa keçmək və sairədə istifadə edirlərmiş ki, bunu xüsusən nağıllarda aydın şəkildə görmək mümkündür.

Tapmacalarda insanların cəmiyyət haqqındakı fikirləri, həyat təcrübəsi, təbiət üzərindəki müşahidələri, təsərrüfat, məişət məsələləri və sairə bədii formada, obrazlı şəkildə ifadə edilmişdir. Belə bir zəngin xəzinəni isə xalq əsrlər boyu yaşadaraq gələcək nəslə təqdim etmişdir. Məhz buna görə də, əvvəllər tapmacalar məclis yaraşığı olmuş, qocalar onu gənclərə danışmış, onlar isə həvəslə yadda saxladıqlarını övladlarına öyrətmişlər. Qədim dövrlərdə gənc oğlan və qızlara çətin və dərin mənalı tapmacalar verərək onların həyat, ailə və məhəbbət, təsərrüfat, sənət haqqında bilik və vərdişlərini yoxlayardılar. Bu tapmacalara düzgün cavab verənlər istədikləri qızların rəğbətini qazanaraq, onlarla evlənmək hüququna malik olurdular. Bu adət "İlyas", "Daşdəmir", "Padşah və qız", "Yç bacı, üç qardaş", "Üç şahzadə" kimi onlarca nağıl və dastanlarda öz bədii ifadəsini tapmışdır.

Vaxt ilə kitabın, teatr və kinonun, radionun nə olduğunu bilməyən xalq müxtəlif əyləncə vasitələri içərisində tapmacalardan da geniş istifadə etmişdi. Uzun qış gecələrində, müxtəlif bayramlarda və ya adi günlərdə evlərdə kürsü qurar, təndir başına yığışıb tapmacaya qulaq asardılar. Xalqı maraqlandıran, onların zövqünü oxşayan belə tapmacalarda yumoristik, alleqorik hadisə və ifadələrə, alliterasiya və şeriyyətə geniş yer verilərdi. Sonralar tapmaca söyləmək, onun cavabını tapmaq ən maraqlı bir əyləncəyə çevrilərək getdikcə kütləvi xarakter almışdı.

Məlum olduğu kimi, hər dövrün hadisələri ilə səsləşən, xalqın həyat və məişət tərzinə aid bir sıra tapmacalar yaranır. Bəzən onlar zaman keçdikcə dildən-dilə düşərək dəyişir, anlaşılması çətinlik törədən tapmacaya çevrilir. Ən mötəbər tədqiqatçılar belə onu anlamır və cavabını tapmaqda çətinlik çəkirlər. Lakin zaman keçdikcə o sözlərin qədim funksiyası, məzmunu araşdırıldıqda məlum olur ki, ilk baxışda mənasız görünən tapmacaların mənası vaxt ilə hamıya aydın imiş. Lakin orada işlənən əşya, hadisə və sairə adları öz dövründə hamıya məlum olmuş və zaman keçdikcə unudulmuş, yenisi ilə əvəz edilmişdir.

Onu xatırlamaq kifayətdir ki, hazırda şəhər məktəblərində oxuyan şagirdlərə "sacayaq", "məfrəş", "xurcun", "sulu qəlyan" və sairə haqqında tapmaca söylədikdə, bu əşyaların nə demək olduğunu bilmirlər. Çünki elm və texnika şəhər həyatından həmin əşyaları sıxışdıraraq aradan çıxarmış, yenisi ilə əvəz etmişdir.

Belə tapmacalar olduqca çoxdur. Bəzən elə bilinir ki, bu tapmacada ya söz düşmüş və ya da təhrif olunmuşdur. Lakin dərin tədqiqat nəticəsində məlum olur ki, bu, öz dövrü üçün xalq məişətində böyük əhəmiyyəti olan ən maraqlı və mənalı tapmaca imiş. Odur ki, xalq məişətində yaşayan, lakin ilk baxışda forma və məzmunu, cavabı aydın olmayan belə tapmacaları atmaq qətiyyən doğru olmaz. Orada bir sıra tibbi adlar, dərmanlar, vaxtı ilə yaşamış, indi isə nəsli kəsilmiş heyvan, quş, bitki, əşya və sairə adları vardır ki, həmin sahənin mütəxəssisləri üçün bu adlar tədqiqat nəticəsində anlaşıqlı şəklə çevrilir.

Məlum olduğu üzrə, çox da uzaq dövrlərin yaradıcılıq məhsulu olmayan "Kitabi-Dədə Qorqud" dastanında bir sıra ifadə və sözlər vardır ki, onların mənaları bu gün belə tədqiqatçı üçün anlaşılmaz qalmışdır. Tapmacaların yaranma tarixi isə çox uzaqlarla bağlı olduğundan, şübhəsiz, orada daha çox anlaşılmaz ifadələrə təsadüf edilməlidir ki, bu da tamamilə qanunauyğundur.

Bundan başqa, tapmacalarda ayrı-ayrı dialektlərdə işlənən bəzi arxaik sözlərə də rast gəlmək olur. Şəhər əhalisi üçün aydın olmayan bu sözlər hazırda kənd və rayon yerlərində işlənməkdədir. Bəzi belə ifadələrin köhnəldiyini, onun yeni sözlərlə əvəz olunmasını iddia edənlər də olur. Lakin unudulmamalıdır ki, folklorşünaslıq qaydalarına görə şifahi ədəbiyyatımızı elmi şəkildə nəşr edərkən orada istənildiyi kimi dəyişiklik etməyə heç kəsin haqqı yoxdur. Belinski yazır: "Rus nağılları xalq fantaziyasının yaratdığı şəkildə özünəməxsus mənaya malikdir, dəyişdirilmiş və bəzək verilmiş bir şəkildə isə o qətiyyən heç bir mənaya malik deyildir"[1].



Bir sıra tapmacalar vardır ki, onun da cavabını tapmaq olduqca çətinlik törədir. Məsələn:

O nədir ki, özü burda, saqqalı orda.
(*Buxarı və tüstü*)

İlk baxışda belə bir sual verilə bilər ki, necə yəni "özü burda, saqqalı orda". Bunun yeri-yatağı qeyri-müəyyən olduğu üçün onu hər şeyə aid etmək olar.

Tapmacanın söyləndiyi şəraiti bilmədən onu tapmaq çox çətindir. Lakin bir anlığa qış gecələrinin birində qədim buxarısı olan bir evdə, ocaq başına yığılmış uşaqlara tapmaca söyləyən bir qocanı göz önünə gətirin. Qoca əlini ocağa uzadaraq özü burda, sonra əlini damın üstünə işarə edərək saqqalı orda dedikdə, tapmacanı tapmaq asanlaşır. Dinləyicilər buxarıda yanan odu, yuxarı qalxan tüstünü gördükdə çox da çətinlik çəkmədən cavabı tapırlar. Həmin tapmacanı indiki zamanda söyləyib hara işarə etsən də, onun cavabını tapmaq mümkün olmayacaqdır. Deməli, bu gün üçün mənə və cavabı aydın olmayan, lakin öz dövrü üçün uşağa belə aydın olan tapmacaları istənilən qədər göstərmək olar.

Bəzən də elə tapmacalara təsadüf edilir ki, məzmun və forması eyni olduğu halda, cavabları müxtəlif olur. Oxucu bəzən düşünə bilər ki, bu necə olur ki, bir tapmaca müxtəlif mənalara yozulur, yəqin burada nə isə bir səhvə yol verilibdir. Əslində bu hal tapmaca üçün tamamilə qanuni olub, bütün xalqların tapmacalarına aiddir.

Məlum olduğu kimi, şifahi ədəbiyyat janrları içərisində ən çox variantı olan tapmacalardır. Elə tapmacalar var ki, onun yüzdən artıq variantı vardır. Çoxvariantlılıqla yanaşı, bu janrın başqa bir xüsusiyyəti də eyni bir tapmacanın bir neçə müxtəlif cavabları olduğu halda, bir neçə müxtəlif tapmacanın da bir cavaba malik olmasıdır. Məsələn:

Bir quşum var alaca,
Getdi qondu ağaca.

---

[1] В.Г.Белинский. Полное собр. соч., т. II, СПб., 1900, стр. 45.

Özünə yuva tikdi,
Nə qapı qoydu, nə baca.
*(Barama, balqabaq)*

Tapmacada təsvir olunan əşya və ya hadisənin heç olmazsa birco xüsusiyyət və ya xasiyyətinin başqasına az da bənzəyişi varsa, o zaman həmin vəziyyət əmələ gəlir. Ona görə də balqabaq və baramanın xarici görünüşlərindəki forma oxşarlığı, hər ikisinin ağzının bağlılığı, birinin içində ipək qurdu, digərininkində isə çəyirdək olduğu üçün hər ikisi haqqında eyni tapmaca yaranmışdır. Bəzən bu bənzəmələr forma etibarı ilə deyil, məna və əhəmiyyətinə görə də təzahür edir.

Məsələn:

Yerə vurdum baltanı,
Ağzı gümüş xaltanı.
Yerdən bir oğlan çıxdı,
Cümlə cahan soltanı.
*(Su, Ay, gün, taxıl və s.)*

Yaxud:

Başını kəsdim qanı yox,
Cücələrinin sanı yox.
*(Darı, xaş-xaş, xalça və s.)*

Təqdim edilən həmin əsərdə belə tapmacalardan otuza qədər nümunə verilmişdir.

Belə bir vəziyyət bu janr üçün tamamilə səciyyəvi haldır. Balqabaq və barama haqqında tapmaca H.Zeynallının "Azərbaycan tapmacaları" kitabında da, bizim verdiyimiz şəkildə, qəsdən iki dəfə təkrar edilmiş, birinin cavabı barama, ikincisininki isə qabaq göstərilmişdir[1]. Dediklərimiz təkcə bu tapmacaya aid deyil, yüzlərcə başqa tapmacalara da aiddir. Bu məsələ haqqında prof. B.A.Qarrıyev "Türkmən tapmacaları" kitabında[2], Z.Hüseynova "Özbək tapmacaları" adlı əsərində[3], məşhur folklorşünas A.İ.Qerbstman "О звуковом строении народной загадки" adlı tədqiqatında geniş və aydın məlumat verir[4].

[1] H.Zeynallı. "Azərbaycan tapmacaları", Bakı, 1928, səh. 60 (№536).
[2] B.A.Qarrıev. "Türkmen matalları", Aşqabad, 1962, səh. 8.
[3] Z.Hüseynova. "Uzbek topişmekleri", "Fan" naşrieti, Toşkent, 1966, səh. 19.
[4] А.И.Гербстман. Русский фольклор, том XI, Москва-Ленинград, 1968, стр. 188, 191-193.



"Нет ни окон, ни дверей" rus tapmacası haqqında A.İ.Qerbstman yazır: "Bu tapmacanın ən müxtəlif cavablarına rast gəlirik. O cavablardan xiyar, qarpız, alma və sairəni göstərmək olar. Məsələn, M.A.Rıbnikovun kitabında 805-ci səhifədə 106 və 114 №-li tapmacaların mətnləri eyni olduğu halda cavabları isə müxtəlifdir".

Tapmacada tarixi həqiqətlərin qalıqlarını tapmaq üçün onların ümumi ahənginə, mövzusuna, daha doğrusu, nəyin əsas götürüldüyünə diqqət yetirmək lazımdır.

Azərbaycan xalqının köçəri həyat tərzinin izlərini axtarmaq lazım gələrsə, ona aid bəzi tapmacaları aşkar etmək mümkündür. Məlum olduğu kimi, köçəri insan heç də özünə daşdan, kərpicdən və ya ağacdan ev tikməli olmur. Çünki havanın, suyun, qida mənbəyinin və sairənin harada əlverişli olub-olmamasından asılı olaraq köçəri insan bu gün burada, bir aydan sonra başqa bir yerdə, dağda, düzəndə və meşədə məskən salmağa məcbur olurdu. Məhz bu səbəbə görə də onun daimi evi, bağı, yaşayış yeri olmurdu. Müvəqqəti yaşayış yerində yağışdan, qardan, borandan, küləkdən qorunmaq üçün isə çadır, qədim dəyə kifayət idi. Çünki bunu asanlıqla düzəltmək və köçüb getdikdə isə sökmək olurdu. Deməli, köçəri insanın həyatında əsas rol oynayan dəyə haqqında, heç şübhəsiz, saysız-hesabsız tapmacalar yaranmalı idi. Həmin tapmacaları oxuyarkən dəyənin quruluşu insanın gözü qarşısında canlanır:

Ağır donu, yoxdur canı,
Uzuncadır dırnaqları,
Yerə batır barmaqları.
*(Dəyə)*

Əgər yuxarıdakı tapmacada dəyənin ümumi görünüşü təsvir olunursa, aşağıdakında onun ayrı-ayrı hissələrindən bəhs edilmişdir.

Biz biz idik, yüz qız idik,
Bizi üzdülər, ipə düzdülər[1].
*(Çatən)*

Yaxud:

Bir öküzümüz var, çulunu alanda
qabırğaları sanınar.
*(Dəyənin ağacları)*

[1] Bu tapmacanın başqa cavabları da vardır.

Daha başqa bir tapmacada isə dəyənin üstünə salınan keçə haqqında belə deyilir:

Bir xana toxudum, nə ərişi var, nə arğacı,
Aranda qalmaz, dağdadı ağacı.
*(Keçə)*

Qara dəvə çökdü yerə,
Bağırsağın tökdü yerə.
*(Dəyə)*

Bu tapmacalar dəyənin qədim insan həyatında zəruri rol oynadığını göstərir.

Aşağıdakı nümunələr isə evin hissələrinə (qapı, dirək, pəncərə və s.) həsr edilmiş tapmacalardır:

Gedən leylək, gələn leylək,
Bir qıç üstə duran leylək.
*(Qapı)*

Ləkləmişəm, əkməmişəm.
*(Evdəki dirəklərin arası)*

Nə evdədir, nə çöldə
Nə göydədir, nə yerdə.
*(Pəncərə)*

Gecə boşalar,
Gündüz dolar.
*(Yük yeri)*

Bütün bu hissələr isə, şübhəsiz, oturaq həyata keçmiş insan üçün evin böyük əhəmiyyətə malik olduğu dövrdən yaradılaraq bu günə qədər davam etmişdir.

Mifoloji məktəb nümayəndələri tapmacanı köhnənin maraqlı qalığı kimi qiymətləndirir və onda dini qalıqların axtarılmasına cəhd göstərirlər. Rus tədqiqatçısı Sadovnikov isə tapmacada kəndlilərin məişət və dünya baxışının əks olunduğunu söyləyirdi. Bəzi tədqiqatçılar tapmacanın inkişafını müxtəlif amillərlə izah edir, Sadovnikov isə onun inkişafında maddi faktoru əsas götürürdü.

Tapmacaları tədqiq edərkən qədim kəndlilərin yaşayış şəraiti, əsas məşğuliyyəti, köçəri həyatı, əkinçilik, maldarlıq və sənətkarlıq işləri və



sairə haqqında məlumat əldə edilir. Tapmacaların öyrənilməsi kəndlinin hansı bitkiləri əkdiyini, hansı təsərrüfat alətlərindən istifadə etdiyini, hansı heyvan və quşları ovladığını aydınlaşdırmağa imkan yaradır. Bir sözlə, tapmacada dini-mifi qalıqlardan deyil, onun real həyat və məişətlə əlaqədar olduğundan danışmaq, bizcə, daha doğru olardı.

Qeyd etmək lazımdır ki, hər bir xalq müəyyən coğrafi mövqeyinə, təbii şəraitinə uyğun olan bitkilər əkir və məhsul istehsal edir ki, bu da öz xüsusiyyətlərinə görə başqalarından fərqlənirdi. Bəzən tapmacalarımızda elə meyvə, heyvan, quş, xörək və sairə adlarına rast gəlmək olur ki, onlar yalnız Azərbaycanda şöhrət taparaq, başqa xalqlarda demək olar ki, heç təsadüf olunmur, ya əksinə, özgə xalqlara məxsus olan bir sıra əşya, yemək, heyvan, quş adları isə bizim tapmacalarda nəzərə çarpmır.

Tapmacalarda toxuculuq sənətinə dair izlər tapmaq olur. Belə ki, qədim insan ilk toxucu dəzgahının nümunəsi olan cəhrədə yun əyirmiş, ip hazırlamış və ibtidai toxuculuq karxanasında şal toxumuşdur. Məhz buna görədir ki, cəhrə və onun hissələri haqqında onlarca tapmaca yaranmışdır:

Evimizdə bir kişi var,
Nənəmnən işi var.
*(Cəhrə)*

Hürər-hürər, burnu şişər.
*(Cəhrə iyi)*

Özü bir bucaq, dalı bir qucaq.
*(Cəhrə)*

Azərbaycan xalqı oturaq təsərrüfata keçdikdən sonra onun həyatında başlıca rol oynayan əkinçilik və maldarlıq, bu təsərrüfatlarda istifadə edilən istehsal vasitə və alətləri haqqında da külli miqdarda tapmaca yarandığının şahidi oluruq. Adi bel, külüng, yaba, kürək, kətməndən başlamış kotan, xış, vəl, araba, dəyirman və sairə bu kimi alətlər haqqında o qədər tapmaca yaranmışdır ki, onlar insanın diqqətini cəlb etməyə bilməz. Çünki xalqın böyük həvəslə vəsf etdiyi bu alətlər vaxt ilə onun həyatında mühüm rol oynamışdır. Həmin istehsal alətlərinin yaranma tarixini, cəmiyyət inkişafındakı rolunu aydınlaşdırmaq işində tədqiqatçıların başqa vasitələrlə yanaşı, şifahi ədəbiyyatdan da istifadə etdikləri hamıya məlum deyilmi?

Tapmacalarda vaxt ilə Azərbaycanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında müəyyən rol oynamış bir sıra yer adlarının da yaşa-

dığını görürük. Bunlardan Gəncə, Naxçıvan, Şəki, Şirvan və başqa adlar daha tez-tez təkrar edilir:

Həstədi, ha həstədi,
Şəki-Şirvan üstədi.
Qırağı qızıl kərpic,
Üstü badam üstədi.
(*Fındıq*)

Nə burda var, nə orda,
Doludur Naxçıvanda.
(*Duz*)

Almışam atandan,
Gəncədə satandan.
Qu tükündən yüngül,
Qırağı qızılgül.
(*Kəlağayı*)

Bu tipli tapmacalardan iki məsələni aydınlaşdırmaq mümkündür; birincisi, həmin şəhərlərin tarixi bir ad kimi tapmacalarımızda yaşamasıdırsa, ikincisi, orta əsrlərdən başlamış bu şəhərlərdən hər birinin iqtisadi mövqeyinə görə bu və ya digər dərəcədə şöhrət qazanmasıdır. Gəncənin ipək kəlağayı, Naxçıvanın əla keyfiyyətli duzla, gözəl xalça və bəzək şeyləri ilə şöhrət qazanması həmin tapmacaların əsas məzmununu təşkil edir.

Tapmacalarda nəinki şəhər, hətta çay, dağ adlarına da rast gəlmək olur. Məsələn:

Kürün qırağı düzdü,
Sanasan əlli, yüzdü.
Oğlu şahlıq eliyir,
Anası hələ qızdı.
(*Arı*)

Tapmacaların mövzuları çox müxtəlifdir. Onları şərti olaraq aşağıdakı şəkildə qruplaşdırmaq olar: təbiət və təbiət hadisələri; insan və onun bədən üzvləri; maddi nemətlər; bitkilər aləmi; heyvanlar; quşlar; kənd təsərrüfatı məhsulları; təsərrüfat alətləri; müxtəlif əşyalar və s.

Tapmacaların müxtəlif mövzularda qurulması onun həyatın bir çox sahələrini əhatə etdiyini sübut edir. Əgər əvvəllər insan və onun bədən üzvləri, təbiət hadisələri, müxtəlif qidalar tapmacanın ilk predmeti olmuşdusa, sonralar get-gedə onun əhatə dairəsi daha da genişlənmişdir. Artıq kəndlinin bağ-bağçası, mal-qarası, əkin yerləri, təsərrüfat alətləri, yeməkləri, geyimləri, mənəvi zövqünü oxşayan şeylər, heyvanlar, quşlar, zərərvericilər, ovçuluq, köçəri və oturaq həyat, ev əşyaları və sairə tapmaca janrının əsas predmetinə sevrilmişdir. Burada iqtisadiyyatla əlaqədar sənət məsələləri, xüsusən, toxuculuq, dərzilik, dəmirçilik, ipəkçilik və başqa sahələrə geniş meydan verildiyi hər addımda özünü göstərməkdədir.

İbtidai dövrdən başlamış bu günə qədər insanlar ən çox hansı məsələ ilə məşğul olmuşsa, hansı peşə, əşya və sairə onun gündəlik həyatında böyük əhəmiyyət kəsb etmişsə, onun haqqında da saysız-hesabsız tapmaca yaranmışdır.

* * *

Tapmaca əsasən metafora şəklində qurulmuş düşündürücü suallardan ibarətdir. Burada hər hansı məfhum, hadisə və əşyanın müəyyən əlaməti, keyfiyyəti və ya xasiyyəti dolayı yolla anladılır, başqa cəhətləri isə gizlədilir.

Aristotelə görə, tapmaca yaxşıca düzəldilmiş metaforadır. Deməli, tapmacanın cavabını tapmaq onun metaforik fikrini açmaq deməkdir. Belə tapmacaya misal olaraq aşağıdakını göstərmək olar:

O yanı qaya, bu yanı qaya,
İçində sarı maya.
(*Yumurta*)

Lakin tapmacaların hamısının ucdantutma metafora şəklində qurulduğunu iddia etmək doğru olmazdı. Çünki onların xeyli hissəsinin sadəcə sual şəklində deyildiyi hamıya məlumdur. Məsələn: O hansı quşdu, balasına süd verməz (*Yarasa*). Bu məsələ ilə əlaqədar olaraq folklorşünas İ.M. Kolesnitskaya yazır:

"Bir sıra tapmacalar var ki, onlar sadəcə sual şəklində təqdim olunurlar... Bəzi hallarda isə metafora iştirak etmir, yalnız təsvir qalır"[1].

[1] И.М.Колесницкая. Загадки. Русское народное поэтическое творчество, том II. Изд. АН СССР. М.-Л., 1955, стр. 533.



M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

Şəkli xüsusiyyətlərinə, daha doğrusu, poetik quruluşlarına görə tapmacalar əsasən iki yerə bölünür:

1. Nəsr şəkilli tapmacalar.
2. Nəzm şəkilli tapmacalar.

Birinci qismə daxil olan tapmacalar sadə cümləni təşkil edir. Məsələn:

Alçaq damdan qar yağar.
(*Ələk*)

Yer altda qızıl qamçı.
(*İlan*)

Bu əsas bölgüdən başqa qısa bir cümlə içərisində daxili qafiyəli tapmacalar da vardır:

Aləmi bəzər, özü lüt gəzər.
(*İynə*)

İkinci qismə daxil olan tapmacalar isə bir neçə yerə bölünür. Onlar iki, üç, dörd və çox misralı olur.

*a) iki misralılar:*

Yaşıldı əbası,
Sarıdı libası.
(*Badam*)

*b) üç misralılar:*

A mənim al yasdığım,
Ortası uzun dirək,
İçinə un basdığım.
(*İydə*)

*c) dörd misralıya misal olaraq aşağıdakı tapmacanı göstərmək olar:*

Tap tapmaca,
Gül tapmaca,
Məməli xatın,
Dişləri yox.
(*Toyuq*)

Bunlardan başqa 5, 6, 7 və 8 misralı tapmacalara da rast gəlmək olur. Saydığımız bu formaların mövcud olmasına baxmayaraq, dörd və iki misralı şeir formasında və qısa bir cümlədən ibarət nəsrlə deyilmiş tapmacalara daha çox rast gəlirik.



Şeirlə deyilmiş tapmacalarda hər misrada hecaların sayı 3, 4, 5, 7, 11 olur. Dörd misradan ibarət olan tapmacalarda birinci, bəzən də ikinci misralar heç bir məna ifadə etmir. Yalnız üç və dördüncü misralar mənalı olur. Əsl tapmaca həmin son iki misrada verilir. Məsələn:

"Hap-hapı"
"Biz idik, bizlər idik"
"Halalar, ay halalar" və s.

Yuxarıdakı misralar bəzən mənasız, lakin ahəngdar söz yığımından ibarət olur. Tapmacanın məzmunu ilə heç bir əlaqəsi olmur. Bunlar nağıldakı pişrovu əvəz edir. Nağıllarda olduğu kimi, eyni bir pişrov onlarca tapmacada işlənir. Biz tapmacalarda bəzən hazırda mənası olmayan, lakin vaxtilə hamıya məlum olan söz və misralar haqqında yuxarıda məlumat vermişik. Lakin buradan elə nəticə çıxarılmamalıdır ki, bu fikrimiz o birini inkar edir, əksinə, tapmacada hər iki formaya rast gəlmək olur.

Bəzən tapmacalarda hecaların sayının düz gəlmədiyi aydınlaşır. Belə hal aşıq şerində də müşahidə edilir. Lakin misralardan birinin uzun, digərinin isə qısa olmasına baxmayaraq, aşıq şerinin ahənginə uyğun olaraq sözlərin sonunu uzadıb-qısaltmaqla vəzn düzəldilir. Kənardan qulaq asan şeridəki çatışmazlığı hiss edə bilmir. Belə vəziyyət məhz tapmacalarda da özünü göstərir. Məsələn:

O yanı taxta,
Bu yanı taxta,
İçində alabaxta.
(*Beşikdə uşaq*)

Bu tapmacanı söyləyən adam birinci və ikinci misranı uzada-uzada dediyi halda, üçüncünü çox sürətlə deyir. Beləliklə, hecaların sayı arasındakı uyğunsuzluq hiss edilmir.

Tapmacanın şeriyyəti, vəzn və qafiyəsindən danışarkən bir məsələni qeyd etmək vacibdir: bəzən tapmacadan ciddi vəzn və qafiyə dəqiqliyi, yaxud klassik şeir metrikası tələb edən oxuculara rast gəlmək olur. Bu barədə alimlər xeyli tədqiqat aparmış və doğru nəticələrə gəlmişlər. Tapmacadan dəqiq vəzn və qafiyə tələb etmək qətiyyən doğru deyil. Bu janrda özünə görə müəyyən dərəcədə şeir qanunlarına uyğunluq mövcuddur. Lakin bu heç də bizim bu gün düşündüyümüz şeir deyildir. Tapmacada əsas ritm, ahəng hökm sürməkdədir. Ona görə də

bu janrdan Aşıq Ələsgər şerinin quruluşunu tələb etmək olmaz. Əvvəla, onu demək lazımdır ki, tapmaca əsasən kənd yerlərində, özü də əksər halda savadsız kütlə tərəfindən yaradıldığından, həm də çox uzaqlarda səsləşdiyindən orada ibtidai təfəkkür və şeir forması özünü göstərməkdədir. Məsələn, "Dədə Qorqud"dakı şeirlər bu gün bizim üçün nə dərəcədə sadə görünürsə, tapmacadakı şeriyyət isə ondan qat-qat zəif olmalıdır. Çünki tapmacanın yaranma tarixi min illərlə uzaqlara gedib çıxır. Bu barədə geniş tədqiqat aparmış İ.M.Kolesnitskaya yazır:

"Tapmaca hecaların ardıcıllığına əsaslanan düzgün vəznli və qafiyəli şerin nə olduğunu bilmir. Tapmacadakı şeir tonikdir"[1]. "Xalq tapmacalarının əksəriyyəti, onların ritmikliyindən asılı olmayaraq, şeir misralarına mütləq bölünməsini tələb etmir. Tapmacalar hər şeydən əvvəl cümlənin və qafiyənin şəkil intonasiyası ilə möhkəmlənmiş bölgüsünü tələb edir"[2].

Bütün xalqların tapmacalarına aid olan bu məsələ eyni ilə bizə də aiddir. Lakin bizim tapmacalarda fərqli bir cəhət vardır ki, o da başqa xalqlarda yoxdur. Məlum olduğu kimi, bizdə aşıq şerilə əlaqədar külli miqdarda bağlamalar, qıfılbəndlər, bayatılar yaranmışdır ki, orada qüvvətli şeriyyət, gözəl sənətkarlıq hakimdir. Həmin bağlamaların, bayatıların xeyli hissəsi olduğu kimi qalmış, bir hissəsi isə bu və ya digər dəyişikliyə uğrayaraq tapmacalara çevrilmişdir. Bu növ tapmacalarda isə şeriyyət, vəzn və qafiyə məsələsi çox qüvvətlidir. Oxucu belə tapmacalardan sonra əsl qədim tapmacalara rast gəldikdə, ikincilər çox sönük göründüyü üçün onu şeriyyətcə ya zəif, ya da pozulmuş tapmaca adlandırır. Bu da əslində belə deyildir. Çünki tapmacaların hamısının yüksək şeriyyətə malik olduğunu tələb etmək olmaz. Axı yüzlərlə tapmaca vardır ki, onlar sadə cümlələrdən ibarətdir.

Tapmacalarda xalq müqayisə, bənzətmə, təzad, təşbeh, sual, fantaziya və sairə kimi təsvir vasitələrindən məharətlə istifadə etmişdir. Məsələn:

Üstü qoyun,
Altı keçi,
Baş şabalıd
Quyruq qayçı.

(*Qaranquş*)

---

[1] И.М.Колесницкая. Göstərilən əsəri, səh. 534.

[2] Загадки. Изд. "Наука", Ленинград, 1968, стр. 14.



Bu tapmacanın tam bənzətmə yolu ilə düzəldiyinə heç şübhə qalmır. Bu bənzətmələr bəzən real, bəzən isə fantastik formada təzahür edir. Məsələn:

Göydən gəlir dərvişlər,
Kürkün yerə sərmişlər.
O qədər oynamışlar.
Xurdu-xəşil olmuşlar.

(*Qar*)

Yaxud:

Bizim evdə bir kişi var,
Ağzında üç dişi var.

(*Sacayaq*)

Bizim evdə bir kişi var,
Köndələn yatışı var.

(*Məfrəş*)

Yüzlərlə tapmaca göstərmək olar ki, oradakı bənzətmələr ilk baxışda inandırıcı görünmür. "Qar"ın dərvişə, cansız "sacayağı"n, "məfrəş"in canlı insana nə oxşarlığı ola bilər? Onu qeyd etmək lazımdır ki, təsvir olunan əşya ilə müqayisə edilən arasındakı oxşarlıq bəzən sadə və inandırıcı göründüyü halda, elə də olur ki, dolaşıq və fantastik şəkildə təzahür edir. Belə bir hal tapmacalar üçün qanunauyğundur.

Kimə məlum deyil ki, nağıl və əfsanələrdəki fantaziya qanunauyğun haldır. Əgər sehrli nağıllardakı fantaziyanı atsaq ona nağıl demək olarmı? Əlbəttə, yox. Ancaq onu da unutmaq olmaz ki, fantaziya burada da mövcuddur. Nağılda bu, geniş şəkildə təzahür etdiyi halda, tapmacada bir və ya iki misrada qısa şəkildə özünü göstərir. Bu, bütün xalqların tapmacalarında belədir. Görkəmli folklorşünas V.A.Vasilenko yazır: "Tapmacada əşyaların məcazi təsviri çox geniş fantaziya üçün qeyri-məhdud imkan yaradır. Bu və ya digər anlayışı ən müxtəlif əşyalara keçirmək olur. Belə ki, insan gözləri tapmacada qardaş, samur xəzi, quş, yumurta, kukla, alma, noxud, pul, ulduz, daş, cilov və s. adlandırılır"[1]. "Əksər halda cansız əşyalar tapmacada canlı varlıqlar kimi, insan kimi göstərilir"[2] və s.

---

[1] В.А.Василенко. Русское народное поэтическое творчество. Изд. "Высшая школа", Москва, 1969, стр. 141.

[2] Yenə orada, səh. 147.

Ümumiyyətlə, tapmacalarda söz oyunu, təkrar, təzad, müqayisə, təşbeh, istiarə və sairənin işlənməsi adət şəklinə düşmüşdür. Öz növbəsində bunlar isə janrın bədii cəhətdən daha da zənginləşməsinə xeyli kömək etmişdir.

Elm tərəfindən çoxdan sübut edilmişdir ki, tapmaca sadəcə xalq ifadələrindən, atalar sözlərindən, zərbi-məsəllərdən, nəğmələrdən, bayatılardan, bağlamalardan, hətta bəzi şairlərin şeirlərinin ayrı-ayrı misralarından əmələ gələn bir janrdır. Tapmacalarla atalar sözü və zərbi-məsəllərin qarşılıqlı əlaqəsinə dair tədqiqat aparmış İ.M.Kolesnitskaya yazır: "Bu iki janrın belə bir yaxınlığı əsasında çox vaxt tapmacalar atalar sözlərinə keçir və əksinə, ayrı-ayrı atalar sözləri və zərbi-məsəllər də tapmaca ola bilir"[1].

Aşağıda nümunə gətirdiyimiz tapmacalar həm də atalar sözü və zərbi-məsəllərdir:

Aləmi bəzər, özü lüt gəzər.
(*İynə*)

Əkdim palıd, çıxdı şabalıd.
(*Qatır*)

Ətindən kabab olmaz,
Qanından kasa dolmaz.
(*Nar*)

Bayatı, nəğmə və bağlamalara gəldikdə isə onu xatırlamaq kifayətdir ki, intonasiyanı dəyişmək, bəzən bir və ya iki misranı atmaq, əlavələr etmək yolu ilə də bu janrlardan tapmaca əmələ gəlir:

Göy üzü damar-damar,
Göydən yerə nur damar.
(*Yağış*)

Bu tapmaca əslində bayatı olmuş, sonra onun axırıncı iki misrası atılmaqla tapmaca əmələ gəlmişdir. Kimə məlum deyil ki, onlarca bayatı və nəğmələrimiz əsasən tapmacalardan ibarətdir.

Elə tapmacalar vardır ki, onlar bayatı formasındadır, hətta "mən aşiq", "eləmi", "əzziyəm" kimi sözlərlə başlayır. Məsələn:

Mən aşiqəm, könüldən,
Xəbər alın əmirdən.

---

[1] И.М.Колесницкая. Göstərilən əsəri, səh. 535.



Bu gün nübar yemişəm,
Budaqları dəmirdən.
(*Kabab*)

Əziziyəm, əmər hey,
Beldə gümüş kəmər hey.
Göydə madyan görmüşəm,
Yerdə quşun əmər hey.
(*Yağış, yer; otlaqda otlayan madyan və onu əmən qulun*)

Nəğmələrə aid:

Üçü bizə yağıdı,
Üçü cənnət bağıdı,
Üçü yığar gətirər.
Üçü vurar dağıdar.
(*İlin fəsilləri*)

Qeyd etmək lazımdır ki, yuxarıda deyildiyi kimi, tapmaca eyni zamanda nəğmədən, hətta şairlərin bəzi şeirlərindən də əmələ gəlir. Misraların azaldılıb-çoxaldılması, yeni sözlər artırılması və sairə ilə müxtəlif variantlar yaranır. V.V.Mitrofanova bu haqda yazır:

"Bəzən formaya əsasən hökm sürmək olar ki, tapmaca şeirlə yazılmışdır, lakin bu onu mexaniki olaraq kitabdan çıxarmağa əsas ola bilməz. Əgər tapmaca şifahi dilə daxil olmuşsa, deməli o, əsərlərə salınmalı və yeni tapmaca sayılmalıdır"[1].

Daha sonra müəllif qeyd edir ki, S.Marşakın şeirlərinin bəziləri tapmaca şəklinə düşərək uşaqlar arasında geniş yayılmışdır. Sonra həmin şerin misralarının azaldılması nəticəsində üç yeni tapmaca variantı yaradılmışdır.

Şeirdən əmələ gələn birinci tapmaca aşağıdakı kimidir:

Принялась кума за дело.
Завизжала и запела.
Ела, ела.
Дуб, дуб

---

[1] В.В.Митрофанова. Современое состояние русских народных загадок. Современный русский фольклор. Изд. "Наука, Москва, 1966, стр. 203.

Поломала
Зуб, зуб.
(*Пила*)

Həmin tapmacanın ikinci yarısı müstəqil şəkildə ağızlarda gəzir:

Ела, ела дуб, дуб
Поломала зуб, зуб.
(*Пила*)

Üçüncü variantı isə təkrarsız deyilir:

Ела дуб, поломала зуб.
(*Пила*)

Belə tapmacalara oxşar nümunələr bizim şifahi ədəbiyyatımızda da vardır. Məsələn:

O nədir ki:
Axşam çağında,
Ərik bağında,
Uçardı bir quş,
Edərdi qa-qa.
(*Qarğa*)

Tapmacalara yaxın olan janrlardan biri də bağlamalardır. Bağlamalar forma etibarilə mahnı şəklində olub, məzmun cəhətdən tapmacalara yaxınlaşır. Burada sual və cavab forması vardır. Həmin sual və cavablar şeirlə, özü də deyişmə şəklində olur. Bir-birilə bəhsə girişib deyişən aşığın mahir sənətkar olduğunu, hazırcavablığını sübut etmək üçün bu bağlamalar çox məharətlə düzəldilməlidir. Məhz buna görə də bağlamadan zəngin vəzn və qafiyə, gözəl ahəngdarlıq, dərin məna tələb olunur. Çünki deyişən aşıq rəqibindən üstün olmaq üçün dərin mənalı, zəngin bədii formalı şeirlər deməyə çalışmalıdır. Məsələn:

*Sual:* O nədir ki, özü vardır, zatı yox?
Nə xələtdir, tikişi yox, qatı yox?
O nə şeydir: dəvəsi yox, atı yox?
Uzun gedər, bir tükənməz yolu var.

*Cavab:* O kölgədir, özü vardır, zatı yox,
Dəri dondur: tikişi yox, qatı yox.
O gün, aydı: dəvəsi yox, atı yox,
Uzun gedər, bir tükənməz yolu var.



Bağlamalarla tapmacaların bir-birindən müəyyən mənada fərqləri də vardır. Bu fərqlərdən biri də odur ki, tapmacaların müəllifi məlum deyildir. Deyə bilərlər ki, hər bir tapmacanın da ilk yaradıcısı vardır və olmuşdur. Bu doğrudur, lakin tapmacanın ilk yaradanı olsa da, onun adı itib getmiş, ilk variantı xalq tərəfindən əsrlər boyu işlənmiş, dəyişdirilmiş və şəkildən-şəklə salınmışdır ki, burada da tapmacanın ilk məzmunundan, güman ki, çox az şey qalmışdır. Beləliklə, dönüb əsl xalq malı olmuşdur. Lakin bağlamalar belə deyildir. Onların əksəriyyətinin müəllifi məlumdur. Bəziləri də dastanlarda mühafizə edilib saxlanmışdır. Bu növ forma etibarilə də tapmacadan müəyyən qədər fərqlənir. Ümumiyyətlə, tapmacada cavablar şeirlə deyil, adi sözlərlə deyilir. Bağlama və deyişmələrdə isə birinci sual neçə misradan ibarətdirsə, verilən cavab da şeirlə deyilməli və birincinin misralarına bərabər olmalıdır.

Bütün bunlarla yanaşı, onu da qeyd etmək lazımdır ki, bağlamalar da tapmacaların bir növüdür. Çünki fərqli cəhətlərinə baxmayaraq, o janrın bütün qayda-qanunlarına cavab verir; müəllifləri məlum olsa da, həmin bağlamalar geniş xalq kütlələri içərisinə keçmiş, yeni-yeni variantları əmələ gəlmiş, hətta müəyyən dəyişikliklərə də uğramışdır. Məsələn:

O nədir ki, göydən yerə sallanır,
O nədir ki, hər nə versən allanır,
O nədir ki, göbəyindən nallanır,
Ustad isən bunnan mənə cavab ver.

Hazırda bu bağlamadan üç müstəqil tapmaca yaranmışdır. Buna görə də H.Zeynallı "Azərbaycan tapmacaları" kitabında bayatıdan yaranmış onlarca tapmaca nümunəsi vermiş və bağlamaları tapmacanın bir növü kimi təsnif etmişdir.

Tapmaca növlərindən biri də ləğzlər olub, şeir şəklində deyilir və başlıca olaraq şairlər tərəfindən yazılır. Ləğzlər yalnız yazılı ədəbiyyatımızda müşahidə edilir. Bu tapmaca növünün orta əsrlərdə, xüsusən, XIV-XVI əsrlərdə geniş yayıldığını söyləyənlər çoxdur. Buna dair məlumata H.Zeynallının "Tapmacalar"[1] kitabının müqəddiməsində, Q.Qurbanovun "Türkmən xalq nağılları"[2] dissertasiyasında rast gəlmək olur. Ləğzlərə misal olaraq aşağıdakıları göstərmək olar:

---

[1] H.Zeynallı. Tapmacalar. Bakı, 1928, səh. 16.

[2] Q.Qurbanov. Turkmən xalq matalları. Aşqabad, 1961, səh. 176.

Nədir ol bir gözəl pakizə doxtər,
Vermiş ona kakil xeyli zivər,
Takınmış həm neçə mənqum sibah,
Görən onu olur məftun və şeyda.

(*Tuğ şahı çiçəyi*)

Yaxud:

Ol nədir iki dəlikli bir ovuc,
Xəlqi-aləm ondan alırlar sovuc.

(*Burun*)

Qeyd etmək lazımdır ki, bu kimi ləğzlərin yaranması tapmacaların təsiri nəticəsində olmuşdur. Belə bir halın əmələ gəlməsi isə təsadüfi deyildir. Tarixdən məlum olduğu kimi, hər zaman şifahi və yazılı ədəbiyyat bir-birindən çox şeylər əxz etmiş, onu işləmiş və yenisini yaratmışdır. O cümlədən bəzi şairlər də xalq tapmacalarından istifadə edərək ləğz şəklində tapmaca məzmunlu şeirlər yazmışlar.

Ləğzlər forma, məzmun, dil cəhətindən mürəkkəb olduğu, çətin yadda qaldığı üçün xalq kütlələri içərisində geniş yayıla bilməmişdir. Bunlara yalnız cünglərdə və bəzi kitabların kənarlarında rast gəlmək mümkündür.

***Nurəddin Seyidov***



# TƏBİƏT VƏ TƏBİƏT HADİSƏLƏRİ

*(Səma cisimləri: Ay, Günəş, ulduzlar; təbiət hadisələri: bulud, yağış, qar, dolu, külək, ildırım və s.; Od, su və Yer haqqında)*

1. Ağ sandığım açıldı,
İçinnən nur saçıldı.

2. Ağ tas, qızıl tas,
Birin götür, birin as.

3. Ağac başında ağca yumaq.

4. Adam deyil, hey qaçır,
Meşə deyil, səs salır.

5. Ay gedər ha il gedər,
Gecə-gündüz yol gedər.
Nə dili var, nə ağzı,
Nərildər aslan kimi.

6. Ayağı yoxdur qaçır,
Qanadı yoxdur uçur.

7. Ayağınnan aldırmaz,
Ağza yüyən vurdurmaz.

8. Aləmə işıq salır,
Axşam gül kimi solur.

9. Alçacıq quyu,
Dambıldar suyu.

10. Anam atlandı,
Xalı qatlandı,
Quyruq bulandı,
Qum səpələndi.

11. Anası qaraca,
Qızı qırmızıca,
Oğlu qıvrımca.

12. Araba gedər, izi yox,
Yanar, yanar, gözü yox.

13. Ata minər, səslənməz,
Yerə düşər, paslanmaz.
Suya düşər, islanmaz.

14. Atamın bir qurşağı var,
Dəstələdikcə qurtarmır.

15. Atamın yeddi oğlu var,
Yeddisi də bir boyda.

16. Atdım atana,
Dəydi kotana,
Suda balığa,
Düzdə ceyrana.

17. Axşam gedər,
Səhər gələr.

18. Ahanı, ha ahanı
Gəzər cümlə cahanı.
Dərələrdə öldürdüm,
Nə əti var, nə qanı.

19. Babamın bir donu var,
Qatlayıram, qat götürmür.



20. Babamın bir donu var, qatlamaq olmaz,
İçi dolu əşrəfidi, sanamaq olmaz.

21. Babamın bir donu var,
İçi dolu abbası,
Gündüz girər kisəyə
Gecə çıxar eşiyə.

22. Babamın bir çuxası var, on iki cibi,
Cibin hər küncündə otuz düymə,
Hər düymənin bir üzü ağ, bir üzü qara.

23. Bayırda sağdı,
Pambıqdan ağdı,
Evə gələr,
Suya dönər.

24. Balta vurdum nimçəyə,
Səsi gəldi Gəncəyə.

25. Balta vurdum çəkilə,
Çəkil yerə tökülə.
Quşlardan hansı quşdu,
Özü düzə çəkilə.

26. Basdırmışam iki toyuq,
Biri isti, biri soyuq.

27. Baş üstə durar,
Baxıb göz vurar.

28. Bir abam var, qatlamaq olmaz,
Bir patavam var, sarımaq olmaz,
Bir xəlbir aşığım var, sanamaq olmaz.

29. Bir ağ daşım var, odda yanmaz,
Suda batmaz, gün çıxanda əriyər.

30. Bir ağacım var, on iki budağı,
Hər budağın otuz yarpağı,
Hər yarpağın bir üzü qara, bir üzü ağ.

31. Bir atım var,
Sakit durmaz.
Hey yol gedər,
Heç yorulmaz.

32. Bir atım var ağ alaca,
Özü gedər, yəhəri qalar.

33. Bir atım var səməndi,
Nə ucu var, nə bəndi.
Özü açılar, özü yumular.
Heç kəs bilməz bu fəndi.

34. Bir atım var cilovda durmaz,
Gecə gedər, gündüz yorulmaz.

35. Bir balaca mil daşı,
Yandırar dağı, daşı.

36. Bir balaca nar daşı,
Götürəmməz min kişi.

37. Bir xəlbir aşığım var,
İçində bir saqqası.

38. Bir qızıl öküzüm var,
Harda yatsa ot bitməz.

39. Bir kilimim var,
Min bir naxışı,
Yelbaba süpürər,
Payızı, qışı.

40. Bir kişinin dörd evi var,
Biri yaşıldı, o biri al,
Biri sarıdı, o biri ağ.

41. Bir nəlbəki nar giləsi,
Ələ gəlməz bir dənəsi.

42. Bir palazım var, çırpa bilmirəm,
Naxışı xırdadı, saya bilmirəm.

43. Bir sinidə iki toyuq –
Biri isti, biri soyuq.

44. Bir tabaq almaz,
Sabaha qalmaz.

45. Biri deyir, gəl gedək,
Biri deyir, getmiyək,
Biri başın buluyur.

46. Biri gedər, gəlməz,
Biri yatar, durmaz.

47. Bulud-bulud içində,
Ay da bulud içində,
Göydən yerə od yağdı,
Biz də yandıq içində.

48. Burdan vurdum baltanı,
Ordan çıxdı qaltanı,
Anam bir oğlan doğub,
Yerin, göyün soltanı.

49. Burdan vurdum baltanı,
Ordan çıxdı qaltanı,
Qara qız oğlan doğdu
Yerin, göyün soltanı.

50. Burdan vurar qılıncı,
Bağdadda oynar ucu.

51. Buruq-buruq hara gedirsən?
Təpəsi dəlik, sən nə deyirsən?

52. Buxarı, ha buxarı,
Buxarıdan yuxarı,
Ordan bir oğlan çıxdı,
Çiyni qara çuxalı.

53. Qazdım, qazdım qum çıxdı,
Qumdan miranə çıxdı.
Bu gecə ölən oğlan
Sabah bazara çıxdı.

54. Qara sacın altı qara,
Dur üstündə ocaq qala.

55. Qara toyuq,
Qarnı yarıq.

56. Qara toyuq qaqqıldar,
Qanadları şaqqıldar.

57. Qara toyuq, göy cücələr.

58. Qara xanın qarnı yarıq,
İçi dolu qızıl balıq.

59. Qəndə bənzər dadı yox,
Göydə gəzər, qanadı yox.

60. Qızıl ləyən, qızıl tas,
Birin götür, birin as.



61. Qızıl öküz yatdı, qalxmadı,
Boz öküz getdi, gəlmədi.

62. Qır at qovar, boz at qaçar,
Boz at qovar, qır at qaçar.

63. Qırmızı nar,
Hər evdə var.

64. Dağdan, daşdan qan gəlir,
Qıvrılmış ilan gəlir.
Qabağında durmayın,
Qudurmuş aslan gəlir.

65. Dağdan gəlir dağ kimi,
Qolları budaq kimi.
Əyilir su içməyə,
Böyürür oğlax kimi.

66. Dağdan gəlir, daşdan gəlir,
Qudurmuş bir aslan gəlir.

67. Dağdan gəlir dağ kimi,
Qolları budaq kimi,
Oturur həsir kimi,
Duranda yesir kimi.

68. Dağdan gəlir hozı kimi,
Dəyirmanın tozu kimi.

69. Dağlarda qar əridi,
Ayaq tutub yeridi,
Dərə görüb bağırdı,
Dərya görüb kiridi.

70. Dam dambıldar,
Su gumbuldar [şappıldar],
Heyva çalar,
Nar oynuyar.

71. Dam üstə daylaq oynar,
Yerə dəyib oyular.

72. Dəyirmana dən doldu,
Zülf üzünə bənd oldu,
Düz üç yüz altmış taxta
Bir mismara bənd oldu.

73. Dəyirmi təpə,
Qızıldan küpə.

74. Dərd-bəlanı sovan kösöv,
Qurdu-quşu qovan kösöv.

75. Dilim-dilim nar,
Dizimətən qar.
Uçdu bir kəklik,
Qondu bir dilbər.

76. Eşiyə bir ağac düşüb,
Nə qolu var, nə budağı.
Bir quş gəldi, onu yedi,
Nə dili var, nə dodağı.

77. Əzziyəm, yasda,
Quyruğu dəstə.
Yeddi cam gördüm,
Bir başın üstə.

78. Əzziyəm, ay mələr,
Bulud göydə, ay mələr,
Qoç bir quzu görübdü,
Süd deyibən ay mələr.

79. Əzziyəm, əmər hey,
Beldə gümüş kəmər hey,
Göydə bir madyan gördüm,
Yerdə qulun əmər hey.



80. Əl ilə tutmaq olmaz,
Göz ilə görmək olmaz.

81. Əlamət, ay əlamət,
İşi tamam qiyamət,
Əli yox, şəkil çəkir,
Dişi yoxdu, dişləyir.

82. Ələy ha vələy olar,
Dəyirmana dən dolar.
Usta əli dəyməmiş,
Xərməndə gərəy olar.

83. Əmim oğlu ustadı
Əli kəmər üstədi.
Suda körpü salıbdı,
Gəl gör necə ustadı.

84. Zər kilim, zəncir kilim,
Ağırdı andır kilim.
Nə qaldırmaq olur, nə çırpmaq.

85. İki ləyən qapa-qap,
Birin deyim, birin tap.

86. İki öküz bir yerdə,
Biri aldı, biri çal.
Alı yatıb tərpənmir,
Çalı gedir hənir-hənir.

87. İki öküzüm var, biri göy, biri qızıl
Qızıl öküz yatar durmaz,
Göy öküz gedər, gəlməz.

88. İriz-iriz gedirəm,
İrizbana gedirəm.
Gəncədə su içmişəm,
Xoruzbana gedirəm.

89. İşım-işım işıldar,
Yarpaq kimi xışıldar.

90. Yaxşıca gözəldi hamıya baxar,
Üzünə baxanı yandırar, yaxar.

91. Yer altınnan yasa gedər.

92. Yer altında gümüş kəmər.

93. Yer üzünün qarası,
Ağacların anası.

94. Yerdə bir ağ süfrə var,
Pambıq kimi parıldar.

95. Yerə vurdum baltanı,
Ağzı gümüş xaltanı.
Yerdən bir oğlan çıxdı,
Cümlə cahan soltanı.

96. Yuvası var dərədə,
Qanadları təpədə,
Gecə-gündüz yol gedir,
Dərədədi, dərədə.

97. Yük üstə para fətir,
Bacarırsan, tut gətir.

98. Göydə uçar bir maya,
İşıq salar dünyaya.

99. Körpü altdan saz gedər,
Qaqqıldayar, qaz gedər.

100. Gedər-gedər gözü yox,
Yorğa gedər, tozu yox.



101. Gecə gedir ley-leyi,
Gündüz gedir ley-leyi,
Nə ilyi var, nə sümyü.

102. Göydə doğular,
Yerdə boğular.

103. Göy üzü damar-damar,
Göydən yerə nur damar.

104. Göydə durub qızıl daş,
Cümlə cahan əyir baş.

105. Göydə gəzər qalaq-qalaq,
Gah tutqundur, gah rəngi ağ.

106. Göydə gördüm bir maya,
Atıldı, düşdü çaya.

107. Göydən bir ağac düşdü,
Barsız, budaqsız.
Onu bir quş yaladı,
Dilsiz, dodaqsız.

108. Göydən düşdü, yerə yapışdı.

109. Göydən yerə buz yağır,
Görün necə düz yağır.
Darı boyda, qoz boyda,
Görmədim qarpız boyda.

110. Göydən gələ-gələ,
Düşür gilə-gilə,
Bunun adı nədir –
Gərək, hamı bilə.

111. Göydən gəlir dərvişlər,
Kürkün yerə sərmişlər.
O qədər oynamışlar,
Xurdu-xəşil olmuşlar.

112. Göydən gəlir sel kimi,
Yerə dəyir tel kimi.

113. Gün çıxanda yox olur,
Gün batanda çox olur.

114. Gündüz gedər uzun qız.
Gecə gedər uzun qız.

115. Gündən güclü,
Yeldən gücsüz,
Yoxdu gözü,
Ağlar özü.

116. Gündüz pozular,
Gecə düzülər.

117. Mavi atlas,
İynə batmaz,
Qayçı kəsməz,
Tərəzi çəkməz.

118. Mavi atlas,
Ortasında
Bir qızıl tas.

119. Mən aşiqəm, düz yerdə,
O göydədi, biz yerdə.
O yer olmaz keçməsin,
Salmaz bircə iz yerdə.

120. Mən getdikcə o uzanır.



121. Min minarə
Dibi qarə,
Yüz min çiçək,
Bir yarpaq.

122. Nə daşı var, nə taxtası,
Nə zəri var, nə baftası.
Çaylar üstə körpü salar,
Sütunları sudan olar.

123. Nə əli var, nə ayağı,
Qoca kişi yer qazır.

124. Nə ələnməz, nə bələnməz
Ocaq başına gələnməz.

125. Nə əli var, nə ayağı
Dağıdar dəli sayağı.
Şıqhaşırıq açar qapı.

126. O nədi ki, dayanıbdı dayaqsız,
O nədi ki, boyanıbdı boyaqsız.

127. O nədi ki, dayım uzun,
Qurşağı gödək.

128. O nədi ki, dörddür, beş deyil.

129. O nədi ki, ikidir , üç deyil.

130. O nədi ki, işığı var, istisi yox.

131. O nədi ki, yaşı çoxdu qocalmaz,
O nədi ki, gəzər, məkanı olmaz,
O nədi ki, nə əskilməz, nə dolmaz.

132. O nədi ki, gələn yaz,
Gələn qışdı, gələn yaz.
Qış bir xörək bişirdi,
Yağın tökdü gələn yaz.

133. O nədi ki, göydən yerə sallanır.

134. O nədi ki, gündüz gözü korşalır,
Gecə od tutub yanır.

135. O nədi ki, özü var,
Camalı var, gündə iki saat ömrü var.

136. O nədi ki, özü var, kölgəsi yox?

137. O nədi ki, öz məzarın özü qazar.

138. O nədi ki, silahı yox atışar,
Atışıban bir-birinə qarışar.

139. O nədi ki, tut ucundan göyə çıx.

140. O nədi ki,
O gözünü yumanda,
Dünya zülmət görünür.
O gözünü açanda
Aləm nura bürünür.

141. O hansı ağacdı ki,
Kökü havada durar,
Budaqları yerdədi.

142. O hansı anadı ki,
Udar balalarını.

143. O hansı bağdı ki,
Torpağın əkmək olmaz,
Çınqılın çəkmək olmaz.

144. O hansı quşdu ki,
Bir qanadı ağdı,
Bir qanadı qara.



145. Odda yanmaz,
Suda batmaz.

146. On beş gün düz şahlıq etdi,
On altıda köçüb getdi,
Otuzunda nadan oldu,
On dörddə kamala doldu [yetdi].

147. Oturmuşdum səkidə,
Ürəyim səksəkədə.
Göydən bir alma düşdü,
Bir qızıl nəlbəkidə.

148. Özü burda,
Saqqalı damda.

149. Rizhariz gedirəm,
İrizbana gedirəm,
Gölməçədən su içib,
Xoruzbana gedirəm.

150. Sağsağan səkər,
Quyruğun bükər,
Qaz qaqqıldar,
Yumurta tökər.

151. Sandıq sandıq içində,
Qızıl sandıq içində,
Araza bir od düşdü,
Biz də yandıq içində.

152. Sarıca kişi yer dələr.

153. Sərnic altda iki toyuq,
Biri isti, biri soyuq.

154. Səhər gül kimi açır,
Aləmə nurun saçır.

155. Suda bitər,
Suda itər.

156. Suya düşər islanmaz,
Yerə düşər paslanmaz.

157. Səpdim gecə noxudu,
Səhər gördüm yoxudu.

158. Tərəzi var, təngi var,
Hər bir rəngdə rəngi var.

159. Uzaqdan baxaram ağarar,
Yaxına gedərəm bağırar.

160. Uzaqdan baxdım yaman çox.
Yanına getdim, heç nə yox.

161. Uzun qızın kölgəsi yox,
Müştərisi hər şeydən çox.

162. Uzun-uzun qayışlar,
Gedib Gəncədə işlər.

163. Uzun-uzun ulama,
Ucuna qıl dolama.
Gedər uca dağlara,
Gələr bizə salama.

164. Uzun-uzun ulama,
Ucuna sap dolama.
Gedər bəyin yanına,
Bizə gəlməz salama.

165. Uzun hacı, kök hacı,
Duman başının tacı.



166. Uçan bir quş kənəkdir,
İşi tamam kələkdir,
Dəyirmana can verər,
Xırmana da gərəkdir.

167. Üç qardaşım var:
Biri suluyur,
Biri üfürür,
Biri bitirir.

168. Üçü bizə yağıdı,
Üçü cənnət bağıdı,
Üçü yığıb gətirir,
Üçü vurub dağıdır.

169. Xam gümüşə axşam səpdim darını,
Səhər durub dedim darı bəs hanı?

170. Xub gözəldi hamıya baxır,
Ona baxana iynələr taxır.

171. Halalar, hay halalar,
Dağda kəklik balalar,
Nə kiçiyi böyüyər,
Nə irisi balalar.

172. Həşədə, ay həşədə,
Bir quş tutdum meşədə,
Atanın yeddi oğlu,
Hamısı bir peşədə.

173. Həyətdə dağ,
Pambıqdan ağ,
Evə gələr,
Suya dönər.

174. Həmişə gedər, mənzilə çatmaz.

175. Həsənağa xəstədi,
Qolları qəfəsdədi,
Nə yerdədi, nə göydə
Çərxi-fələk üstədi.

176. Hini hinicə, burnu əyricə,
Hara gedirsən, bu yarı gecə.

177. Çiy ipək, çiləmə ipək,
Bircə yarpaq, yüz min çiçək.

178. Cavanlıqda oturar,
Qocalıqda yırğalanar.

179. Cin çinar başında,
Cin qara quş oturmuş,
Yağlanmış, buğlanmış,
Quyruğu düyünlənmiş.



# NƏBATAT ALƏMİ

## MƏDƏNİ BİTKİLƏR

180. Ağ at biyan içində,
Quyruğu qan içində,
Getdim qanı silməyə,
Batdım biyan içində*.

181. Ağ qıza əl uzatdım,
Məsti budaqda qaldı.

182. Ağacın tutmaq olmaz,
Ətrindən doymaq olmaz.

183. Bağrım başı zədəndi,
Zədəndi, zəbərdəndi,
Yaşıl əkdim, al tökdü.
Görən əsli nədəndi.

184. Bahalıdı qiymətin,
Şahlar çəkir minnətin.

185. Bir sürü atlar,
Çəməndə otlar,
Vaxtı gələndə,
Dərisi çatlar.

186. Qoca babam allandı,
Qızıl toyuq sallandı.

*Həmin bitkinin kökündən boyaq rəngi alınır.

187. Dərya qırağı düzdü,
Sanasan əlli, yüzdü.
Yaşıl əkdim, al bitdi,
Görən əsli nə düzdü.

188. Dərya üzü samandı.
Samana bir od düşdü,
Gör nə aman-amandı.

189. Evimdə bir gəlin var, lalə bədəndi,
Al ata, yaşıl nəsli deyin nədəndi?

190. Ənbər havası var bunun,
Töhfə əzası var bunun.
İynə ilə dəlik-dəlik,
Gör nə səfası var bunun.

191. Yaşıl taxt üstündə oturub pəri,
Yaquta, mərcana bənzər ləbləri,
Uzaqdan baxarsan üzün gizlətməz,
Əlini uzatsan vurar neştəri.

192. Nədəndi, ay nədəndi,
Dərmə, nazik bədəndi,
Plov üstə məskəni,
Görən rəngi nədəndi?

193. Nədəndi, ay nədəndi,
Bağrım zədən-zədəndi.
Ağacında od yanar,
Yarpağı göy nədəndi?

194. O nədi ki, boyanıb boyaqsız*.

195. Özü ala,
Yeri tala,
Para-para,
Qəlbi qara.

* Bu tapmacanın da bir çox başqa cavabları vardır.

196. Sarı abası var bunun,
Büzmə yaxası var bunun,
Üstü çopur, içi dilim,
Gör nə səfası var bunun.

197. Sarı-sarı sandıqlar,
İçi dolu fındıqlar.

198. Tabaq qabaq içində,
Sübhü sabah içində,
Dayanıb ayaq üstə,
Ətri də var içində.

199. Tapı-tapı,
Kərki sapı.
Altı gülü,
Beş yarpağı.

200. Toxum əkdim, yarpaq bitdi,
Yarpağın qocalar diddi.

201. Xan bağında bir gül açıb bərki bəzəkdi,
Yaşıl çalır, al rəng alır, bəs o nədəndi.

202. Həşi dərili,
Huşu dərili,
Yazda əkili,
Payız dərili.

203. Çələbi çəltik əkir,
Bir layı tüklü,
Bir layı tüksüz.

204. Çiçəkliyər, gül deyil,
Ağdı, amma qar deyil,
İstisi var, yun deyil.

## AĞACLAR

205. Aşmaz-uşmaz,
Yerə düşsə,
Beli sınmaz.

206. Əynində yaşıl donu,
Damarları görsənir.

207. Əyri-üyrü boy atar,
Ayağı yerə batar.
Salxım-salxım sallanar,
Altında sarvan yatar.

208. İnəyim var, eşikdədi,
Ayı, ili eşikdədi,
İldə bir kərə sağılar,
Özü yenə eşikdədi.

209. Yağış yağanda,
Çimər, yuyunar.
Yazda geyinər,
Qışda soyunar.

210. Yaşılı yamanca bərkdi,
Sarısı lap göbələkdi.
Əl vurma, düşəcəkdi.

211. Uzanar, ha uzanar,
Qollarınnan balalar.

212. Uzun-uzun uzanar,
Al yaşıla boyanar.
Qırmızıdan don geyər,
Ərş üzünə uzanar.



## BOSTAN VƏ TƏRƏVƏZ MƏHSULLARI

213. Alaca, ha bulaca,
Səpdirmişəm yamaca,
Düz dırmaşar ağaca.

214. Anaxanım atlandı,
Qol-qanadı qatlandı.

215. Babam oturub al çuxada,
Kim soyundursa gözü çıxar.

216. Bağda bitər tağı yox,
Ha sıxarsan yağı yox.

217. Bostanda var gombul kosa,
Üstü bozdu, içi xasa,
Əzsən dolar qanla kasa.

218. Bədəni yerdə,
Saqqalı göydə.

219. Bir balaca mil daşı,
Yandırır dağı-daşı.

220. Bir quşum var alaca,
Getdi qondu ağaca,
Özünə bir ev tikdi,
Nə qapı qoydu, nə baca.

221. Bir quşum var bağdadı,
Dimdiyi yarpaqdadı.

222. Bir damım var, qapısı yox.

223. Bir kişi var – özü burda
Bağırsağı orda.

224. Bir kiçicik yurd,
İçi dolu qurd.

225. Bir sandığım var mərəndi,
Nə qıfılı var, nə bəndi,
Elə açılır, elə yumulur,
Heç kəs bilməz o fəndi.

226. Bir toyuğum var, yer altında yumurtlar.

227. Bostanda var bir arvad,
Paltar geyib qatbaqat.

228. Bu yol hazara gedər,
Mehdi bazara gedər,
Atası oturmamış,
Oğlu bazara gedər.

229. Qatbaqat döşək,
Tapmayan köşək.

230. Qırmızı toyuq bağda,
Dimdiyi var torpaqda.

231. Qutu-qutu içində,
Qutunun lap içində,
Gözəl bir əl yaylığı (nənəmin əl yaylığı),
O da qutu içində.

232. Dağdan atsan əzilməz,
Bir yumruğa dözəmməz.

233. Dilbər zindanda,
Saçı eyvanda.

234. Əzizim, qəssab ağlar,
Sarı don qəssab ağlar.
Ölən qoyun ağlamaz,
Öldürən qəssab ağlar.



235. İlim-ilim düyməsi,
İlim xatın düyməsi,
Hər kəs onu tapmasa,
On beş tümən cərməsi.

236. Işım-ışım ışıldar,
İlan kimi xışıldar,
İlan deyil, yarpaqdı,
Yatdığı yer torpaqdı.

237. Yaşıl tağım var,
Al otağım var.
Göy paltarımda
Boz qurşağım var.

238. Yer altında qanlı bəsti.

239. Yer altında qıllı baş.

240. Yer altında sarı biz.

241. Göy öküz yoldan baxır.

242. Lalalar, ay lalalar,
Laladan piyalalar,
Qol-budağı çiçəklər,
Köklərindən balalar.

243. Lalalar, ay lalalar,
Ortası al, çölü yaşıl, lalalar,
Ağıllılar ağıl ilə taparlar,
Ağılsızlar qəm evinə batarlar.

244. Ləyəndə, ay ləyəndə,
Gül boynunu əyəndə,
Yeyilər kal vaxtında,
Yemək olmaz dəyəndə.

245. Nə qapısı var, nə bacası
İçi dolu sərçə balası.

246. O nədi ki, saqqalı yerdə,
Ayaqları göydə.

247. O nədi ki,
Otuz səkkiz paltar geyir,
Hamısı düyməsiz.

248. Sarıdı sətlan kimi,
Aladı qətran kimi.
Boynu uzun qaz kimi,
Yumrucadır qoz kimi.

249. Sarı-sarı sandıqlar,
İçi dolu fındıqlar.

250. Uzundu boyu
Ağdı qanı,
Sudu canı.

251. Uzun-uzun uzanar,
İpdən tutub sallanar.

252. Üstü qırmızı, içi ağ,
Çiyi acı, bişmişi yağ.

253. Üstü yaşıl məxmərdi,
İçi şirin şəkərdi.

254. Haqq bağlar boğazını,
Bəndə açar ağzını.

255. Hallanar, hullanar,
Yaşıllanar, sallanar.

256. Hilidim, ha hilidim,
Kəsilər dilim-dilim,
Bir kəndi, qırx kilidim.

257. Çatı su içər, dana köpər.



258. Çəpər üstə çal xoruz.

259. Çil toyuq, çiləmə toyuq,
Başını kəsdim qanı yox*

260. Çoxlu tağ atar,
Torpaqda yatar,
Qoyma yetişsin,
Kal-kal dər, apar.

## MEYVƏLƏR

261. Ağ uzatdım,
Al toxudum,
Qara sərdim.

262. Ağac başında al yanaqlı qız.

263. Ağac başında bir torba un.

264. Ağac başında gözü çıpalaqlı qoca.

265. Ağac başında qara yumaq.

266. Ağac başında qırmızı qız.

267. Ağac başında qırmızı yumaq.
268. Ağac başında qımro bitər.

269. Ağac başında darı quyusu,
Dağarcıqdı, sözün doğrusu.

270. Ağac başında zığlı dağarcıq.

271. Ağac başında sarı yemiş.

* Bu tapmaca da çoxcavablıdır.

272. Ağac başında sarı yumaq
Üstünə səpilib ağ sumaq.

273. Ağac başında tüklü yumaq,
Bir üzü ağ, o biri sarımtıraq.

274. Ağac başında unlu dağarcıq.

275. Ağac başında hovuz,
Onu tapmayan donuz.

276. Ağzı bağlı bir təndirim var,
İçi bircə kündə tutar.

277. A mənim, al yastığım,
İçinə un basdığım.

278. Al gəlir Ayıstannan,
Gül gəlir Gülüstannan
Bir şamama tapmışam
Bir ilin bostanınnan.

279. Aldım bir dənə,
Açdım min dənə.

280. Altı dəri, üstü dəri,
İçində bir ovuc darı.

281. Altı taxta,
Üstü taxta
İçində yaşıl paxla.

282. Babam atdan düşdü,
Donu bənddən düşdü.

283. Bağda bitər tağı yox,
Ha sıxarsan yağı yox.



284. Biz-biz idik, yüz qız idik
Bizi büzdülər, ipə düzdülər.

285. Bir ağacım var dam boyda,
Meyvəsi badam boyda.

286. Bir balaca boyu var,
Al-atlazdan donu var.

287. Bir balaca boyu var,
Qırmızıdan donu var.

288. Bir balaca boyu var,
Darayıdan donu var.

289. Bir balaca dağarcıq,
İçi dolu gül mıncıq.

290. Bir dağarcıq unum var,
İçində bir vərdənə.

291. Bir dükanım var, həm məxmər dükanıdır,
Həm əllaf dükanı, həm də odun dükanı.

292. Bir yanı ağ,
Bir yanı al.
Ağzına al,
Dadıdı bal.

293. Bir zərbab taxta,
İçində paxla.

294. Bir təndirim var, iki çörək tutur.

295. Vay dədə, papağım ağacda qaldı.

296. Qahqah qalası var bunun,
Qan piyalası var bunun,
Nə doğur, nə törəyir,
Pərvaz balası var bunun.

297. Qızıl ağac yırğandı,
Sırğaları sallandı.

298. Qutu-qutu içində,
Sandıq qutu içində
Fatmanın ağ yaylığı
O da qutu içində.

299. Dağ kolunda bir damcı qan,
Hər tərəfi yaşıl orman.

300. Dağdan bir qab aş yumarladım,
Dənəsi də yerə düşmədi.

301. Dağdan gəlir hənir-hənir,
Yerə düşdü yumru dəmir.
Vur başına, otur gəmir,
A daş-dəmir, adın nədir?

302. Dəvədən böyük,
Sərçədən kiçik,
Zəhərdən acı,
Şəkərdən dadlı.

303. Dədəsi donqar əli,
Anası yastı pəri.
Qızı ellər gözəli,
Qardaşı yaman dəli.

304. Dəyirmana dən gəldi,
Qırmızı don tən gəldi,
Toxunmamış çuvalda,
Üyünməmiş un gəldi.

305. Dörd qardaş bir qundaqda yatıb,
Göbəklərin bir-birinə çatıb.

306. Ətindən kabab olmaz,
Qanından kasa dolmaz.

307. İpsiz iynə, deşiksiz muncuq,
Allah düzər, adam üzər.

308. İçi qırmızı, çölü boz.
Üstü yemiş, içi qoz.

309. İçi darı, çölü sarı.

310. Yaşıldı abası,
Sarıdı libası.

311. Yerdə bitir, tağı yox,
Əridirsən, yağı yox.

312. Yeri qazdım qum çıxdı,
Qumnan minarə çıxdı,
Bildirki keçəl oğlan
Bu il çinara çıxdı.

313. Yol üstə qara yaylıq.

314. Yumru yemiş,
Çərdəyi naxış,
İçi qırmızı,
Eşiyi boz.

315. Yupyumru fincan,
İçi dolu mərcan.

316. Kiçik-kiçik sandıqlar,
İçi dolu fındıqlar.

317. Göydən bir dəri düşdü,
Toyuq ona yürüşdü.

318. Göydən gələr millənər,
Yerə düşər dillənər.

319. Göydən gəlir hənir-hənir,
Yerə dəyir halqa dəmir,
Üstünü qoy, için gəmir.

320. Gülsüz olar meyvəsi,
Şirin-şəkər dənəsi.

321. Məmmədəli ilikdən,
Bir kürkü var sümükdən.
Dağdan atsan əzilməz,
Bir təpiyə dözəmməz.

322. Məmmədbağır bağında,
Gül bitər budağında,
Yel vurar yellənđirər,
Sırğası qulağında.

323. Nə zərrindir, nə bafta,
İçində yaşıl tafta.

324. Nədəndi, ha nədəndi,
Bağrım başı zədəndi,
Yarpağında od yanar,
Ağacı göynədəndi.

325. O yanı sarı taxta,
Bu yanı sarı taxta,
Ortası yaşıl bafta.

326. O yanı taxta
Bu yanı taxta,
Yumru bəy otaqda.

327. O nədi ki,
Qış göyərir,
Yaz qızarır,
Payız qaralır.

328. O nədi ki, əl vursan qanı tökülər.

329. Pəsdədi, ha pəsdədi,
Şəki-Şirvan üstədi,
Yemişlərdən hansıdı,
Çəyirdəyi üstədi?

330. Salxım-salxım sallanar,
Çox qaldıqda ballanar.
Göydə nərdivan olsa,
Çıxar ordan sallanar.

331. Sapsarıca yemişəm,
Ərəbidən gəlmişəm.
Baldan şirin dadım var,
Adda-sanda adım var.

332. Tək çərdəkli yemişəm,
Nəbatdan da şirinəm.

333. Uzaqdan gördüm çalı-çəpər,
Yaxına getdim, məni çəkər,
Əlimə alsam qanı damar,
Ağzıma qoysam, qənd-şəkər.

334. Uzun boylu,
Qızıl donlu,
Ağ köynəkli,
Əlfi ağa.

335. Üstü dəri, içində şəkər pəri.

336. Üstü məxmər,
İçi şəkər,
Üstünə sürt,
Ağzına dürt.

337. Üç dükanım var,
Bir-birindən fruş,
Biri atlas fruş,

Biri fəs fruş,
Biri də alaca fruş.

338. Fındıqdan iri,
Yumurtadan balaca,
Payız vaxtında,
Bəzək verər ağaca.

339. Hazar hazara gedər,
Mehdi bazara gedər,
Anası üç yaşında,
Oğlu bazara gedər.

340. Hacılar haca gedər,
Cəhd edər gecə gedər,
Bir yumurta içində,
Qırx, əlli cücə gedər.

341. Heyva kimi sapsarı,
Nə heyvadı, nə darı.
Bir ağacdan dərərəm,
Ləzzətini görərəm.

342. Həsdədi, ay həsdədi,
Taxtı rəvan üstədi,
Bu yemiş nə yemişdi,
Bir budağın üstədi.

343. Hər-hər havası var bunun,
Zərdən çuxası var bunun,
Neşdərlənib dərmə-deşik,
Gözəl səfası var bunun.

344. Həsdədi, ha həsdədi,
Əlim kitab üstədi,
Meyvələrdə biri var,
Hamı onun üstədi.



345. Həsdədi, ha həsdədi
Şəki–Şirvan üstədi,
Qırağı qızıl kərpic,
İçi badam üstədi.

346. Hilli-hillicə,
Ağzı qıllıca.

347. Çəyirdəyi qaflıca,
Yeyilməyi dadlıca,
Kəbəyə get, doyarsan,
Nə olduğun duyarsan.

348. Çölü sarı,
İçi darı.

349. Cavanlıqda ağ saqqal,
Böyüyəndə al saqqal,
Qocalanda qır saqqal.

## YABANI VƏ DƏNLİ BİTKİLƏR

350. A gedən kişi,
A gələn kişi,
Papağı yekə
Ayağı təkə.

351. Ağ qız çiməndə uzanar.

352. Ağac başında darı quyusu.

353. Ağac başında qarğa,
Ağzı dolu qovurğa.

354. Ağac başında qırmızı yaylıq.

355. Ağca qız suda,
Fəni-fənnicə,
Burnu əyricə.

356. Ağca fərə suda oynar,
Zəm-zəmnən belə oynar.

357. Ala, ha ala,
Örkən dolaşdı,
Ağaca, kola.

358. Alaca, ha bulaca,
Sərdirmişəm yamaca,
Düz dırmaşır ağaca.

359. Altı ayda bir qarış,
Bir ayda altı qarış.

360. Altı yaşıl lalalar,
Üstü yaşıl lalalar,
İldən-ilə əkilər,
Cütcə-cütcə balalar.

361. At baba, ha hut baba,
Dolan evi, yat, baba.

362. Aşıq ağladı, getdi,
Ciyər dağladı getdi,
Əlli dəvə, yüz qatır,
Bir mıxa bağl adı getdi.

363. Aşıq aşı bişirir,
Yanlıb, naşı bişirir.
Bu gün bir hikmət gördüm,
Ayaq başı bişirir.

364. Bağrım başı zədəndi,
Zərdəndi, zəbərdəndi,



Yaşıl əkdim, al tökdü,
Görən əsli nədəndi.

365. Balacayam, sarıyam,
Deməyin ki, darıyam.
Sizə çörək oluram,
Zəmilərin barıyam.

366. Başını kəsdim, qanı yox,
Cücələrinin sanı yox*.

367. Bizdə bir gəlin gəzər,
Saçıyla yer təmizlər.

368. Bizim bir itimiz var,
Yetmiş yeddi dili var,
Ağzı yox, adam tutar.

369. Bir at aldım, yox yerişi,
Nə erkək idi, nə dişi,
Nə yayı görür, nə qışı.

370. Bir atım var, at demərəm,
Ölmünə minnət elərəm,
Ətin ataram yellərə,
Sümüyün xeyrat elərəm.

371. Bir bölük atlar,
Meşədə otlar.
Gün dəyən kimi,
Sağrısı çatlar.

372. Bir damım var,
Tək dirəkli.

373. Bir il əkərlər,
Yeddi il biçərlər.

* Bu tapmacanın bir-birindən fərqlənən bir neçə cavabı vardır.

374. Bir pəyə malım var, hamısı qaşqa.

375. Boyu bir qarış,
Saqqalı iki qarış.

376. Büm üzüm, bülbülüm üzüm,
İri salxım, xırda üzüm.

377. Qara qatır,
Küncdə yatır.

378. Qara toyuq qapıda yatar.

379. Qara toyuğun qanadı,
Kim vurdu, kim sanadı.
Yerə düşən bir danədir,
Çıxdı on beş, o nədir?

380. Qat-qat qalası,
Qan piyalası.
Uçdu anası,
Qaldı balası.

381. Qaşqa inəyi,
Bu gün itirdim.
Üç aya tapdım.

382. Qəssabbaşı, yüzbaşı,
Sənən bir at istərəm,
Nə erkək olsun, nə dişi,
Nə yayı görsün, nə qışı.

383. Qırmızı xəşən,
Atılıb-düşən,
Dəyirmanlardan
Təndirə düşən.

384. Dağdan gəlir, dağ ala,
Qolları budaq ala,
Səksən səkkiz caynaqlı,
Az qalır adam ala.

385. Dırazı qıç, uzun saqqal.

386. Evimizdə bir kişi var,
Bir şələ saqqalı var.

387. Ərəb atlandı,
Qayış qatlandı,
Qumlar ələndi,
Quyruq bulandı.

388. Zülfün ucu gümüşdür,
Sal boynuna ilişdir,
Yemişlərin içində
Yarpaqsız nə yemişdir.

389. İlim, ilim iynəsi,
İlin xatın düyməsi,
At ocağa, bas qucağa.
Getsin illər xəstəsi.

390. Yerə vurdum baltanı,
Ağzı gümüş xaltanı.
Yerdən bir oğlan çıxdı,
Dünyaların soltanı.

391. Yerə girər, əllənər,
Külək vurar, dillənər.
Köynəyi göy, özü sarı,
Nə buğdadı, nə də darı.

392. Gecə yumular,
Səhər açılar.

393. Gün çıxar, gülər,
Axşam mürgülər.

394. Gündüzlər gülər,
Gecə mürgülər,
Ağzına alan,
Yerə tüpürər.

395. Gündüz gəzər obanı,
Gecə sancar dabanı.

396. Meşədi, çəməndi oylağım mənim,
Özümnən yekədi papağım mənim.

397. Min bir oğul, bir ata –
Hamısı minib bir ata.

398. O nədi ki, düzülər,
Vədəsində üzülər,
Ayağından su içər,
Təpəsindən quzular.

399. O nədi ki, gecə-gündüz beli bağlı.
400. O nədi ki, kök atar, yarpaq çıxarmaz.

401. O nədi ki, nə ağdı, nə sarı,
Bir gözəl ağacda bitər saqqalı.

402. O tayda duran kişi,
Əlində Quran kişi,
Atama de, ət alsın,
Nə erkək, nə də dişi.

403. Otdur, atdır,
Beymuratdır,
Dişləyəndir,
Dişi yoxdur.

404. Otlarda necə otdu
Nə dişi var, nə ağzı,
Dişləyir heyvan kimi.

405. O nədi ki,
Samanı uçur,
Dənəsi qalır.

406. Pirəm,pirəm içində
Saqqalı pirəm içində.

407. Sarı buğda çəməndə kökələr.
408. Sarı saqqal,
Uzun hoqqar,
Onu tapmıyan,
Olsun naqqal.

409. Su üzündə ağca fərə.

410. Uzun qız uzanar,
Özünə köynək qazanar.

411. Uzun qızım uzanar,
Həftədə bir bəzənər.

412. Uzun-uzun söyüdlər,
Beli bağlı igidlər.

413. Üstədi, ha üstədi,
Əlim tükün üstədi.
Yemişlərdə hansıdı,
Çəyirdəyi üstədi?

414. Xəncərimin ucu şişdi,
Çək, qıçıma batmış idi,
O necə şeydir, gül açmaz,
Bar verəmməz, özü bardı.

415. Xırda-xırda öldülər,
Qəbirlərə girdilər.
Beş-altı ay su verdim,
Dirçəlibən durdular.

416. Halalar, ay halalar,
Dağda dovşan balalar.
Ayağından su içər,
Dimdiyindən balalar*.

417. Həlmə, həlmə həlməsi,
Həlmə xatın düyməsi,
Hər kəs onu tapmasa,
Bir manatdır cərməsi.

418. Çəp deyil, çəpər deyil,
Çəpərə gərək deyil,
Uzunca buynuzu var,
Sarıca saqqalı var.

419. Çəpər üstə çil xoruz.

420. Çil toyuq, çilənə toyuq,
Başını kəssən qanı yox.
Cücələrinin sanı yox.

421. Çin-çinarın başında,
Çin qara quş oturur,
Qanadların gərəndə,
Bir ovuc qum tökülür.

* Bu tapmacanın bir neçə müxtəlif cavabı vardır.



# HEYVANLAR

422. Avın alsan, mırıldar,
Sığallasan, xoruldar.

423. Ağ atım, əyri yatım,
Qayadan qorxmaz atım,
Yük yükləərəm, aparmaz,
Alınmaz, rula satım.

424. Ağ saqqalam, bəyirrəm,
Qıllarımı əyirrəm,
Mən keçdiyim yollardan,
Qoyun-quzu gətirrəm.

425. Ağa nəzər, ay nəzər,
Adı dağları bəzər,
Başında ağac gəzər.

426. Ağzı qara boz bəylər,
Vursan, ağzın əyilər.

427. Ağzın açar,
Zəhər saçar,
Hamı görüb,
Geri qaçar.

428. Ağzı var, dili olmaz,
Yüz ağac vur, çığırmaz.

429. Adam döyül, əl-ayağı, dişi var,
Əcəb şeydi, qəravəlli işi var.

430. Alaca qarğa,
Lapları yorğa.

431. Alaca mənzər,
Qapılar gəzər.

432. Altı bulaq içərlər,
Üstü zəmi biçərlər.

433. Altı daşdı, daş deyil,
Üstü daşdı, daş deyil.
Heyvan kimi otlayır,
Heyvana yoldaş deyil.

434. Altı, taxta, üstü taxta,
Oturub bir ağ otaqda,
Qoyun deyil, ot otlayır,
Toyuq deyil, yumurtlayır.

435. Araba gedər, izi yox,
Ulğun yanar, közü yox.
Zirzəmidə gizlənib,
Qabığı var, gözü yox.

436. Bağda sürünər, gəzər,
Az-az görünər, gəzər,
Oxşuyar bir yumağa
Qorxuram əl vurmağa.

437. Balaca mənzər,
Dağları bəzər.
Qayıdıb gələr,
Obada gəzər.

438. Bat-bat ayaqlı,
Eymə dodaqlı,
Belində var dağ,
Ayağında yağ.

439. Bənzəri var çatıya,
Hücum çəkər fatıya.



440. Bir atım var atılar,
Qulaqları çatılar.
Quyruğunu bərk qısar,
Sinib dərədən busar.

441. Bir atım var minə bilmirəm,
Ağzın açsa, dinə bilmirəm.

442. Bir axmaq öküzüm var,
İyləndirib ət yeyər.

443. Bir qamçım var,
Əlimə ala bilmirəm.

444. Bir quşum var,
Dərisi puldan,
Gözləri nurdan.

445. Bir yağlı böyrək,
Çuvaldan çıxdı,
Xorhaxor kişi,
Ağzına tıxdı.

446. Bir öküzüm var, mıx yüklü.

447. Boyu bənzər əriyə,
Qaçar girər dəliyə.

448. Qaya altdan qaz gedər,
Burnun qulazlar gedər,
Bir il buğaya gələr,
Yeddi il boğaz gedər.

449. Qanadı var uça bilməz,
Quru yerdə qaça bilməz.

450. Qatar-qatar söyüdlər,
Başı bağlı igidlər.

451. Qızılgül beçə verdi,
Sana gör neçə verdi?
Yarpaqsız ağac gördüm,
Torpaqsız beçə verdi.

452. Qoz ağacı başında,
Lənkəranın tuşunda,
Əlli-altmış yaşında,
Deyər oğlanam, oğlan.

453. Dağdan, qayadan aşar,
Pişik kimi dırmaşar.
İlan kimi sürünər,
Divardan bərk yapışar.

454. Dağdan gəlir dağ alaca,
Dalın söykəyib ağaca,
Ətdar Məmməd qavaxlıdı,
Məmmədşərif dodaqlıdı.

455. Dağlarda lala gəzər,
Əldə piyala gəzər,
Nə yumurtlar, nə doğar,
Yanınca bala gəzər.

456. Dağların qarı mənəm,
Gün vursa ərimənəm.
Oğlumun qaynatası,
Qızımın əri mənəm.

457. Dik çıxanda ildırım,
Dik enəndə digirqoz.

458. Dilim-dilim nar,
Diziməcən qar,
Yeddi dananın gönü,
Bircə ayağıma dar.

459. Doqquzu don darayı,
Səkkizi san darayı.
İkisi xas qırmızı,
Dördü mazan darayı.

460. Evimizdə bir kişi var,
Xorhaxor yatışı var.

461. Əkdim palıd,
Çıxdı şabalıd,
Ortasından bir zoğ çıxdı,
Nə palıddı, nə şabalıd.

462. Ərşin ayaq,
Bənövşə qulaq.

463. İynəsi çox,
Tikəni yox.
Əti dərman,
Özü heyvan.

464. İlan yolu, keçi qılı,
Qatarlaşıb gedərlər hey.

465. Yatanda yumru yatar,
Əlinə dərman qatar,
Kim istəsə tutmağa,
Tikəni ələ batar.

466. Yeddi öküzüm var,
Gönündən bir cüt çarıq çıxmaz.

467. Yer altında yağlı böyrək,
De yetim adın deyim.

468. Yer altdan oxlov gedər.

469. Ağ atım, lobbaz atım,
Qayadan qopmaz atım.

470. Yer altında yağlı qamçı,
Suyu içər damcı-damcı.

471. Yer altında yağlı küt.

472. Yol üstə yoğun oxlov.

473. Yük üstə qıllı yumaq.

474. Kolları gəzər pusa-pusa,
Qıçları uzun, qolu qısa.

475. Gedər, gedər – izi yox,
Şıllaq atar, dizi yox.

476. Gözlərində çırağı,
Dişlərində qırmağı,
Yağı adam küsdürər,
Zəhmi heyvan əsdirər.

477. Günü keçər tayada,
Xoş gün verər sayada.

478. Malın gəlir enişdən,
Qulaqları gümüşdən,
Züy vurub üzər hərdən,
Çaydan, göldən, dənizdən.

479. Maral-maral inəyim,
Qarnı xaral inəyim,
Su içməz, ot otlamaz,
Çəpər yaran inəyim.

480. Maral-maral öküzüm,
Qarnı xaral öküzüm,
Düz yerdə gəzə bilmir,
Çəpər yaran öküzüm.



481. Meşədə bir qız gördüm, gözləri şəhla,
Düşdüm onun izinə, qaldım tək-tənha.

482. Məmmədiyar, əyri diyar,
Dörd lap-lap, iki çip-çip.

483. Midili-midi üzlücə,
Midili siçan üzlücə.
Midili, hara gedirsən,
Yüz min cida üzlücə.

484. Nağara, ha nağara,
Dırmaşar ha divara.

485. Nər kimidi, nər deyil,
Rəngi qara qır deyil.

486. O yanı taxta,
Bu yanı taxta,
Şaqqulu bəy otaqda.

487. O nədi ki, qulağından kəsilər.

488. O nədi ki, dizlərindən asılar.

489. O nədi ki, evə girməz,
Sədaqəti eldə gəzər.

490. O nədi ki, daşdan köynək geyinər?

491. O nədi ki, doğur əlsiz-ayaqsız.

492. O nədi ki, əyri ayaq, çəpbəl qulaq,
Dodağı mırıq, ağzı cırıq.

493. O nədi ki, zirzəmidə qışlağı,
Dərisi var, tükü yox.

494. O nədi ki, iynəsi çoxdu,
Sap yeri yoxdu.

495. O nədi ki, gecə gəzər aylı xan,
Gündüzü də yaylı xan.
Göy otların başında,
Düymə düzər aylı xan.

496. O tayda durar, gedər,
Boynunu burar gedər.
Bir sürüyə girəndə
Qırxını qırar gedər.

497. O hansı heyvandı, anadan saqqallı doğular?

498. Ot yeyər inək deyil,
Yumurtlar, toyuq deyil.

499. Saqqalı uzun bəyzadə,
Gedər qabaqda haramzadə.

500. Saqqalı uzun sallanar,
Dağa-daşa dırmanar.

501. Sarı atım, sapba atım,
Sarı qayadan keçməz atım.

502. Səssiz göldə it hürər.

503. Sıpa gödəni,
Eşər təpəni.

504. Sudan çıxıb daş deyil,
Qanadlıdı, quş deyil.

505. Suya girər millənər,
Sudan çıxar, dillənər.



506. Sularda batar,
Quruda yatar,
Hoppanar-düşər,
Ordları şişər.

507. Talalar, ha talalar,
Talaya od salalar,
Nə erkəyi, nə dişisi balalar.

508. Taxçadan düşdü, tap elədi,
Gülsənəm onu hap elədi.

509. Tikan dibində qıllı yumaq.

510. Torpaqdan lülə,
Ətdəndi güllə.

511. Tut-tut tuburğu,
Tutda bitər tuburğu.
Tutdan bir şüy çıxıbdı,
Nə tutdu, nə tuburğu.

512. Uzun-uzun ulama,
Ucuna qıl dolama,
Bizim ala kəkliyin,
Yumurtasın kim ala?

513. Üstü daş, altı daş,
Ortasında cındır baş.

514. Üstü palım-palazım,
Altı suyum, bulağım,
İçi yemim, yeməyim.

515. Üstü pulcuq,
İçi qılcıq.

516. Üstünə baxırsan dam.
Altına baxırsan eyvan,

İçinə baxırsan quş,
Çölünə baxırsan heyvan.

517. Heyvandı heç səsi yox,
Üstündə pulları çox.

518. Hət ayaqlı, hüt ayaqlı,
Gümüş qatlı, lüt ayaqlı.

519. Hilim-hilim kəhər at,
Hilim mərcan kəhər at,
Ayağında qıl sicimi,
Səsi gözəl kəhər at.

520. Himdi, himdi, o himdi.
Gözüm gözünə cimdi,
Yerin altında deyin
Gecə xidmətçi kimdi?

521. Hindi hindicə,
Burnu əyricə,
Hara gedirsən,
Bu yarı gecə.

522. Çil toyuq, çiləmə toyuq
Başını kəsdim, qanı yox.

523. Can alıcı,
Cəfa qılıcı,
Yumuru təpə,
Gümüş küpə.

524. Şappaz, ha şappaz,
Qayadan qopmaz.
Nə yük götürməz,
Nə pula getməz.



# QUŞLAR

525. – A quş, hardan gəlirsən?
– Qanlı qaya dibindən.
– Qanın niyə qurumuş?
– Allah belə buyurmuş.

526. Alaca-bulaca,
Uçdu qondu ağaca.

527. Altı qoyun, üstü keçi,
Başı şabalıd, quyruğu qayçı.

528. Axşam anadan olar,
Səhər durar, yer ovar.

529. Axşam yığılar,
Səhər dağılar.

530. Bağda uçar səhər-səhər,
Verər bizə yazdan xəbər.

531. Başı daraq, quyruğu oraq,
Tezdən durar, surun vurar.

532. Bir quşum var,
Ziy-ziyidi.
Gecə uçar,
Gündüz yatar.

533. Buxarı, ay buxarı,
Tüstü çıxar yuxarı,
Kənddə bir oğlan gördüm,
Əyni yaşıl çuxalı.

534. Qara qatır,
Bədlik satır,
Gecə gəzir,
Gündüz yatır.

535. Qatarlanıb gedirlər,
Bizə salam edirlər.

536. Qat-qat qalası var bunun,
Qan piyaləsi var bunun.
Nə çalxalar, nə çıxardar,
Pərvaz balası var bunun.

537. Qatar-qatar uçarlar,
Şahin görüb qaçarlar,
Gündüzləri otlayıb,
Axşamları uçarlar.

538. Dağdan gəlir Banı xanım,
Əlləri xınalı xanım,
Farsi deyər, dil anlamaz,
Ala köynək, çit arxalıq.

539. Dağdan gəlir Dağara xanım,
Əlləri xınalı xanım,
Farsı çalır, türk oynayır,
Ay keçi köynəkli xanım.

540. Dağdan gəlir kəhər at,
Zalım, gözəl kəhər at,
Ayağında qıl sicim,
Budu gəldi kəhər at.

541. Dağların barı mənəm,
Əriməz qarı mənəm.
Atamın oğluyam,
Anamın əri mənəm.



542. Dili də var, ağzı da,
Heç danışmır adamla.

543. Elə gedər hizi kimi,
Çarıqçının bizi kimi,
Ağı var dələmə kimi,
Qarası var kömür kimi.

544. Eşdim-eşdim qum çıxdı,
Qumdan minarə çıxdı,
Bildir doğulan oğlan,
Bu il çinara çıxdı*.

545. Əzan verir, namaz bilmir,
Arvad alır, kəbin bilmir.

546. Əyri boyun, sarı dimdik,
Gödək ayaq, yaşıl papaq,
Suda gəzər, yastıyapalaq.

547. Zülmət enəndə gülər,
İşıq görsə mürgülər.

548. Yumru, yumru sarıdı,
Yumru gözü darıdı,
Gəzir bizim bağçada,
Üç həftənin barıdı.

549. Kardı, kordu gündüzlər
Vurdu, haydı gecələr,
Hansı quşdu döşü var,
Ağzında dişi var.

550. Gedir, gedir izi var,
Geri dönür, tozu var.

* Bu tapmacanın bir neçə cavabı vardır.

Al osmanda çəngi var,
Quyruğunda rəngi var.

551. Gəlirdim kənddən,
Səs gəldi bənddən,
Ağzı sümükdən
Saqqalı ətdən.

552. Göylə uçar, görünməz,
Yerə düşər, sürünməz,
Doğar-törər, əri yox,
Qanadının pəri yox.

553. Gündüz yatar yuvada,
Gecə gəzər obada.

554. Mən atamın vəznəsiyəm,
Cibinin xəznəsiyəm.
Atam mənim oğlumdu,
Mən atamın yeznəsiyəm*.

555. Nağaraçı nağara çalır,
Nə nağarası var, nə çubuğu.

556. O necə quşdu ki,
İnsan kimi süd əmər.

557. Onun adı pəridi,
Könlümə müştəridi.
Axşam anadan oldu,
Səhər durdu yeridi.

558. Siçan görsə dişin açar,
Quş görəndə qanad açar.

* Tapmacanın müxtəlif cavabları vardır.



559. Sübhdən nişanı var,
Üzündə qeyrəti var.
Al osmanda cəngi var,
Quyruğunda rəngi var.

560. Tap tapmaca,
Gül yapmaca,
Məməli xatın,
Dişləri yox.

561. Tap tapmaca,
Qulaqları yappaca,
Yatanları oyadır,
Süleyman papaqlıca.

562. Tullananda cüt atar,
Alacası qıçında.

563. Uzun boy, qısa ayaq,
Gəzər yastıyapalaq.

564. Uyumamış dələmə,
Düşüb səsi aləmə.
Üç həftənin içində,
Diri düşmüş aləmə.

565. Halalar, ha halalar,
Dağda ceyran balalar.
Quşlardan hansı quşdu,
Yumurtasız balalar.

566. Çıxdım qız qalasına,
Ox atdım yuvasına,
Quşlardan hansı quşdur,
Süd verir balasına.

# HƏŞƏRATLAR

567. Ağ otun alasına,
Gün düşdü talasına,
Elə də quş olarmı,
Yem verməz balasına.

568. Ağzı qara, gözü yox,
Suda izər, izi yox.

569. Ayağı var, qaça bilmir.
Qanadı var, uça bilmir.

570. Ayağı var səkkiz ədəd,
Əl vurantək əziləcək.
Havadadır, qanadı yox,
İpək toxur, cəhrəsi yox.

571. Alalar, ha alalar,
Erkək, dişi balalar.

572. Araba gedər, izi yox,
Küləş yanar, közü yox,
Altı ayaq, bir daban,
Ağzı qara, gözü yox*.

573. Araba gedər, tozu yox,
Suda üzər, izi yox.
Çanaqçıda qışlamış,
Ağzı qara, gözü yox.

* Bu tapmaca da çoxcavablıdır.



574. Araz qırağı düzdü,
Sanasan əlli, yüzdü,
Oğul gedər davaya,
Anası hələ qızdı.

575. Aşağı gedərəm ley-leyi,
Yuxarı gedərəm ley-leyi,
Nə sümüyü var, nə iliyi.

576. Aşıq eldən yuxarı,
Şana teldən yuxarı.
Aşıq bir şey görübdü,
Dizi beldən yuxarı.

577. Bay-bay ayaqlı,
Mənzər dodaqlı,
Çəkərəm gəlməz,
Banı ayaqlı.

578. Bay-bay uçar, bay qonar.
Bay iliksiz, bay sümüksüz.

579. Başı yerdə, dalı göydə.

580. Bəlli-billi bilən day,
Beli incə kürən day.
Hövrən görər kişnəməz,
Göy ot görər dişləməz.

581. Biz biz idik – yüz qız idik,
Bizi bükdülər, ipə düzdülər,
Qırğın gəldi – qırıldıq,
Şükür Allaha dirildik.

582. Bir balaca xallı şey,
Üstü qızıl allı şey,
Qoydu bizim dolçaya,
Şirin, sarı, dadlı şey.

583. Bir beləcə mil daşı,
Yandırdı, yanın qaşı.

584. Bir quşum var alaca,
Uçar, qonar ağaca,
Ağacda bir ev tikər,
Nə qapı qoyar, nə baca.

585. Bir quşum var, dıqqana,
Gecə çıxar dik qana,
Ürəyi şir ürəkli
Özün yaxar oddana.

586. Bir quşum var, yumuşdu,
Üstü-başı gümüşdü.
Nə dən yeyər, nə içər,
Amma özü bir quşdu.

587. Bir damım var,
Bir çəngə ot tutmaz,
Yüz baş mal tutar.

588. Bir özü, yüz balası,
Özü də belində gəzər.

589. Bir sürü quzu,
Otlayır düzü,
Nə bir izi var,
Nə də ki, tozu.

590. Bir tapmaca deyim,
Tapmasan genə deyim.

591. Bir çanaq üzüm,
Yollara düzüm.
Boğazı, beli
Büzüm, ha büzüm.



592. Bu quş necə quşdu,
Qanadı fırlanquşdu.
Ot otlar qoyun kimi,
Su içməz, necə quşdu?

593. Bu günü adınadı,
İşlər ovandınadı.
Sümüksüz, sümük yeyir
Tap görüm, adı nədi?

594. Bu meşə gül meşəli,
Altı tər bənövşəli.
Bir kişinin min oğlu,
Hamısı bir peşəli.

595. Buxarı, ay buxarı,
Tüstü çıxar yuxarı.
Quşlarda hansı quşdu,
Ayaq beldən yuxarı.

596. Vay-vay uçar,
Vay-vay qonar,
Vay iliksiz,
Vay sümüksüz.

597. Vıy vıyıldar,
Vıy sızıldar,
Vıy iliksiz,
Vıy sümüksüz.

598. Qaq-qaq qalası var bunun,
Ağı, alası var bunun,
Yumurtlamaz, qaqqıldamaz.
Uçar balası var bunun.

599. Qanadı var, quş deyil,
Buynuzu var, qoç deyil.

600. Qanadı var, quş deyil,
Dişləyir, ilan deyil.

601. Qanadı var uçmağa,
İynəsi var sancmağa.
Sevir işi, zəhməti,
Odur ki, var hörməti.

602. Qaradır, qarğa deyil,
Qanadlıdı, quş deyil.
Qoxu bilir, it deyil,
Şirni yeyir, bit deyil.

603. Qiblədən ulduz doğdu,
Ulduz ulduzu qovdu,
Anası beşikdəykən
Balası oğlan doğdu.

604. Qoyun deyil, otlayır,
Toyuq deyil, yumurtlayır.

605. Quşum nə yaxşı quşdu,
Üzü qibləyə tuşdu,
Ot otlar gomuş kimi,
Su içməz, necə quşdu?!

606. Dağda-qayada gəzər,
Quyruğunda var zəhər.

607. Dağdan gəlir hel, a hel
Ayağında tısma tel,
İgidsənsə onu bil.

608. Dağlarda lalə gəzər,
Əldə piyalə gəzər,
Nə doğar, nə balalar
Dalınca bala gəzər.



609. Dam-damın səsi gəlir,
Damnan dəm səsi gəlir,
On iki pəncərədən,
Bir quran səsi gəlir.

610. Dəniz qırağı düzdü,
Sayı əllidi, yüzdü,
Şah küsdü, baba köçdü,
Əlin bağçadan üzdü.

611. Dişləri var, it deyil,
Ayağı var, bit deyil,
İlan kimi bərk çalar,
Yerində bir dərd qalar.

612. Əzizim, bir anası,
Hərənin öz anası.
Quşlardan hansı quşdur –
Min bala, bir anası?

613. Əzizinəm, gün doğar,
Aşiq aşiqi qovar.
Anası beşikdəykən,
Qızı bir oğlan doğar.

614. Əcaib bir quşum var,
Yerdə gəzər, izi yox.
Əti haram, südü halal,
Boğazladım, qanı yox.

615. Zirzəmilərdə yatan,
Qara palçığa batan,
Həkim dərmantək satan,
Qara zəncirim nədi?

616. İlim iynəsi var, bunun,
Zərli libası var, bunun.
İynə ilə dəlik-deşik,
Gör nə binası var, bunun.

617. Yazda yığır yeməyini,
Çox sevir öz eməyini,
Yeyib yatar baharadək,
Nədir adı tapın görək.

618. Yer altından yasa gedər.

619. Yol üstə qazan qaynar.

620. Kürün qırağı düzdü,
Sonası göldə yüzdü,
Oğlu şahlıq eləyir,
Anası hələ qızdı.

621. O nədi ki, əlsiz-ayaqsız,
Dırmanır nərdivansız.

622. O nədi ki, əti qoyar, sümüyü yeyər.

623. O nədir ki, nə qanı var, nə sümüyü.

624. O nədir ki, özü ətdir, yediyi sümük.

625. O nədi ki, cəsədi var, qanı yox.

626. O taydan gəlir fil,
Yükü zəncəfil,
Ölüdən törəmiş,
Gəl sən onu bil.

627. O hansı quşdu yazı, yayı işləyər,
İnsan kimi özünə azuqə yığar?

628. O hansı heyvandı yuvasını çiynində gəzdirir?

629. Püstədi, ha püstədi,
Taxtı rəvan üstədi,
Camış kimi ot otlar,
Su içməyə xəstədi.



630. Rəngbərəngdir gül kimi,
Qanadı var tül kimi,
Uçur bağda, çəməndə,
Çox yüngüldür tük kimi.

631. Salamməleyk ustalar,
Dirilsin qoy xəstələr,
Quşlardan hansı quşdur,
Bağırsağın dəstələr.

632. Sarıdı, zəfəran deyil,
Yazılıdı, quran deyil,
Buynuzludu, qoç deyil.

633. Sarıdı, zəfəran deyil,
Qanadlıdı, quş deyil.
Yediyi gül-çiçəkdi,
Nəcisi çox göyçəkdi.

634. Tap, – dedim, tapış, – dedim.
Gül buxaqdan yapış, – dedim.
Adam feli, keçi qılı,
Qatarlanıb gedir, – dedim.

635. Torpaq deyil, daş deyil,
Quru deyil, yaş deyil,
Buynuzu var, qoç deyil,
Qanadlıdır, quş deyil.

636. Uzaqdan baxdım heç nə yox,
Yaxına getdim, sayı çox.
Yük aparır hara day,
İncə belli qara day.

637. Hazar hazara gedər,
Bu yol bazara gedər,
Atası beşikdədir,
Oğlu bazara gedər.

638. Həşədən, ha həşədən,
Gün çıxıbdı meşədən.
Qırx padşahın oğlu,
Hamısı bir peşədən.

639. Çil toyuq, çiləmə toyuq,
Başın kəsərəm qanı yox*.

640. Çilə, bülbülüm, çilə,
Şeh düşüb qızılgülə,
Quşlardan hansı quşdu,
Yumurtası qalar ilə.

641. Camışlar, ha camışlar,
Halqa buynuz camışlar,
Tanrısı bostan əkmiş,
Yığılıb onu yemişlər.

642. Canı var, qanı yox,
Əti var, gönü yox.

643. Canı vardı, qanı yox,
Yer altında sanı yox.

644. Cığ-cığa quşlar.
Cami durmuşlar,
Özü qazanar,
Sizə bağışlar.

* Müxtəlif cavabları vardır.



## HEYVANDARLIQ MƏHSULLARI VƏ HEYVANLARLA ƏLAQƏDAR ŞEYLƏR

645. – A qoç, hardan gəlirsən?
– Qanlı qaya dibindən.
– Qanın niyə quruyub?
– Allah belə buyurub.

646. Ağ at evdədi,
Ayğır meşədə.

647. Ağ atı altda gördüm,
Qızı soraqda gördüm.
Altı dənə ulduzu,
Bir ayın altda gördüm.

648. Ağ qıza əl uzatdım.

649. – Ağ quşum, hardan gəlirsən?
– Qan bulağından,
– Qana niyə batmayıbsan?
– Öz əməlimdən.

650. Ağ dəryanın suyun qızdır,
Üzü tamam ağca bezdir.

651. Ağ günbəz, qapısı yox.

652. Ağ nəzər,
Qapıları gəzər.

653. Ağzı bağlı bir kisəm var,
İçi qıllı, ağca palçıq.

654. Ağca quzu, sarı quzu pətəkdə,
Ləzzətilə aləm onu yeməkdə.

655. Ağca motal, ağzı yox.

656. Ay nənə, bizə yağ gətir,
İnəkləri sağ, gətir.
Çalxanmamış nehrədən
Ərinməmiş yağ gətir.

657. Alını atda gördüm,
İzin soratda gördüm,
Ayparanı bir atın,
Ayağı altda gördüm.

658. Ana bir qız doğubdu,
Nə əli var, nə ayağı,
Qızı oğlan doğubdu,
Həm əli var, ayağı.

659. Atdan hündür,
Qoçdan alçaq,
İçi yunlu,
Üstü saçaq.

660. Aşığın qan ayağı,
Qan əli, qan ayağı,
Aşıq bir şey görübdür,
Üç başı, on ayağı.

661. Balaca quyu,
İçində suyu,
Ağcadan ağdı,
Sarıdan sarı.

662. Bəngi-bəngi başını tut,
Dəngü-dəngü döşünü tut,
Qılman qoca əl-ayaq ver,
Hüseyn qoca quyruğun tut.



663. Bərəkallah ustakar,
Samannan böyrək kəsər.

664. Bizdə bir usub yatır,
Qolların qısıb yatır,
Bircə təpik vurmamış,
O yanda küsüb yatır.

665. Bizdə iki kişi var,
Tüklü təpədə oturuşu var.

666. Bizdə yoxdu, sizdə yoxdu,
Yer altında qızıl çoxdu,
Budaq verir, yarpaq yoxdu.

667. Bir bardaqda iki rəng su.

668. Bir qara bağ dibində,
Əzraillər çığırışar.

669. Bir quyuya iki deşikdən su tökülür.

670. Bir quşum var ahanı,
Gəzər cümlə-cahanı,
Götürrəm öldürməyə,
Nə əti var, nə canı.

671. Bir damım var, iki dirəkli.

672. Bir donum var, tikişi yox,
Sökülməklə heç işi yox.

673. Bir zəmim var, ildə iki dəfə biçilər.

674. Bu günləri şənbədi,
Könlümə düşən nədi,
Nə əti var, nə qanı
Ocaqsız bişən nədi.

675. Bu günləri şənbədi,
Könlümə düşən nədi.
Odsuz-ocaqsız ağ quş,
Qazanda bişən nədi?

676. Bura gələn hacıdı,
Aş bişirən bacıdı,
Zoğ atlar yarpaqlamaz,
Tap gör, nə ağacıdı.

677. Vızhavızla uçan quşum,
Çiçək üstə qaçan quşum,
Öz-özünə xəlbir toxur,
İçərisi şərbət qoxur.

678. Qar kimi ağdı,
Su kimi axdı.

679. Qara qoyun ağ quzu doğar.

680. Qaranlıq yerdə kösöy bulanar.

681. Qızılgül pardaxlandı,
Qol atıb çardaxlandı,
Torpaqsız yerdə bitdi,
Yarpaqsız budaqlandı.

682. Dəri kimidi, dəri,
Üstü ət, içi dəri.

683. Dostum mənə nar göndərdi,
Yox demədi, var göndərdi,
Çalınmamış süd-qatıqdan,
Çalxanmamış yağ göndərdi.

684. Dörd dərviş bir quyuya daş atar.

685. Dörd gözlü bir bulaqdı,
Suyu tamam düm ağdı.



686. Dörd şaphaşap,
Bir daraq sap.

687. Duzsuz fətir, unsuz fətir.
Nə isti deyir, nə soyuq.
Elə fətirdi ki, fətir.

688. El köçdü, papağı yurdda qaldı.

689. Eləmi, ağ nədən oldu,
Köynəyi ağ nədən oldu,
Yaz donar, qış açılar,
Əllərin ağ, nədən oldu?

690. Əzizim, veçə verər,
Sana, gör neçə verər,
Torpaqsız, susuz yerdə
Yarpaqsız vecə verər.

691. Əl-eləşə qarğalar,
Dal ayaqda qarıldar.

692. Əlim ətdə,
Gözüm göldə.
Qulağım səsdə,
Başım quyruqda.

693. İki təndirdə bir kösöv.

694. Yayda donar, qışda əriyər.

695. Yumru mərmər daşı,
İçində bəylər aşı.
Bişirərsən aş olar,
Bişirməsən quş olar.

696. Körpü altda dörd barmaq,
Hasil olur yağ-qaymaq.

697. Mən aşiq vecə verdi,
Baş üstə becə verdi,
Torpaqsız yerdə bitmiş,
Yarpaqsız qıça verdi.

698. Mən aşiqəm, düz bağlar,
Əyri çəkər, düz bağlar,
Aşıq bir hikmət görüb,
Od içində buz bağlar.

699. Mən tərs oğlu tərsəm,
Özümə oyandam,
Özgələrə tərsəm.

700. O yanı qaya,
Bu yanı qaya,
İçində sarı maya.

701. O yanı taxta,
Bu yanı taxta,
İçində ağca maya.

702. O nədir ki,
Atdan hündür,
İtdən alçaq.

703. Özü ağ, balası sarı.

704. Səkkizi sərcan,
İkisi mərcan,
Dördü də ki, xan.

705. Suya girər lillənər,
Sudan çıxar dillənər.

706. Suya girdi dağıldı,
Sudan çıxdı yığıldı.



707. Süd nədi, süzgəc nədi?
Süzdüyüm süzgəcdən nədi?
Dünən sağdım, bişirdim,
Süd olmadı, bəs nədi?

708. Tap düşdü qabaqlandı,
Qapısı tamam bağlandı.

709. Xəlbir içində
Təpbəcə təzə
Yaşdır – qurumaz
Duzsuz çürüməz.

710. Hacılar, hay hacıdı,
Başmağı narıncıdı,
Şü verər yarpaq açmaz,
Görən nə ağacıdı.

711. Hər tərəfi ağ qaya,
İçində sarı maya.

712. Çil toyuq, çiləmə toyuq,
Başını kəsdim qanı yox.
Yumurtasının sanı yox.

# İNSAN VƏ ONUN BƏDƏN ÜZVLƏRİ

713. Ağırlığın yer götürər,
Ruzusun Allah yetirər.

714. Ala qapı, zəncir sapı,
Beş budağı, bir yarpağı.

715. Alaca mənzər,
Dünyanı gəzər.

716. Altı inci, mirvari,
Üstü inci, mirvari,
Arasında bir yarpaq.

717. Altı mərmər,
Üstü mərmər,
İçində bir
Bülbül oynar.

718. Altı çəpər, üstü çəpər,
İçində qara quş səkər.

719. Ataya dəyməz,
Babaya dəyər,
Xalaya dəyməz,
Əmiyə dəyər.
Dəyərə dəyməz,
Dəyməzə dəyər.
Allaha dəyməz,
Billaha dəyər.



720. Aşağı əyirəm tökülməz,
Qırağı çəpərdi sökülməz,
Yerində sarımsaq əkilməz.

721. Aşıq su deyib ağlar,
Sünbül su deyib ağlar
Dəryada bir gül bitib,
O da su deyib ağlar.

722. Babam məndən nar istər,
Yoxu bilməz, var istər,
Sancılmamış qələmnən
Dərilməmiş bar istər.

723. Balaca baqqal,
Nə versən udar.

724. Baş aşağı tökülməz,
Dibi qaya sökülməz.
Süfrələrə salınmaz,
Onsuz heç kim dirilməz.

725. Bel sapı, balta sapı,
Bir budaq, beş yarpağı.

726. Beş-beş anası,
Beş-beş balası,
Onu bilməyən,
Çəpəl balası.

727. Beş dərviş bir quyuya daş atar.

728. Bizidik, bizləridik,
Otuz iki qız idik.
Gah əzildik, üzüldük,
Bir taxçaya düzüldük.

729. Bilmədik hardan gəldi,
Ətdən sümükdən gəldi,
Oraqla ha doğradıq,
Təzədən bir də gəldi.

730. Bir ağacım var – bir gövdəsi, beş budağı,
Hər budaqda bir sədəf.

731. Bir ağacım var, iki budağı.

732. Bir anası var, beş balası,
Onu tanımayan at balası.

733. Bir qayada yeddi bulağım var.
İkisi şordu, ikisi şortəhər,
Biri şirindi, ikisi zəhər.

734. Bir qıllıca yumağım var,
Yeddi dəlik-deşiyi var.

735. Bir qutum var – özü açılır, özü yumulur.

736. Bir damım var, içi dolu ağ yarmaça.

737. Bir damım var, ətdəndi,
Qırağı sədəfdəndi.
Altı on altındadı,
Üstü on altındadı.

738. Bir dərədə bir quş uçur, adı yox,
Şirinlikdən yemək olmaz, dadı yox.
Bir at ona peşkəş olub canı yox,
Bir qoyundu loğman ona, canı yox.

739. Bir dərədə bir parça ət.

740. Bir dirək üstə iki dam.



741. Bir donum var, tikişi yox.

742. Bir evdə iki qardaşım var,
Ha gedirlər bir-birini ötə bilmirlər.

743. Bir zağada bir tikə ət,
Yaşdı yeri qurumaz,
Nəmişlikdə çürüməz.

744. Bir zağam var, içi dəyirman,
Hər nə töksən, üyüdər ənam.

745. Bir yaylığım var, iki dağ arasında
Sərirəm qurumur.

746. Bir yemim var, nə süfrəyə qoyulmaz,
Nə süfrədən götürülməz.

747. Bir kaham var, qıraqları sədəfli.

748. Bir kişi dağdan ilxı tökər.

749. Bir körpü altda iki yol.

750. Bir küpüm var saçaqlı,
Yeddicə deşiyi var,
Üçü cütdü, biri tək.

751. Bir güzgüm var, qapaqlı,
Dörd qırağı saçaqlı.

752. Bir tabaq mərzə,
Təzəbətəzə,
Yaşdır qurumaz,
Nəmdir çürüməz.

753. Bir taxçam var, düyü ilə dolu.

754. Bir təndirim var, içi bir çörək tutur.

755. Bir təpəm var qara otdan,
Kökü sümük, üstü ətdən.

756. Bir tovla malım var, hamısı qaşqa.

757. Bir cüt quyum var, qıraqları qırx çəpər.

758. Bir cüt öküzüm var,
Dama girər aləmi gəzər;
Damdan çıxar, bir yerdə durar.

759. Biri danışır,
İkisi baxır,
İkisi eşidir.

760. Boyu əsgərdən kiçik,
Hökmü padşahdan böyük.

761. Boyu uzun sayaqdı,
Sahibinə dayaqdı.

762. Bu yanı taxta,
O yanı taxta,
Şahqulubəy otaqda.

763. Bu yanı çəpər,
O yanı çəpər,
İçində atlı çapar.

764. Bu günü adınadı,
İşlər ovandınadı,
Qaradan ağ boyandı,
Tap görüm, adı nədi?

765. Qalın qamış içində,
Ala bir quş oturmuş.



766. Qalxdım təpəyə,
Düşdüm küpəyə.

767. Qapıbir qonşudurlar,
Bir-birini görmürlər.

768. Qara dağ, əyri dağ,
İşıldar, fışıldar.

769. Qaranlıq evdə, bir qucaq yarma.

770. Qırmızı divar üstə ağ fərələr düzülüb.

771. Qırmızı Məmməd, dur get,
Yabılarını sür, get.
Otuz iki qapının,
Kilidini vur, get.

772. Qutu-qutu içində,
Nərgiz qutu içində,
Babamın bir quşu var,
O da qutu içində.

773. Dağdan yerə sallanır,
Hər nə versən allanır.

774. Dam üstə çatı qırığı.

775. Dəryada bir gül bitibdi, adı yox.
Şirinlikdən yemək olmaz, dadı çox.

776. Divar dibində ağca quşlar oturar.

777. Evləri yanaşı iki qardaşım var,
Hər şeyi görürlər,
Bir-birini görə bilmirlər.

778. Əzəl vardı yeyərdik,
Yeməsəydik, ölərdik,
İndi də var yemirik –
Yeməsək də ölmürük.

779. Əzəli dörd ayaqlı,
Sonra iki ayaqlı,
Aylar keçir, il keçir,
Dolanır üç ayaqlı.

780. Əzizinəm, biri iki,
Sağı, solu biri iki,
Bir əlamət görmüşəm ki,
Dördü üçdü, biri iki.

781. Əzizim, doqquz günə,
Doqquz ay, doqquz günə,
Qaranlıqdan kim çıxar
Doqquz ay, doqquz günə.

782. Əkilməz biçilər,
Biçilər yeyilməz.

783. Ət içində bir cüt ala muncuğum var,
Haranı desən görür.

784. Ət sandığım, yetmiş yeddi qat sandığım,
Ağzı bağlı, gir içinə, yat sandığım.

785. Ətdən iyirmi ağacım var, ucларıdı şirmayı.

786. Ətnən sümük balta sapı,
Beş barmağı, bir budağı,
Al – deyəndə açılar,
Ver – deyəndə yumular.

787. İki anası,
Beş-beş balası.



Onu tapmayan,
Ayı balası.

788. İki quşum var, hərəsi bir tərəfdə,
Nə qədər baxıram, heç birini görə bilmirəm.

789. İki dağ arasında –
Yunis balığı.

790. İki yolum var, bir dirəyim.

791. İki fanar,
Gündüz yanar.
Gecə sönər.

792. Yan-yanaşı dərədə,
Qamışlıca bərədə,
Bir alaca quş yatır.

793. Yeddi dəlikli toxmaq,
Onu tapmayan axmaq.

794. Yekə zağada otuz iki qoşunun bir sərkərdəsi var.

795. Gecə ölü,
Gündüz diri.

796. Mən aşiqəm, ay mələr,
Bulud altdan Ay mələr.
Dəryada bir gül bitib,
Su deyibən ay mələr.

797. Mən aşıq, yüz yer aşar,
Basılmış yüz il yaşar,
Budağın kənarında
On kotan yüz yer aşar.

798. Mən baxıram, o yan qaçır.

799. Mənim beş qardaşım var,
Biri hər gün danışar,
İkisi qulaq asar,
İkisi durub baxar.

800. Namazlıyam namazı,
Almışam dəstəmazı,
Məçidim su, qibləm ət,
Harda qılım namazı.

801. O yanı mərmər, bu yanı mərmər
İçində bir nazənin pərvər.

802. O yanı taxta, bu yanı taxta
İçində alabaxta.

803. O necə göldür, suyunu içmək olmaz,
O necə dağdır – otun biçməklə qurtarmaq olmaz.

804. O nədi ki, əti haram, südü halal.

805. O nədir ki, adamda var, adı yox.

806. O nədir ki, baldan şirindi, zəhərdən acı?

807. O nədir ki, qaya üstə iki bulaq.

808. O nədir ki, oxu da tük, yayı da tük.

809. O nədir ki, gedər-gələr nihani
Gəzər cümlə cahanı.

810. O nədir ki, yer-göy onun içindədi.

811. O nədir ki, səhər dörd,
Günorta iki,
Axşam üç ayaqlı.



812. O nədir hər şey içində.

813. O hanı, ha o hanı,
Çaxmaq hanı, qo hanı,
Səksən səkkiz dəyirman,
Doxsaqn doqquz no hanı?

814. On inəyim var, onu da təpəldi.

815. Otuz iki –
Qılınclı qoşunun
Bir ət sərkərdəsi var.

816. Sabahdan durdum,
Sənə zillədim.

817. Sarı təpə, qara meşə.

818. Satmaq olmaz,
Dəyişdirib
Malı mala
Qatmaq olmaz.

819. Suya girər, bir olar,
Sudan çıxar, min olar.

820. Tərəzidə çəkilməz,
Bazarlarda satılmaz,
Baldan şirin dadı var,
Yemək olmaz, canı var.

821. Üç bulağım var –
Biri şirin,
Biri acı,
O biri şor.

822. Fil işlər, filban işlər,
Susuz yerdə dəyirman işlər.

823. Haqdan gəldi bir qonaq,
Ona bişdi qayqanaq.
Qayqanağın duzu yox,
Qonağın da dişi yox.

824. Hazılıyam, hazılı,
Yanım qara tazılı,
Çıxdım dünya üzünə,
Gördüm qəbrim qazılı.

825. Hap-hapı, dəmir qapı,
Şah ölkəsi, xan bağı.

826. Hap-hapı, kərki sapı,
Beş budağı, bir yarpağı.

827. Haça üstə küp,
Küpün üstə top,
Top üstə meşə,
Meşəni çaqqallar eşə.

828. Hədəndi, ha hədəndi,
Dörd qırağı bədəndi.
Yaşıl vurdum, al çıxdı,
Görəsən bu nədəndi.

829. Həftədə bir dəfə başın kəsərəm,
Nə qanı çıxmaz, nə canı.

830. Çəpər üstə ağ fərələr.

831. Cavanlıqda olar qara,
Qocalıqda oxşar qara.

832. Cərgə-cərgə söyüdlər,
Beli bağlı igidlər.



# GEYİM VƏ BƏZƏK ŞEYLƏRİ

833. Ağzını aşağı elərəm dolar,
Yuxarı elərəm boşalar.

834. Adam belində, xallıca ilan.

835. Adam başında qıllı motal.

836. Aldım qazan,
Saldım quyruq,
Əridi qazan,
Qaldı quyruq.

837. Almışam atannan
Gəncədə satannan,
Qu tükündən yüngül,
Qırağı qızıl, gül.

838. Altı camış,
Üstü keçi.
Yüklənibdi,
Bir cüt ata.

839. Bağlaram – qaçar,
Açaram – durar.

840. Balaca məzar,
Dünyanı gəzər.

841. Balaca motal,
Qapıda yatar.

842. Barmaqda ilantəhər,
Gözündə yaşıl zəhər.

843. Barmağıma ala gözlü
Sarı ilan sarılıb.

844. Bədəni var, başı yox,
Qolları var, qılçası yox.
Qarnını yırt, qanı yox.

845. Bir balaca misiri,
Aləm onun yesiri.

846. Qapı-qapı,
Zəncir sapı.
Dörd budağı,
Bir yarpağı.

847. Qıvrılmış ilan
Adam belində.
Quyruğu ilə
Başı bir yerdə.

848. Qırxca dənə gözü var,
Qıllıcana üzü var.

849. Qoyun dərisi,
Duzludu tərsi.
Yumru küpədi,
Başı təpədi.

850. Qulaq üsdə quş yatar.

851. Dağdan gəlir bir mözü
Bir burnu var, qırx gözü.



**852. Əzizinəm, yüz qoyun,**
**Yüz götürün, yüz qoyun.**
**Altı abbasıya almışam,**
**Altı öküz, yüz qoyun.**

**853. Əl ilə yapılar,**
**Qulağa taxılar.**

**854. Ərimez küpə,**
**Çürüməz küpə,**
**Yüz il qalsa**
**Çürüməz küpə.**

**855. Ətdən şiş,**
**Gümüşdən kabab.**

**856. İki kürküm var –**
**On qardaşa çatar,**
**Bunu kim tapar?**

**857. Yağış yağsa düzülər,**
**Gün çıxanda büzülər.**
**Altı var, üzü yoxdur,**
**Çəksəm bağı üzülər.**

**858. Yerim dərin dəryalar,**
**Məndən qiymətli nə var?**

**859. Yüyürdüm o təpəyə,**
**Yüyürdüm bu təpəyə,**
**Ayağım düşdü küpəyə.**

**860. Gecə qısır,**
**Gündüz boğaz.**

**861. Gündüz şappıldar,**
**Gecə dayanar.**

862. Lələyəm, ləlendiyim,
Bələyə bələndiyim.
Əkdim, biçdim, sovurdum
Belimə şələndiyim.

863. Mən aşıq, bayı keçdim,
Kasıbı bayı keçdim.
Altı camış, yüz keçi
Əlimdə çayı keçdim.

864. O nədi ki, vəzndə yüngül,
Qiymətdə ağır.

865. O nədir ki, toyuqdan alçaq, adamdan hündür.

866. Sarı-sarı sarmağım,
Sarı gözə barmağım.

867. Səhərdən duraram, haçaya minərəm.
Haçasız heç yana getmərəm.

868. Təkər üstündə zəbərcat,
Gəlin barmağına hacət.

869. Tu-tu tuburğu, tutar yatar tuburğu
Yüz il, min il gün dəysə, çürüməz heç tuburğu.

870. Çəkisi bircə misqal,
Qiyməti mincə dinar.

871. Çıxdım təpəyə,
Ayağım düşdü küpəyə.



# ÇADIR, EV VƏ ONLARIN HİSSƏLƏRİ

872. Ağdı donu, yoxdu canı,
Uzuncadır dırnaqları,
Yerə batır barmaqları.

873. Ay doğdu axtalandı,
Doğduqca axtalandı.
Bazara bir nər gəldi,
Yüz yerdən noxtalandı.

874. Ay haca gedən kişi,
Əlində yulğun kişi,
Mənə bir şal al gətir,
Nə ərşi olsun, nə arğacı.

875. Biz biz idik, yüz qız idik,
Bizi üzdülər, ipə düzdülər*.

876. Bizdə bir kişi var,
Hər gələnə əl verir.

877. Bizdə bir kişi var, təpəsi dəlik.

878. Bizim evdə dörd gəlin var,
Dördü də bir boy-buxunda.

879. Bir quşum var iki qanadlı,
Ha uçar yerində qalar.

---

* Çoxcavablı tapmacadır.

880. Bir itim var, evin başına hərlənər,
Orda başı bağlanar.

881. Bir öküzüm var, çulunu alanda qabırğaları sananar.

882. Bir xana toxudum, nə ərşi var, nə arğacı.
Aranda qalmaz, dağdadı ağacı.

883. Biri deyir, vay başım,
Biri deyir, vay leşim.

884. Qara dəvə çökdü yerə,
Bağırsağın tökdü yerə.

885. Qara toyuq, qaq elədi,
Qanadları taqq elədi.

886. Qara toyuq qarnı yırtıq.

887. Dam üstə at kişnər.

888. Düz əkdim, əyri bitdi.

889. Evimizdə iki gəlin var, ikisi də bir boyda.

890. Əyri-müyrü hara gedirsən?
Təpəsi dəlik, sən nə deyirsən?

891. Əl-ayağı dəstədi,
Qolları qəfəsdədi,
Nə yerdədi, nə göydə
Çərxi-fələk üstədi.

892. Ərçin əpə,
Gümüş təpə,
Dərədə çiçək,
Dəyirmi təpə.



893. İki bacım var, bir boyda.
· Biri durar, biri hayda.

894. Gedən leylək, gələn leylək,
Dabanı üstə duran leylək,
Həm taxtadı, həm də dirək,
Gecə gedib yatan leylək.

895. Gecə boşalar,
Gündüzlər dolar.

896. Ləkləmişəm, əkməmişəm.

897. Minarə, ha minarə,
İçi tamam qan-qarə.
Təpəsi açıq olur,
Dibi də ki, lap qarə.

898. Nə evdədi, nə çöldə,
Nə göydədi, nə yerdə.

899. Nə yerdədir, nə göydə
Həlqə vurub bir yerdə.

900. Tat-tatını götürər,
Tat oğlun götürər.
Oğlu yarpaq götürər,
Yarpaq torpaq götürər.

901. Taqqır-tuqqur ləzgilər,
Bizə qonaq gəldilər.
Qoyun-keçi yunundan
Evə palaz sərdilər.

902. Uzun-uzun kişilər,
Başların, ayaqların,
Divarda gizlətmişlər.

903. Üç qardaş bir-birinin üstünə çıxdılar.
Biri dedi: – Belim ağrıyır,
O biri dedi: – Başım partlayır,
Biri də dedi: – Qorxma, qorxma.

904. Hay gedər, huy gedər,
Bircə qarış yol gedər.

905. Hacıya gedərlər hac eşqinə,
Başındakı tac eşqinə.
Mənə elə kilim gətir ki,
Nə ərşi olsun, nə arğacı.

906. Həsən bəyim xəstədi,
Zənciri qəfəsdədi,
Nə yerdədi, nə göydə
Çərxi-fələk üstədi.

907. Çöldə deyil, evdədi,
Nə yerdə, nə göydədi.

908. Cərgə-cərgə söyüdlər,
Beli bağlı igidlər.



# EV TƏSƏRRÜFATINDA İŞLƏNƏN ŞEYLƏR

909. A kişi, kişi
Əlində şişi.
Mənə bir at ver,
Nə erkək olsun, nə dişi.

910. Ağ qul qapıları gəzər.

911. Ağ oxloyum yağlıdı,
Başna qaytan bağladı.

912. Ağ toyuq suda oynar,
Həmdəmlə belə oynar.
Ürkücü gəldi, ürkütdü,
Bərkici gəldi, bərkitdi.

913. Ağ babanı [hədi yabanı],
Gəzər obanı,
Altı qıçı var,
İki dabanı.

914. Ağac atlandı,
Gəmi qatlandı,
Quyruq bulandı,
Təpə sıçradı.

915. Ağac başın ovdular,
Kəndə koxa qoydular.

916. Ağacdan atı,
Dəmirdən qatı,
İnsan illəti,
Tanrı qüdrəti.

917. Ağacdan yuvası var,
Daşdan yumurtası var.

918. Ağzı poladdan,
Saqqalı sapdan.

919. Ağzı var, dişi yox,
Onu vurmayan kişi yox.

920. Adam əlində,
Şeytan felində,
Təkər ayaqlı,
Quyruğu belində.

921. Az gedər, çox gedər,
Bircə qarış yol gedər.

922. Ayağı var, əli yox,
Ağızı var, dili yox.
Soyuqlarda gərəkdir,
Boğazı lap dirəkdir.

923. Aləmi bəzər, özü lüt gəzər.

924. Altı haça,
Üstü haça.
İki üzük,
İki qılça.

925. Altı şişə,
Üstü şişə,
Ortasında
Kabab bişə.

926. Alçaq damdan qar yağar.
Qırağı taxta divar.



927. Anam məni öldürər,
Dərimə saman doldurar,
Çal eşşəyə mindirər,
Qapı-qapı dolandırar.

928. Arazın ləpəsindən,
Süd sağdım təpəsindən.
İki ğli var belində,
Ağızı var təpəsində.

929. Arvada bax, arvada,
Oturubdu torbada,
Torbası dəmirdəndi,
Özü ala bədəndi.

930. Atıldım mindim qara daya.

931. Axşam açılır,
Səhər yığılır.

932. Bağlarda tappıldar,
Meşədə şaqqıldar.

933. Badyabanı
Gəzər obanı,
Altı qıçı var,
İki dabanı.

934. Balaca Bəsti
Yanları yastı,
Sənəm paçası,
Zərdi haçası.

935. Balaca quyu,
Pıqqıldar suyu.

936. Balaca kişi çəpər hörər.

937. Balaca mənzər,
Evləri gəzər.

938. Balaca Cəfər parça təpər.

939. Baldırı bucaq,
Dalı bir qucaq.

940. Barmağı soxdum gözünə
Ağzını açdı dizinə.

941. Bax Allahın işinə,
İplik taxıb dişinə,
Papaq qoyub başına.
Quyruğu suda
Başı quruda.

942. Baxsan onun üzünə,
Görünərsən özünə.

943. Başına kələm bağlayar,
Ürəyi vərəm bağlayar.
Oğul-uşağını yığıb,
Dəsmal alıb ağlayar.

944. Bizdə bir kişi var,
Ağzında iki dişi var.

945. Bizdə bir kişi var,
Ağzında on dişi var.

946. Bizdə bir kişi var,
Qırx iki dişi var.

947. Bizdə bir kişi var,
Qırx-əlli dişi var.

948. Bizdə bir kişi var,
Dəmirdən dişi var.

949. Bizdə bir kişi var,
Dörd qıçı var.



950. Bizdə bir kişi var,
Əyri-müyri işi var,
Bizə gələrsən,
Gülməkdən ölərsən.

951. Bizdə bir kişi var,
Yetmiş iki dişi var.

952. Bizdə bir kişi var,
Çoxluca gözü var.

953. Bizim evdə bir quyu var,
İçində zəm-zəm suyu var.

954. Bizim evdə bir kişi var,
Təpəsində yüz deşiyi var.

955. Bizdə bir kişi var,
Hər gələn üzündən öpür.

956. Bizim evdə bir quyu,
İçində ağca suyu,
Suyun içində ilan,
İlan ağzında gövhər,
Gecələr bizə göndər.

957. Bizim evdə bir quyu var,
İçində sərin suyu var,
Suyu içilməz,
Barı biçilməz.

958. Bizim evdə bir kişi var,
Ağzında üç dişi var.

959. Bizim evdə bir kişi var,
Köndələn yatışı var.

960. Bir atım var dərində,
Bağlamışam sərində,

Gecə-gündüz yol gedir,
Yerindədi, yerində.

961. Bir atım var, hər yetəni minir.

962. Bir atım var, çullasan çulun salar,
Çullamasan qulun salar.

963. Bir balaca özü var,
Səksən səkkiz gözü var.

964. Bir balaca sandıqça,
İçi dolu ağ mıxça.

965. Bir beləcik atlaz,
Suya salsan batmaz.

966. Bir balaca boyu var,
Dam dolusu toyu var.

967. Bir qara quşum var,
Qapıda dimdiyindən asılıb,
Heç kimi buraxmır.

968. Bir qara öküzüm var,
Hər yetən çulluyar.

969. Bir qara toyuğum var,
Qapıları gəzər.

970. Bir qızım var, hər gələn üzündən öpər.

971. Bir quşum var firəngi,
Talvarda vurar zəngi,
Nə yemir, nə içmir,
Nə dili var, nə həngi.

972. Bir damım var dəmirdən,
Altı od, içi bədən.



973. Bir damım var, əl, üstə,
Əlini vur əl üstə,
Alçaq damın altından,
Xırda-xırda qar istə.

974. Bir damım var, üç dirəkli,
Damı götürsəm, qalar dirəyi.

975. Bir damın mən üstündə,
Sən baxsan, sən üstündə.

976. Bir itim var, hürər-hürər,
Burnu şişər.

977. Bir yumru özü var,
Mincə dənə gözü var.

978. Bir özü var, min gözü.

979. Bir öküzüm var, ağzından ayran axar.

980. Bir öküzüm var, quyruğuyla çit hörər.

981. Bir öküzüm var, quyruğundan tutmasan, dama girməz.

982. Bir padşahın beş oğlu var, beşi də bir yaşda, bir biçimdə, beşi də eyni peşədə.

983. Bir toyuğum var,
Süzər-süzər
Yumurta tökər.

984. Bir hovuzum var dəmirdən
Suyu gəlir yetmiş yeddi dəlikdən.

985. Boycuğazı bir qarış,
Saqqalı yeddi qarış.

986. Burdan girər,
Ordan çıxar.

987. Qapı dalında qaraca qul,
Əlini vurma, geridə dur.

988. Qara atı yağladım,
Qaya dibinə bağladım.

989. Qara bəy atdan endi,
Arvad-uşaq sevindi.

990. Qara qatır, qapıda yatır,
Gəlib-gedənə şıllaq atır,
Yiyəsi gəlcək durub qaçır.

991. Qara qul qapıları gəzər.

992. Qara quşu quyruğundan asarlar,
Ələ alıb düz qazana basarlar.

993. Qara eşşək, ağ palan.

994. Qara köpək qapıda yatar,
Qolu əyilər, belinə batar,
Nə hürər, nə də ki tutar.

995. Qara toyuq qaqq elədi,
Qanadları şaqq elədi.

996. Qara toyuq qaqq elədi,
Qanadları şaqq elədi,
Dəmir salıb ürkütdüm,
Qapısını bərkitdim.

997. Qara-qara qarğalar,
Hər qapıya yorğalar.



998. Qaranlıq damda at kişnər.

999. Qızıl tas, gümüş tas
İki siçan oyunbaz.

1000. Qıraqları su, ortasında od.

1001. Qırx kişi var bir boyda, bir biçimdə,
Yatıb hamısı bir sandıq içində,
Sandıq da babamın şalvar cibində.

1002. Quyruqlamasan, dama girməz,
Girsə də yemək yeməz.

1003. Quyu içində ilan,
Ağzında vardı mərcan.

1004. Dağdan yumbalanar, sınmaz.

1005. Dağdan gəlir dağ alı,
Qolları budaq alı,
Əlin gözünə soxsan,
Ağzı ayrıla qala.

1006. Dağdan gəlir danqıra,
Quyruğu zildən qara,
Yerişi tapur-tupur
Dırnağı səksən para.

1007. Dan üzündən durdum,
Qızıl at belinə sıçradım.

1008. Daşı-daşlara çaxdım,
Pambığı oda yaxdım.

1009. Dəyirmanın daşı var,
Üstdə gövhər qaşı var.

Hər kəs onu tapa bilsə,
Yüz iyirmi yaşı var.

1010. Dəli qatır, qapıda yatır,
Gəlib-gedənə tərsə baxır,
Qol-qılçası belinə batır.

1011. Dövranın əmrindədir,
Bəndənin felindədir,
Altı ayağı, iki gözü,
Quyruğu belindədir.

1012. Dörd qardaşın bir papağı var,
Hamısı birdən qoyur.

1013. Düzüm-düzüm nar,
Dizimətən qar.
Əsdi o dilbər,
Doldu bu xalvar.

1014. Dümdüz idi meşədə,
Evdə başqa peşədə,
Üstə ilan uzanar,
Bir ağ köynək qazanar.

1015. Evdə durub bir kişi,
Nənəmlədir hər işi.

1016. Evimizdə bir kişi var,
Haçadan iki dişi var.

1017. Evimizdə kəndi var.
Kəndinin kəməndi var,
Göydə gedən quşların,
Ayağının bəndi var.

1018. El yatdı, oba yatdı,
Ölü ayağın uzatdı.



1019. Ələk boyda üzü var,
Yüz əllicə gözü var.
Ağzı yuxarı baxar,
Altından yağış yağar.

1020. Əlindədi əlində,
Ətəkləri belində.
Gecə-gündüz yol gedir,
Yerindədi, yerində.

1021. Əlli-əlli yüz düyməsi,
Əlli mərcan düyməsi,
Hər kəs onu bilməsə,
Əlli ilin xəstəsi.

1022. Əlsiz-ayaqsız köynək istər.

1023. Ərəb atdan,
Dəmir qatdan.
Quş burulu,
Quyruq bulanı*.

1024. Əsli ağacdan, kökü qıldan,
Üyüdür baban ehsanına.

1025. Ət dirəyin başında,
Dəmir deşikli papaq.

1026. Zəng zəng içində,
Zəng firəng içində,
On iki ay firəng içində.

1027. Zər zərə yapışdı,
Zər divara yapışdı,
Zərgər oğlu gəlməmiş,
Zər divardan qopmadı.

* Çoxvarinatlı və müxtəlif cavablı tapmacadır.

1028. İki qıçı var çarpazı,
Sıxsan parçalar atlazı.

1029. İki evin arası,
Döyülər nağarası.

1030. Yağını yalar yanar,
Quyruğun bular ağlar.

1031. Yolla gedir dörd ulaqlı,
Dəmir mıxlı, gen qulaqlı,
Yüyürər, yüyürər yumbalanar,
Yüyürər, yüyürər yumurtlar.

1032. Yumru qız oba gəzər.

1033. Kilid-kilid içində,
Kilid sandıq içində.
Binaya bir od düşdü,
Biz də yandıq içində.

1034. Gecə bağlanır,
Gündüz sallanır.

1035. Gecə dağılar, gündüz yığılar.

1036. Gecə əzilər, gündüz düzülər.

1037. Gecə-gündüz işlər,
Dişlərini dişlər.

1038. Gödəcik kişi,
Patavamnan var işi.

1039. Günbəzə oxşar hamam,
İçində var bir ilan.

1040. Gündüz ağa,
Gecə nökər.



1041. Gündüz ağarar,
Gecə saralar.

1042. Lək-lək, nə sarımsaq ək, nə soğan,
Gah yuxarı, gah aşağı gərdişi dövran.

1043. Meşədə, ha meşədə,
Beş qardaş var meşədə,
Beşi də bir peşədə.

1044. Mən aşiq, tut ağacı,
Tut bitmiş tut ağacı
İki yerdən ağzı var.
Bir yerdən tutalğacı.

1045. Mən baxıram, o da baxır.

1046. Milit-milit,
Qapısı kilit,
Ya bunu tap,
Ya burdan get.

1047. Nə yerdədi, nə göydə
Cümlə-cahan içində.

1048. Nə yerdədir, nə göydə,
Zəncirgəsi əlində.

1049. Nədəndi, ha nədəndi,
Bağrın başı zədəndi,
Qırağı su, içi od,
Gedin görün nədəndi.

1050. Nənəmin bir quşu var fırlanar,
Quyruğundan çatı, gəbə sallanar.

1051. O yana gedər hi-hi,
Ayaqsızdı hi-hi,
Dayaqsızdı hi-hi.

1052. O yanı qaya, bu yanı qaya,
İçində ağca maya.

1053. O yanı qac, bu yanı qac,
İçində odlu ağac.

1054. O yanı yastı,
Bu yanı yastı,
Dörd ayağını,
Yerə nə basdı.

1055. O nə ilandı ki, atəşpərəst,
Kimə soxsan deşər, eylər şikəst.

1056. O nədi ki, Allahın felində,
Bəndənin əlində,
Quyruğu belində.

1057. O nədi ki, bədəni gildən,
Burnu oddan.

1058. O nədi ki, bir quyu,
Quyunun içində suyu,
Suyun içində ilan,
İlanın ağzı yanan.

1059. O nədi ki, şəni qıllı siyahkar,
Yağar cismindən yaz, yayı, qışı qar.

1060. O nədir ki, ağzı dəmirdən,
Dili kəndirdən.
Üstü ocaq, altı su.

1061. O nədir ki, altı cəhənnəm,
Üstü su.

1062. O nədir ki, balaca üzüdü,
Min iki gözüdü.



1063. O nədir ki, gecə-gündüz zarıyar,
Dəmir qapı vaxt çarxına sarıyar.
İki qardaş yazdığını sanıyar,
Hər tayı da bir-birini tanıyar.

1064. O nədir ki, gecə-gündüz yol gedir.

1065. O nədir ki, hər yana işıq salar.
Öz dibinə yox.

1066. Özü bir barmaq, saqqalı qırx barmaq.

1067. Özü dəmirdən,
Quyruğu kəndirdən.

1068. Özü yeməli, içi geyməli.

1069. Özü çalır, özü oynuyur.

1070. Rəfdə var fincan,
İçi dolu mərcan.

1071. Sarı atlas, iynə batmaz,
And içər, piyada getməz.

1072. Sarıdı, ağdı rəngi
Gecələr o saz çalır,
Mən oynaram diringi.

1073. Səkidə gəzər, yumurta tökər*.

1074. Səhər çağı sarıca qız,
Yığdı balaların başına,
Otdu dız-dız ağladı.

1075. Səhərdən durar, dalıma minər.

* Çoxcavablı tapmacadır.

1076. Su içində od.

1077. Suda balıq,
Quyruğu yanıq.

1078. Tap-tapı, dəmir qapı,
On iki budaq, iki yarpaq.

1079. Tərəzi var, təngi var,
Hər bir rəngdən rəngi var.
Salıb üstə oturram,
Həngi var, ahəngi var.

1080. Uzaqdan baxırsan qaracadı,
Yaxına gəlirsən ölücədi,
Barmaq sox gözünə diricədi.

1081. Uzun bağırsaq başı təpəl.

1082. Uzun qız evləri gəzər.

1083. Uzun qız oba gəzər,
Xamırnan özün bəzər.

1084. Uzun qız tək ayaqlı,
Yumarlanar lovğa gəzər,
Gedib-gəlib xamır əzər.

1085. Uzun dirək içində odlu külək.

1086. Uzun-uzun uzanar,
Özünə köynək qazanar.

1087. Uzun-uzun uzanar,
Həftədə bir bəzənər.

1088. Ulama, ay ulama,
Nafil oxu dolama,
Gündüz gedər şah bağına,
Gecə gələr salama.

1088. Üç ayaqlı bir kişini,
Balaca uşaq itələr.

1090. Üç bacı bir-birini qovar.

1091. Üç dərviş bir quyuya baxır.

1092. Faytonum var, birtəkərli,
Nənəm sürər tək, birəlli.
Nə izi var, nə tozu var,
Yupyumru yumurtlayar.

1093. Futulboz, hay futulboz,
Biri qara, biri boz.
Bağlanar heç açılmaz,
Molla buna dua yaz.

1094. Xanımların əlindədi,
Cümlə-cahan içindədi,
Xanım özü də içindədi.

1095. Xanım-xatın düyməsi,
İlim xatun düyməsi,
Hər kəs onu tapmasa,
Yeddi manat cərməsi.

1096. Ha gedir leylək,
Hu gedir leylək,
İldə bir qarış
Yol gedir leylək.

1097. Haydı-haydı, haraydı,
Gedin, görün nə haydı,
Kötüyə bir od düşüb,
Gedin, görün nə haydı.

1098. Hapı-hapı,
Zəncir sapı.
Dörd budağı
Bir yarpağı.

1099. Hap-hapı, qızıl qapı,
Şah ölkəsi, xan bağı.

1100. Həvəng-həvəng içində,
Həvəng də zəng içində,
Nə yerdədi, nə göydə,
Əsil firəng içində.

1101. Hədəndi, ha hədəndi,
Qara bağrım zədəndi.
Bu kola bir od düşüb,
Görün dərdi nədəndi.

1102. Hədi yavanı, hudu yavanı,
Altı ayağı var, iki dabanı.

1103. Həşədən, ha həşədən,
Bir səs gəlir meşədən.
Atamın beş oğlu var,
Beşi də bir peşədən.

1104. Hin hinində.
Şeytan tinində.
Altı ayağı var,
Quyruğu belində.

1105. Hini-hinicə,
Burnu əyricə.
Hər nəyə vursan,
Bölər ikicə.

1106. Çal çinar başında bir quş oturur,
Yağın yalayır, quyruğun bulayır.



1107. Çil toyuq, çiləmə toyuq,
Başını kəsdim, qanı yox.

1108. Çullaram çulun salar.

1109. Cüvani, ha cüvani,
Dörd ayağı var, iki dabanı.

1110. Şəkli işıqdan,
İpi var mıxdan.

1111. Şəhrəbanı gəzər obanı,
Altı ayağı, iki dabanı.

# SİLAHLAR

1112. Ağaca çıxar,
Ağzına tıxar.
Hər kəsə dəysə,
Evini yıxar.

1113. Ağzı var, gerisi yox,
Dərisi var, tükü yox.

1114. Alıcan quyuya düşdü,
Qulaqları ilişdi.

1115. Altı taxta, üstü taxta,
Ortasında dəmir balta.

1116. Altı taxta, üstü taxta,
İçində cəllad hasası.

1117. Anası qundaqda yatır,
Oğlu bazara gedir.

1118. Atdım atana,
Dəydi adama.
Ucu şiş neştər,
Uzunca təhər.

1119. Atdım atana,
Dəydi kotana.
Dəryada balığa,
Düzdə ceyrana.



1120. Bapbalaca boyu var,
İldırımdan soyu var,
Əl vurarsan qudurar,
Dünyaya od vurar.

1121. Bir ağacım var – yarpaqsız, budaqsız,
Ona çıxan qalar, əlsiz-ayaqsız.

1122. Bir balaca misiri,
Bəylər onun yesiri.

1123. Bir balaca misri daşı,
Yandırar dağı-daşı.

1124. Bir balaca hindili,
Deşib keçər qəndili.

1125. Bir qundağım var, içində qudurmuş it yatıb.

1126. Bir quşum var, balası özündən tez uçar.

1127. Bir quşum var düz uçar.

1128. Bir quşum var taxta-dəmir,
Yumurtası adam dəlir.

1129. Qalın qamış içində,
Xoruz xuda çağırır.

1130. Qara atımı yağladım,
Qaya dibinə bağladım*.

1131. Qara qayış dizdə qalır;
Açılmağı bizdən alır.

* Müxtəlifcavablı tapmacadır.

1132. Qara qoçum yağlanar,
Meşələrdə buğlanar.
O necə qıfıldır ki,
Açarsızca bağlanar.

1133. Qara toyuq qaqqıldar,
Qanadları şaqqıldar.
Uçsa ildırım çaxar,
Dumanı dağa qalxar.

1134. Qaranlıq damdan qulun mələr.

1135. Qurd quyuda, qulaqları bayırda.

1136. Quru qovaq içində qudurmuş ilan.

1137. Dar küçədə qulun mələr,
Qabaqdakın yerə sərər.

1138. Ditdiləcik məndirə,
Bəyi yerə əndirə.

1139. Evimizdə kəndi var,
Kəndinin kəməndi var,
Göydə gedən quşların,
Ayağında bəndi var.

1140. Əldə fitil,
Ordan itil.
Hara dəysə,
Qalar mitil.

1141. Ərəb əlində,
Dizi belində,
Atın üstündə
Bir ucu yerdə
Bir ucu göydə.



1142. İynə gözündən baxar,
Hədəfinə od yaxar.

1143. Kor öküz koldan baxır,
Ağzından ayran axır.

1144. Gərməşonu taparlar,
Sapand taxıb atarlar.

1145. Göydən düşdü daş,
Bişib oldu aş.
Kəsdi, tökdü baş,
Nə aşdı, nə daş.

1146. Məmmədəli deşikdə,
Qulaqları eşikdə.

1147. Taxta dəmir,
Gah əyilir,
Gah düzəlir.

1148. Uzun ağacı ovarlar.
Başına papaq qoyarlar.

# QEYRİ-MADDİ VƏ MÜCƏRRƏD TAPMACALAR

1149. Ağac başında qora,
Bilmədim düşdüm tora.
Hər kəs bunu tapmasa,
Sorğusuz getsin gora.

1150. Adı var, özü yox.

1151. Atəşdə yanmaz,
Suda batmaz.

1152. Atsam irəli,
Qayıtmaz geri,
Desəm, ah əhsən,
Tərs oğlu, tərsəm.

1153. Axşam oldu – qırıldıq,
Səhər açıldı – dirildik.

1154. Ahanı, ha ahanı,
Gəzər cümlə-cahanı.
İstanbuldan su içər,
Təbriz onun məkanı.

1155. Bazarda satılmaz,
Tərəzidə çəkilməz,
Baldan şirin dadı var.

1156. Baldan şirin, baltadan ağır,
Bazara gedər, satılmaz.



1157. Bir qardaşım var,
Getdi, qayıtmadı.

1158. Bir quş uçurtdum,
Tuta bilmədim.
Bir kürk geyindim,
Çıxarda bilmədim.

1159. Bir quşum var alanı,
Gəzər gümlə-cahanı,
Tutdum başın kəsməyə,
Nə əti var, nə qanı.

1160. Bir quşum var, bir göz qırpımında ərşə gedər.

1161. Bir quşum var zirəngi,
Dağlar altda dirəngi,
Gecə qonaq gələndə
Nə dəliyəm, nə dəngi.

1162. Bir quşum var səməndi,
Nə bağı var, nə bəndi,
Özü açılar, özü yumular,
Heç kim bilməz bu fəndi*.

1163. Bircə qırıq misiri
Bəylər onun yesiri**.

1164. Bitməmiş yovşan dibində,
Doğmamış dovşan balası.

1165. Quş yuvasından çıxdı,
Geri dönə bilmədi.

* Bir neçə cavablı tapmacadır.
** Eyni tapmacanın müxtəlif cavabları vardır.

1166. Dona bürünməz,
Gözə görünməz,
Dildən üzülməz.

1167. Durub, durub əylənər,
Məni görüb bəylənər.
Adam kimi yeriyər,
Adam deyil, əylənər.

1168. Əzizim, qəfəssizdir.
Bülbüldür, qəfəssizdir,
Uçanda quş tək uçar,
Canı yox, qəfəssizdir.

1169. Yayda gedər, qışda gələr.

1170. Yeriyər küpə,
Yeriməz küpə,
Min il də qalsa,
Çürüməz küpə.

1171. Gedər, gedər izi yox,
Qayıdar gələr, tozu yox.

1172. Göydən bir həlqə düşdü,
Hər şey içinə düşdü.

1173. Göydən düşər sınmaz,
Oda düşər yanmaz,
Suya düşər batmaz.

1174. Göydən düşdü, yerə yapışdı.

1175. Gündüz gedər dolama,
Gecə gələr salama.

1176. Mən qalıram, o gedir.



1177. Mən gedərəm, o qalar.

1178. Mən gedirəm, o da gedir,
Mən gəlirəm, o da gəlir.

1179. Nar da var, nar da var,
Nardan şirin harda var?
Əl tutmaz, bıçaq kəsməz,
Ondan şirin harda var.

1180. Nə baltadır, nə kərki,
Bütün kəsərdən iti.

1181. Nə dərd bilər, nə kədər,
Mən gedərəm, o gedər.

1182. Nə əli var, nə ayağı,
Nə başı var, nə qulağı,
Gah ağladar, gah güldürər.

1183. Nə gecə yatar,
Nə suya batar.

1184. O kimdir ki, dərdüməndi iftadə,
Dünya qəmindən azadə?

1185. O nədi ki, əyə-əyə hamıya dəyə?

1186. O nədi ki, bədənə peyda,
Onsuz olmaz şühəda?

1187. O nədir, dərya kimi bulanmaz,
O olmasa, bütün dünya dolanmaz.

1188. O nədir ki, yayda donar,
Qışda əriyər.

1189. O nədir ki, gedər-gedər nəhanı?
O nədir ki, kəşf eləyər cahanı?
O nədir ki, gedər-gələr görünməz.

1190. O nədir ki, uzağı yaxın eylər.

1191. O nədir ki, həm kiçikdir, həm böyük,
Arxasında var onun bir özgə yük.

1192. O hansı quşdur,
Yuvasından çıxdı,
Girə bilmədi.

1193. Ondan qalın yox,
Ondan şirin yox,
Ondan gəzəyən yox.

1194. Hər qurd ipək sarımaz,
Ayaq tutsa, yeriməz,
Min il min ilə qalsa,
Yaxşı-yaman çürüməz.

1195. Şappır-şuppur çay keçdim,
Şapırına batmadım.
Qırmızıdan don geydim,
Nişanəsin tapmadım.



# XÖRƏKLƏR VƏ BAŞQA YEYİNTİ MƏHSULLARI

1196. Ağaca minər, qıçı sallanar.

1197. Ağca təpə,
Başı küpə,
Nə küpədi,
Nə də təpə.

1198. Bir ilikdi, bir sümükdü, bir dəri,
Aləm onun ləzzətinə müştəri.

1199. Qara toyuğum
Qapıda yatar,
Yumurta tökər.

1200. Düzüm-düzüm nar,
Dizimətən qar.
Əsdi qara yel,
Qondu o dilbər*.

1201. Əmirdən, ay əmirdən,
Gündü keçən ömürdən.
Yemişlərdən hansıdı,
Özəyi var dəmirdən.

1202. Mən aşiqəm könüldən,
Xəbər alın əmirdən.
Bu gün bir nübar yedim,
Budaqları dəmirdən.

---

* Həmin tapmacanın müxtəlif cavabları vardır. Lakin əksəriyyəti taxıl və dənli bitkilərə aiddir.

1203. O nədir ki, gəmiyə minər,
Ayağın sallar.

1204. O nədir saymaq olmaz
Olmasa qalmaq olmaz.

1205. Səkidə yatar, yumurta tökər*.

1206. Tap-tapmaca,
Qab altdaca.

1207. Tap-tapmaca,
Gül yapmaca,
Deşiklədim
Atdım saca.

1208. Uzun-uzun dərvişlər,
Gecə bizə gəlmişlər.
O qədər oynamışlır,
Xurd-xəşıl olmuşlar.

1209. Çıxar tavaya,
Çığrar havaya.

1210. Çıxar ağaca sallanar,
Dərin dama tullanar.

1211. Şit bişmiş aş,
Köşək elə daş.

* Bu tapmaca geniş yayıldığı üçün onun bir neçə variantını veririk.



# MUSİQİ ALƏTLƏRİ

1212. Ağac için ovaram,
Düz ağzıma qoyaram.

1213. Ağacda var bağırsaq,
Yel babanı çağırsaq,
Ağzım açıb ney çalar,
Süleymanı çağırsaq.

1214. Altı cəhənnəm,
Üstü düzəngah.
Qulaqları üç,
Saçları ülgüc.

1215. Qabırğası var, qanı yox.
Nəfəsi var, canı yox.

1216. Qarğı qamış,
Ağza yapış,
Üstü deşik,
Gerisi beşik.

1217. Qoz ağacın oyarlar,
Üstünə tel qoyarlar,
Vaxtsız durub ağlasa
Qulağını burarlar.

1218. Dərdi qəmdən,
Təni zədən,
Əlin vursan,
Edər fəğan.

1219. Ələ alsan ağlayar,
Yerə qoysan kiriyər.

1220. İki küpə,
İki ağac,
Biri göydə,
Biri yerdə.

1221. Yumru təkər,
Əllərdə gəzər.

1222. Kişnə, kişnə, kəhər at,
Düzün saxla, pisin at.
Ayağında qıl sicim,
Kişnə, gözəl kəhər at.

1223. O nədi ki, yetmiş iki dil bilir.

1224. Özü həştə,
Ünü qəştə.

1225. Palıdın parası,
İçinin tarası,
Onu tanımayan,
Şeytanın balası.

1226. Sağsağanlar qaqqıldar,
Başı mənim əlimdə,
Doqquz qovaq dillənər,
Tacı mənim əlimdə.

1227. Toyda, düyündə gəzər,
Səsi aləmi bəzər.
Qabırğası qatbaqat,
Gah yavaş, gah da bərk dart.

1228. Tut ağacı, üzü pərdə,
Barmaq gəzər pərdə-pərdə.



Gah dərində, gah zərində,
Ağlar ahu-zar dilində.

1229. Üzük aldım, qaşı yox,
Təpə gördüm, daşı yox.
O nədir ki, ağlayır,
Gözlərinin yaşı yox.

1230. Hili-hilicə kəhər at,
Hilisi gözəl kəhər at,
Ayağında qıl sicimi
Düyünü gözəl kəhər at.

1231. Hürü-hürünü dindirər,
Hürü pərini dindirər.
Bizim evdə üç dilsiz var,
Biri-birini dindirər.

1232. Çömçə başı məndiri,
Belində var kəndiri,
Milçək qonsa vızıldar,
Əl dəyəndə sızıldar.

# KƏND TƏSƏRRÜFATI ALƏT VƏ MAŞINLARI

1233. A qara gədə, nədəndi,
Bağrı zədən-zədəndi.
Özü əllər doyurar,
Gözü doymaz nədəndi.

1234. A yolnan gedən kişi,
Torpağnan vardı işi,
Bir oğlaq almışam mən
Nə erkəkdi, nə dişi.

1235. A kişi, kişi,
Dəmirdən dişi,
Yeyər buğdanı,
Qalar küləşi.

1236. Ağac ağacdan,
Qarnı şalaşdan,
Doymaz bu oğlan,
Min tağar aşdan.

1237. Ağac başın oydular,
Kəndə koxa qoydular.

1238. Ağacdan atı,
Dəmirdən qatı,
Adəm illəti,
Tanrı qüdrəti.

1239. Ağızı var, dili yox,
Qarını var, beli yox.
O necə əkinçidir,
Toxum səpir, əli yox.



1240. Anam, atam var mənim,
Suda xatam var mənim,
Dörd anadan olmuşam,
On beş atam var mənim.

1241. Atam atlı, mən yayaq,
Əlimdə dəmir daraq.
Palçıq dizdən, su beldən,
Yüyürürük toz qopur.

1242. Axar çayın axanı,
Dolandırar cahanı,
Bir yanında xış işlər,
Bir yanında kotanı.

1243. Balaca kişi kəndi gəzər.

1244. Bizdə bir kişi var,
Qırx dənə dişi var.

1245. Bizdə bir kişi var,
Ağzında beş dişi var.

1246. Bizim evdə bir kişi var
Qırx-əlli dişi var.

1247. Bizim evdə bir kişi var,
Təpəsində üç dişi var.

1248. Bir atım var dərində,
Bağlamışam sərində,
Gecə-gündüz yol gedir,
Yerindədi, yerində.

1249. Bir beləcə mürcünü
Gördüm onun gücünü.
Yeddi qatar dəvə də
Çəkməz onun gücünü.

1250. Bir özü var, dörd gözü.

1251. Bir dərədə qurd durmuş,
Dişin-dişinə vurmuş,
Dünyanın malın yemiş,
Heç özünə qalmamış.

1252. Burdan batar, ordan çıxar,
Qılçıq atar, yonca bitər.

1253. Qara toyuq yer eşər,
Ağ toyuq suda bişər.

1254. Qıllı qovaq dibində,
Paslı dəmir cingildər.

1255. Qucağa alırsan ağlayır,
Yerə qoyursan kiriyir.

1256. Dam dambıldar,
Su guruldar,
Heyva çalar,
Nar oynuyar*.

1257. Daş xırıldar,
Su şırıldar,
Taxta çalar,
Dən oynaşar.

1258. Daşdandı, dəmirdəndi,
Xörəyi xəmirdəndi,
Aləmə yemək verər,
Özü doymaz nədəndi?

1259. Daşdəmir daşdan,
Qarnı talaşdan,

* Çoxcavablı tapmacadır.



Daşdəmir doymur,
Yüz qazan aşdan.

1260. Daşdəmirdi, yeməyi xəmirdi.

1261. Dərə dibində durar,
Aləmi o doyurar.

1262. Dərədə durmuş,
Bığını burmuş,
Dünya durduqca,
Yerində durmuş.

1263. Dörd qardaş,
Ha ötüşürlər.
Biri-birinə,
Çata bilmirlər.

1264. Evimizdə bir kişi var,
Aş içər, noxudunu seçər.

1265. Əlimə allam, sallanar,
Yerə qoyaram, yığılar.

1266. Əlində oraq,
Qolları daraq,
Üstündə xırman,
Altı dəyirman.

1267. İtələdim novura,
Qulaqları dovura.

1268. Yarır torpağı qat-qat.
Əlli öküz, əlli at,
Ona çatmaz qüvvə də
Böyük iş görür kənddə.

1269. Yatar köşər daş gördüm.
Duzsuz bişmiş aş gördüm.

1270. Mücürü, ay mücürü,
İlişdirdim ucunu,
Yeddi qatar nər gərək,
Çəkə onun gücünü.

1271. Nə ələ var, nə ayağı,
Eşər, tökər torpağı.

1272. O yanda bir qoç durub,
Buynuzların düz burub,
Cümlə aləmi udub,
Hələ yerində durub.

1273. O nədir ki, yeriyər, yeriyər – un qusar.

1274. Özü əyri, yolu düz.

1275. Sağsağan səkər,
Bildirçin ötər,
Qazlar qaqqıldar,
İliyin tökər.

1276. Səkkiz dartan, bir yırtan.

1277. Suya girər lillənər,
Sudan çıxar dillənər.

1278. Uzunca qız uzanar,
Özünə yem qazanar.

1279. Üstü taxta, altı daş,
Səkkiz ayaq, iki baş.

1280. Fır-fır ötər,
Ağ-ağ tökər.



1281. Hatəm-hatəm hətdədi,
Hatəm koxa kəntdədi.
Dişi qarnı altında,
Dodağı dal qatdadı.

1282. Helində, ha helində,
Qanadları belində.
Gecə-gündüz yol gedər,
Yerindədi, yerində.

1283. Hənd oldu, ha hənd oldu,
Dəyirmana dən doldu,
Səksən ikicə taxta
Bir mismara bənd oldu.

# MƏTBUAT VƏ TEXNİKAYA AİD TAPMACALAR

1284. Ağ yerə toxum səpərlər.

1285. Ağ çöldə qara toyuq.

1286. Ağ köşəndə yer şumluyuram.

1287. Ağ üstündə qaralar,
Bir-birini qovalar.

1288. Ağzı birdi, dili mindi,
Gah belə deyir, gah elə.

1289. Ağ çala qara toxum,
Əlim ilə əkərəm,
Dilim ilə biçərəm.

1290. Ağca atı nalladım,
Səmərqəndə yolladım.

1291. Adamda yox,
İnsanda var,
Aləmdə yox,
Cahanda var*.

1292. Ay gedir adamıla,
Bir xonça badamıla,
Nə dili var, nə ağzı
Danışır adamıla.

* Ərəb əlifbasının nöqtələrinə işarədir.



1293. Aya bax axtalanıb,
Qapılar taxtalanıb.
Meydana bir at gəlib,
Burnundan noxtalanıb.

1294. Anada var, atada yox,
Nuxada var, Bakıda yox.

1295. Araxçınım var atlas,
Ataram suya batmaz.

1296. Arpa yemir, saman yemir,
Anqırır heyvan kimi.

1297. Bakıda bişər,
Şəkidə düşər.

1298. Bir qapağı,
Min yarpağı.

1299. Bir qarpızım var cığal,
Üstünə dünya sığar.

1300. Bir qaraca gözü var,
Dünya dolu izi var.

1301. Bir quşum var nəhanı,
Gəzər cümlə-cahanı,
İstərəm kəsib yeyəm,
Nə əti var, nə qanı.

1302. Bir quşum var, səsi düşüb dünyaya,
O quş məni aparacaqdır Aya.

1303. Bir quşum var canı yox,
Qanadı var, qanı yox,
Uçur uzaq ellərə,
Elə çoxdu, sanı yox.

1304. Bir sandığım var, dünyanın hər
yerindən xəbər verir.

1305. Bir sehirli fanaram,
Kibritsiz də yanaram.
Nə yerdə yox, nə göydə,
Havadan sallanaram.

1306. Bu günü adınadı,
Adnanın adı nədi,
Ağdan qara boyanmış,
Boyağın adı nədi?

1307. Qara toyuq qaqqıldadı,
Qanadları şaqqıldadı.

1308. Qaradı gözü,
Uzundu sözü.

1309. Qaraca kişi,
Əlində şişi,
Şişini əyər,
Toxumu səpər.

1310. Quş deyil, qanadı var,
Quşlardan yeyin uçar.

1311. Dağdan saldım sınmadı,
Daşdan saldım sınmadı,
Körpüdən saldım sındı.

1312. Danışaram dəmirdən,
Cavab gəlir kəndirdən.

1313. Dənizdə bir ev gördüm,
Üstündə var dam-baca.
Yeriyir yavaş-yavaş,
Tapmacadı, tapmaca.



1314. Dili var, insan deyil,
Tikişi var, şal deyil,
Yarpağı var, gül deyil.

1315. Dili yoxdu, dilləndirir,
İnsanı elmləndirir.

1316. Dolanar bütün ərzi,
Aşar dağı, dənizi.
Gəzib göydə gecələr,
Gəlib yerdə dincələr.

1317. Əlim ilə əkərəm,
Dilim ilə biçərəm.

1318. Əllərdə yeriyər,
Buraxsan dayanar.

1319. İnsan deyil, nəfəsi var,
Pələng deyil, nərəsi var.
Yeriyər dəmir üstündə,
Gah yeyin, gah da ahəstə.

1320. Yağlamışam, duzlamışam,
Qaya altda bağlamışam.

1321. Yaşıldı başı,
Tökülər yaşı.
Dalında iki qardaşı,
Qabağında al quması.

1322. Yerciyi ağdı,
Toxumu qara,
Əllə əkərlər,
Dillə biçərlər.

1323. Gedir-gedir izi yox,
Kəsir-kəsir qanı yox.

1324. Gəlirdim adam ilə,
Bir xəlbir badam ilə,
Düzülüb arpa kimi,
Danışır adam ilə.

1325. Gün çıxar axtalanar,
Qapılar taxtalanar.
Meydanə bir nər gəlmiş,
Üç yerdən noxtalanar.

1326. Gücü alır nazik teldən,
Xəbər verir hər bir eldən
Adam deyil danışır,
Atəş deyil alışır.

1327. Mən aşiqəm xam durmuş,
Bişməmişdən xam durmuş,
Yerlə göy arasında,
Gördüm bircə dam durmuş.

1328. Müşkülü müşkül açar,
Gündə bir, saatda iki,
Həftədə üç gül açar*.

1329. Nə dili var, nə ağzı
Nə tarı var, nə sazı,
Hər yerdən xəbər verər,
Oxuyar xoş avazı.

1330. O nədi ki, yeməyi benzindi,
Ayaq rezindi.

* Ərəb əlifbasının nöqtələri.



1331. O nədi ki, içində qışdır,
Çölündə bahar.

1332. O nədir ki, başın kəsməsən yeriməz.

1333. O nədir, nəfəssizdi,
Bülbüldü, qəfəssizdi.
Uçanda quş tək uçar,
Canı yox, nəfəssizdi.

1334. O tayda duran kişi,
Əlində dəmir kişi,
Bizə bir ulaq göndər.
Nə erkək, nə də dişi.

1335. O üzü qaya,
Bu üzü qaya,
Atıldım mindim
Dəryada daya.

1336. Özü qara, sözü ağ.

1337. Suda gəzər canı yox,
Boğazlasan qanı yox.
Suya atsan o batmaz,
Quruda yatsa qalxmaz.

1338. Sulu yerdə kişnər.
Susuz yerdə qışlar.

1339. Taxtadan atı,
Dəmirdən qatı.
Bəndə əlində,
Kürəkdən qatı.

1340. Uzun-uzun qayışlar,
Gedər Gəncədə işlər.

1341. Üç ata minib, özü piyada gedir*.

1342. Həvəng-həvəng içində,
Həvəngi zəng içində.
Nə yerdədi, nə göydə
Əsil firəng içində.

1343. Heç yerdə tapammadıq.
Şamda üçünü tapdıq.

* Qələmin üç barmaq ortasında tutulub yazıldığı vaxt.



# MÜXTƏLİF MÖVZULU TAPMACALAR

1344. A Yel baba, dur, gedək,
Madyanını sür gedək,
Bir qapının qıfılın
Min qapıya vur, gedək.

1345. A Yel baba, Yel baba,
Əynində məxmər əba.
Ağzın açıb-yumanda,
Od püskürər obada.

1346. A kişi-kişi,
Dəmirdən dişi,
Yeyər buğdanı,
Qalar samanı.

1347. A lalələr, lalələr,
Gümüşdən piyalələr,
Göbəyindən dən yeyər
Bel üstündən balalar.

1348. Ağ yumaq, qırmızı yumaq,
Nə vaxt gəldi bizə qonaq?

1349. Ağara-ağara
Girdi mağara.

1350. Ağac başında boxça,
Nə boxçadır, nə taxça.

1351. Ağca qoyundan,
Qara süd sağdım.

1352. Altdan yeyər,
Üstdən qusar.

1353. Altı daş, üstü daş – arasında çəmənim,
Qazanda bişən duzsuz aşımdı mənim.

1354. Altında qazan qaynar,
Üstündə ocaq yanar.

1355. Atdım yamaca,
Düşdü umaca.

1356. Atılıb-düşər,
Susuz bişər,
Qırmızı düşər.

1357. Aşıq eldən yuxarı,
Şana teldən yuxarı,
Aşıq bir şey görübdü,
Üç başı, on ayağı.

1358. Balaca quyu,
Pıqqıldar suyu.

1359. Başı iki,
Ağzı bir.
Beldə kəmər,
Doşab əmər.

1360. Başında papaq,
Əlində cida.
Qur-qur quruldar,
Nə əsgər deyil,
Nə də qurbağa.

1361. Biz bizə biz deyirik,
Siz bizə nə deyirsiz?*

*Bəzən söz oyunundan ibarət olan belə tapmacalara da çox rast gəlmək olur.



1362. Bir atım var ad eylərəm,
Ölsə, qiyamət eylərəm,
Əti yoxdu ki, kəsməyə,
Sümüyün xeyrat eylərəm.

1363. Bir belə bəsti,
Dəstəsi yastı,
Balış lanqıcı,
Ağzı fış-fışı.

1364. Bir qara qatır,
Yan üstə yatır,
Nə yemir, nə içmir,
Nəfəsin alır.

1365. Bir quyum var dayazdı,
İçi dolu bəyazdı.

1366. Bir quşum var ala-bula,
Qanadların çala-çala.
Gedər ciyər sövdasına.

1367. Bir yerdə bir çölmək var,
Durub onu bölmək var,
Səksən səkkiz çatıda
Doxsan doqquz ilmək var.

1368. Bir kişi var qara təpəni ağardır,
Ağ süpürgəni qızardır.

1369. Bir minarəm var, yonduqca yoğunlar,
Qazdıqca uzanar.

1370. Bir ustam var, gecə-gündüz bez toxuyur,
Heç kim onu geyə bilməz.

1371. Bir çanağım var, içi dolu quyruq,
Üstündə də bıçaq, nə qədər doğranır – qurtarmır.

1372. Bir cüt bulağım var, suyu şor.

1373. Biri gəlir, biri oturur, biri yatır.

1374. Bircə belə boyu var,
Dağdan ilxı endirir.

1375. Bu gün çaharşənbədi,
Qəlbimə düşən nədi?
Dəryadan tüstü qalxır
İçində bişən nədi?

1376. Bugünkü gün adnadı,
İşlər ovandınadı.
Dünya üç şey görməyib
Tap görüm adı nədi?

1377. Vurdum bir daş ləpiyə,
Buraxdım baş təpiyə,
Quyruğundan tutmasan,
Otlamaz bircə kərə.

1378. Qalın qamış içində,
Yumru xoruz çağırır.

1379. Qaməti düz
İçi əyri
Kərpici daş,
Başında tac.
Səhər-axşam
Oxur bülbül.

1380. Qara quş qanadın gərdi,
Başımın üstünə sərdi.

1381. Qəribəm, beş iyirmi,
Saymışdım beş iyirmi.



Yeddi buğda, bir salxım,
Dənəsi var beş iyirmi.

1382. Qırmızı misə dağ basdım,
Apardım bazardan asdım.

1383. Qoca kişi dağdan şələ endirir.

1384. Quyu dibində bir damla qan.

1385. Quru yerin qurbağası,
Gamış balasından böyükdür*.

1386. Dağda dülüymən gördüm
Suda süleyman gördüm
Yatar göyşər daş gördüm.
Duzsuz bişmiş aş gördüm.

1387. Dağda tappıldar,
Suda şappıldar,
Obada fərman,
Kənddə süleyman.

1388. Dağda tappıldar,
Suda şappıldar,
Aygır ölkədə,
Bozu yataqda.

1389. Dağdan gəlir dadıq suyu,
Heç kim onu dada bilməz.
Nazik toxur culfa bezi,
Heç kim onu geyə bilməz.

1390. Dağdan gəlir dadıq suyu,
Heç kim onu dada bilməz.

* Söz oyunu ilə düzəldilmiş tapmaca.

1391. Damda var qara yaylıq,
Yağışa çara yaylıq.

1392. Damda dana böyürür,
Qızlar ora yüyürür.

1393. Dınqır ələk, dınqır saz,
Əlim xəmir, qarnım ac.

1394. Dünyanı dolanar-gəzər,
Özü bir ovuc yer tutar.

1395. Evin dalı gölmədi
Xanə-xanə bölmədi.
Bir gəbəm var, rəngi bir
Səksən səkkiz ilmədi.

1396. Eləmi, bir tağda,
İki şamama bir tağda,
Hərəmiz birin üzdü,
Biri qaldı bir tağda*.

1397. Əziziyəm, nədəndir,
Çəpkəni gülbədəndir.
Kötüyünə od düşüb,
Gəlin, görək nədəndir?

1398. Əziziyəm, tək bəndi,
Vur belinə tək bəndi.
Doxsan doqquz arxın
Var başında tək bəndi.

1399. Əzizim, təpəsinə,
Aşıq çıxıb təpəsinə,

* Söz oyunu ilə düzəldilmiş tapmaca.



O kimdi çomaq vurdu,
Allahın təpəsinə*.

1400. Əzilməz,
Üzülməz,
Süfrəyə
Düzülməz.

1401. Əynində atlas,
Dənizdə batmaz.

1402. Əl çalmasan da oynar,
Odsuz-ocaqsız qaynar.

1403. Əriməz küpə,
Çürüməz küpə.
Min il qalsa da,
Çürüməz küpə.

1404. Əhədəm yüz bəlalı,
Dərd canda yüz bəlalı,
Dörd quş var bir yuvada,
Hərəsi yüz bəlalı.

1405. İlim-ilim düyməsi,
İlim xatın düyməsi,
Səksən səkkiz düymədə
Doxsan doqquz ilməsi.

1406. İki sərçənin dörd gözü,
İki çatının dörd ucu.
Oraq əyri, duz acı**.

1407. Yayda donar,
Qışda açılar.

* Söz oyunu ilə düzəldilmiş tapmaca.
** Söz oyunundan ibarət tapmaca.

1408. Yamacdan aldım,
Qazana saldım,
Düşdü umaca
Yedim doyunca.

1409. Yaşıl atlas,
İynə batmaz,
Qayçı kəsməz.

1410. Yol içində yoğun abay,
İçində cəhənnəm yanar.
Ağzın açıb zəmiyə baxar.

1411. Yük altında iki tas,
Birin qaldır, birin as.

1412. Kağıza ot bükərəm,
Tez ağzıma dürtərəm.

1413. Get o dağdan qar al gətir,
Vermənsələr də al gətir,
Ərinməmiş yağ al gətir.

1414. Göydə ulduz sanı yox,
Ay çıxıb bir yanı yox.
Başına hey döydükcə
Ağzın açar, canı yox.

1415. Gündüz gəzər, axşam gəlib bir
abbasılıq yerdə durar.

1416. Meşədə kəsdilər başın
Şəhərə atdılar leşin.
Suya saldılar, batmadı –
Oda atdılar, yandı.

1417. Mən aşiq, içi dəri,
İçinin içi dəri,



Aşıq bir loxma yeyib,
Üzü ət, içi dəri.

1418. Mən aşiqəm, bir ata,
Bir oğuldu, bir ata,
Həştad dəvə, qırx qatır
Yüklənibdi bir ata.

1419. Mən aşiqəm, bir ata,
Bir oğuldur, bir ata,
Səksən keçi, yüz qoyun,
Yüklənmişdi bir ata.

1420. Mən aşiq, təknədədirn,
Gül açıb tək, nədəndir?
Doxsan kişi, yüz arvad,
Hamısı Təknədəndir.

1421. Məni təkcə yeməzlər,
Mənsiz də xörək olmaz.

1422. Milli-milli mərcümək,
Şirin dilli mərcümək,
Aləmi gəzdi, gəldi,
Başı güllü mərcümək.

1423. Mindim törəməzi, tutdum tükənməzi,
Getdim qaltan qaza.

1424. Nazik-mazik culfa toxur,
Heç kim onu örtdüyü yox.

1425. Nə burda var, nə orda
Doludur Naxçıvanda,
Hər şeyi dadlandırır,
Halvanı bulandırır.

1426. Nə gümüşdür, nə qızıl,
Suya girər islanmaz,
Yerə düşər paslanmaz.

1427. Nəfəsi var, qanı yox,
Cəsədi var, canı yox.

1428. O yanı daş, bu yanı daş,
İçində qırx-əlli baş.

1429. O necə ağacdır ki, gündə bir yarpaq salır.

1430. O nədi tək-tək alı
Bağında tək-tək alı.
Canı var, cəsədi yox.
Nəfəsin tək-tək alı.

1431. O nədir ki, ağ gümüş,
Çəkic altda döyülmüş,
Hər tərəfi ərəbcə,
Hörüm-hörüm hörülmüş.

1432. O nədir ki, bədəni içəridə,
Başı eşikdə.

1433. O nədir ki, ildə doğar ayaqsız.

1434. O nədir ki, vurdum yerə, qalxdı göyə.

1435. O nədir ki, qarnı tox,
Kölgəsi yox.

1436. O nədir ki, qoz qabığına girər,
Qala qapısına sığmaz*.

* Söz oyunu ilə düzəldilmiş tapmaca.



1437. O nədir ki, göydən yerə sallanır,
O nədir ki, hər nə versən allanır,
O nədir ki, göbəyindən nallanır.
O nədir ki, qatarlanıb gedər hey!

1438. O nədir, mələr keçər.
O nədir, dələr keçər
Yarası yox, qanı yox.

1439. O nədir ki, hara gedər,
Oğlu qarnında fəryad edər.

1440. O nədir ki, həmişə başı üstə yeriyər.

1441. O nədir ki, çəkdikcə gödəlir.

1442. O nədir ki, cismi arıq
Ənsəsi yumru, burnu yarıq.

1443. O hansı dağdır ki, qarı əriməz.
O hansı bağdır ki, barı dərilməz.

1444. Oraq əyri, duz acı*,
İki sərçənin dörd gözü.

1445. Ocaq başında qara öküz.

1446. Sarıdı, zəfəran deyil,
Girdədir, girdəkan deyil,
Yazılıdır, Quran deyil.

1447. Səməndin ayaqları,
Əlindədir ayaqları,
Üç başı var, altı gözü,
Səkkiz onun ayaqları.

* Söz oyunu ilə düzəldilmiş tapmaca.

1448. Suda doğular,
Suda ovular.

1449. Suya girər islanmaz,
Yerə düşər paslanmaz.

1450. Tapdım bir haça,
Lazımdır saca.
Atdım kor itə
İt də lap qoca.

1451. Tap-tapmaca,
Qab atdaca.

1452. Tutdum quyruğundan,
Çıxmadı buyruğumdan.

1453. Uzun-uzuncuğum,
Gödək qılıncım,
Şədərə bürcüm,
Şəddə qurşağım.

1454. Üstü yanıb dağıldı,
Altı hələ çiy qaldı.

1455. Üstündə ocaq yanar,
Altında qazan qaynar.
Tüstüsü göyə qalxar.

1456. Üç qardaşdı – biri yatır,
Biri oturur, biri gedir.

1457. Üç qardaşdır dərədə,
Biri deyir: "Gəl gedək"
Biri deyir: " Getmirəm"
Biri başın bulayır.

1458. Xindaz-mindaz,
Yerə düşər sınmaz.



1459. Hələmə küpə, dələmə küpə,
Yüz il qalsa, çürüməz küpə.

1460. Həm misdi, həm gümüşdü,
Ortası döyülmüşdü.

1461. Həpdi-həpə,
Qızıl küpə.
Dövran ötər,
Çiçək səpər.

1462. Həri-həri həridən,
Hikmət gördüm dəridən,
Ağzı var irəlidən,
Buynuzları geridən.

1463. Həşədən, ha həşədən,
Bir səs gəlir meşədən.
Atamın beş oğlu var,
Beşi də bir peşədən.

1464. Çardaxda var iki tas,
Birin qaldır, birin as.

1465. Çöl var, çöl var, çölmək var,
Onu durub bölmək var,
Səksən səkkiz düyündə
Doxsan doqquz ilmək var.

1466. Can alıcı, cəfa qılıcı,
Yumru təpə, gümüş küpə.

1467. Şəhəri var, evi yox.
Meşəsi var, ağacı yox.
Dənizi var, suyu yox.

# BAĞLAMALAR

Sual: A hərri, hərri, hərri,
Dağda dəyirman yeri,
Quşlarda necə quşdu,
Ağzı ardınnan geri?

Cavab: A hərri, hərri, hərri,
Dağda dəyirman yeri,
Qısqanc adlı bir cücü,
Ağzı ardınnan geri.

Sual: Aşıq eldən yuxarı,
Cığa teldən yuxarı,
Quşlardan hansı quşdu,
Dizi beldən yuxarı?

Cavab: Aşıq eldən yuxarı,
Cığa teldən yuxarı,
Çəyirtgədir, eşit sən,
Dizi beldən yuxarı.

Sual: Birdən bar gətirir, birdən tökülür,
Birdən çadır qurur, birdən sökülür.
Birdən sərv olur, birdən bükülür.
Onu bilən idrak nədi, huş nədi?

Cavab: Qış, dağı qar alır, əriyir yazda,
Sularda buz donur soyuq ayazda
Ürək hərdən büküləndə az-az da
Onu bilən fəhm, kamal huş olur.



Sual: Dinləyin ustadlar xəbər sorayım:
Əlsiz sazı sizlər necə çalarsız?
Göydə ulduzlardı mənim davarım,
Sizi çoban etsəm, necə güdərsiz?

Cavab: Əgər arifsiniz, xəbər biliniz,
Əlsiz saz çalmağa kaman deyərlər.
Göy üzündəki ulduzlar üstünə, bilin
O Aydı ərənlər, çoban – deyərlər.

Sual: Zülfün ucu gümüşdür,
Sal boynuna ilişdir.
Tapmacanı tap görüm,
Yarpaqsız nə yemişdir?

Cavab: Zülfün ucu ilandır,
Sal boynuna dolandır,
Tapmacanı tapmışam,
Yarpaqsız dombalandır.

Sual: Mənə xəbər ver bir görüm, ay Cəlal,
Nə qılıncdır yaralayar gözü yox?
O nədir ki, tanrı dülgər yaratdı?
Onun amma dülgərlikdə əli yox?

Cavab: Sənə xəbər verim indi, ay dərdli,
Söz qılıncdır yaralayar, gözü yox.
Çəyirtkəni Tanrı dülgər yaratdı,
Onun amma dülgərlikdə özü yox.

Sual: Məndən salam olsun, ay ustad aşıq,
Necə quşdu dövr eləməz havada
Pərvaz olur gah səmada, zəmidə,
Gahdan abdal olur, gəzir yuvada?

Cavab: Al cavabın deyim, ay Humay xanım,
Könül quşu dövr eləməz havada,

Pərvaz olsa gah səmada, zəmidə,
Sinə qəfəsdi də ona, yuva da.

Sual: Məndən salam olsun, Aşıq Hüseynə,
O nədi ki, ömrü bir il, yaşar hey?!
Nə kalamdı, mürəkkəbsiz yazılar,
O nədi ki, gündən-günə coşar hey?

Cavab: Al cavabın deyim, ay keşiş qızı,
Səməndərdi o, bircə il yaşar hey.
O könüldü mürəkkəbsiz yazılar.
Eşq dəryası gündən-günə coşar hey.

Sual: Neçə dağ üstündə yolları aşıb,
Neçə mənzillərdə karvanı düşüb,
Neçə qazanlarda xörəyi bişib?
Neçə məcməyidə payı var olur?

Cavab: Yeddi gün üstədi, yolları aşır.
On iki mənzildi, karvanı düşür.
Dörd fəslin qazanda xörəyi bişir,
Üç yüz altmış gündə payı var olur.

Sual: Nə ağacdır budaqları on iki,
Hər budaqda neçə yarpaq yek-yeki.
Hasilə gələndə meyvəsi iki.
Biri ağdır, biri qara – deyirlər.

Cavab: Ağac ildir, ay budağı on iki,
Hər budaqda otuz yarpaq yek-yeki,
Hasilə gələndə meyvəsi iki –
Gündüz ağdı, gecə qara – deyərlər.

Sual: Neylə cəm olubdu sözün hesabı,
O nədir ki, ahəng tutmaz tabını,
O nə şeydi mən görmüşəm abını,
Həm istidi, həm sərindi dahana.



Cavab: Ağlıma cəm olub sözün hesabı,
Eşq oduna dəmir gətirməz tabı,
Samavar qaynadar odunan abı,
İsti, sərin ləzzət verər dahana.

Sual: O kim idi, kəsdi onu yağılar?
O nədir ki, doğmaz özü – doğular?
O nədir ki, altı ayaqları var?
O nədir ki, göz yerində gözü yox?

Cavab: Nəsimidi kəsdi onu yağılar,
O qatırdı özü doğmaz, doğular,
Tərəzidir, altı ayaqları var.
Cüt başlıdır, göz yerində gözü var.

Sual: O kim idi, kimdən xof edib qaçdı?
Neçə yüz il onlar xabə ulaşdı,
O kim idi, onlar ilə qarışdı?
Söylə görüm, nədi ismi-bəyanı?

Cavab: Dağyanus padşahdan xof edib qaçdı,
Üç yüz altmış il xabə ulaşdı.
O qıtmır idi, onlara qarışdı.
Ol əshabül-kəhfin ismi-bəyanı.

Sual: O kimdi ki, geyinmişdi ağları?
O kim idi, dolanırdı dağları?
O kim idi, bəziyibdi tağları?
O kim idi, onun gülün üzər hey?

Cavab: O Leylidi geyinibdi ağları,
O Məcnundu dolanırdı dağları,
O Yusifdi bəzəyibdi tağları,
Züleyxadı hər busatın düzər hey.

Sual: O kimdi ki, otuzunda cavandı,
On beşində çox böyükdü, uludu?

O nədi ki, dili iki, sözü bir?
O hansı dəryadı, hər dəryadan doludu?

Cavab: O aydı ki, otuzunda cavandı,
On beşində ululardan uludu.
O qələmdi dili iki, sözü bir,
Elm dəryası hər dəryadan doludu.

Sual: O nə şeydir: dili yoxdur – danışar?
Nə qumaşdı satmaq olmaz, alalar?
O nədi ki, dimdiyindən balalar?
O nədi ki, baldırında balı var?

Cavab: O könüldür, dili yoxdu danışar.
Ağıl qumaş satmaq olmaz, alalar;
O arıdı, dimdiyindən balalar.
O biryandı: baldırında balı var.

Sual: O nədi ki, bir həftədə açılar,
Ay tamamda dənələnib seçilər,
Üç ayın ərzində durmaz tökülər,
Bunu tapan olur aqil, huşiyar.

Cavab: Alma bir həftədə gül tək açılar.
Ay tamamda dənələnib biçilər,
Üç ayın vaxtında durmaz tökülər,
Bunu tapdım, oldum aqil, huşiyar.

Sual: O nədi ki, qışda dağlar bürünür?
O nədi ki, əl dəyməmiş hörülür?
O nədi ki, əmanətən verilir?
O nədi ki, o da onun gülüdür?

Cavab: O qardı ki, qışda dağlar bürünür,
O könüldü, əl dəyməmiş hörülür,
O ruhdu ki, əmanətən verilir,
O ilqardı, diriliyin gülüdür.



Sual: O nədi ki, dayanıb dayaqsız?
O nədi ki, boyanıbdı boyaqsız?
O nədi ki, doğar əlsiz-ayaqsız?
Üç ay keçər ayağı var, əli var.

Cavab: Göy bir çadır dayanıbdı dayaqsız,
Ayla gündü, boyanıbdı boyaqsız,
Qurbağadır, doğar əlsiz-ayaqsız,
Üç ay keçər – ayağı var, əli var.

Sual: O nədi ki, ildə bir qıya çəkər,
Qıyasında yüz min nahaq qan tökər.
Nə qaladı girmək olmaz içinə?
İçində də altmış altı qan olu?

Cavab: Səməndər quş ildə bir qıya çəkər,
Qıyasında yüz min nahaq qan olu.
Bəndən qala, girmək olmaz içinə,
İçində də altmış altı qan olu.

Sual: O nədi ki, gecə-gündüz laxlıyar?
O nədi ki, hər nə versən saxlıyar?
O nədi ki, kişiləri haxlıyar?
Ustad isən bundan mənə cavab ver.

Cavab: O geyimdir gecə-gündüz laxlıyar.
O torpaqdı, hər nə versən saxlıyar.
O bilikdi kişiləri haxlıyar.
Al cavabın, usta, söylə başqasın.

Sual: O nədi ki, lalə onu bürüməz,
O nədi ki, yay-qış qarı əriməz,
O kimdi ki, çox-azca xərc eləməz
İnsan ilə fitnə quran feli var.

Cavab: Tur dağıdı, onu lalə bürüməz,
Şah dağıdı, yay-qış qarı əriməz.

O şeytandı, çox-azca xərc eləməz,
İnsan ilə fitnə quran feli var.

Sual: O nədi ki, mələr keçər?
O nədi ki, gələr keçər?
O nədi ki, dələr keçər?
Yarası çox, qanı olmaz?

Cavab: O güllədi, mələr keçər,
O ömürdü, gələr keçər,
Yaman sözdü, dələr keçər,
Yarası çox, qanı olmaz.

Sual: O nədi ki, nəfəsi var, canı yox?
O nədi ki, bədəni var, qanı yox?
O kimdi ki, onun din-imanı yox?
O nədi ki, od-atəşsiz daşar hey.

Cavab: O görükdü – nəfəsi var, canı yox.
O arırdı – bədəni var, qanı yox,
O şeytandı, onun din-imanı yox,
O zəm-zəmdi od-atəşsiz daşar hey.

Sual: O nədi ki, özü vardı, səri yox?
O nədi ki, ildə doğar, əri yox?
O nədi ki, qanadı var, pəri yox?
O nədi ki, qanadında xalı var?

Cavab: Soxulcandı, özü vardı, səri yox,
O ağacdı, ildə doğur, əri yox.
Yarasadı, qanadı var, pəri yox.
Kəpənəkdi, qanadında xalı var.

Sual: O nədi ki, özü vardı, zatı yox?
O nədi ki, tikişi yox, qatı yox?
O nə şeydi: dəvəsi yox, atı yox.
Uzun gedər, bir tükənməz yolu var?



Cavab: O kölgədi, özü vardı, zatı yox!
O göydür ki, tikişi yox, qatı yox.
O gün, aydı, dəvəsi yox, atı yox!
Uzun gedər, bir tükənməz yolu var.

Sual: O nədi ki, səhər-səhər çox olur?
O nədi ki, gün varanda yox olur?
O nədi ki, yonulmamış yox olur?
O nədi ki, kədərlənmiş gedər hey?

Cavab: O buluddu, səhər-səhər çox olur.
O güldü ki, gün varanda yox olur.
O kirpikdi yonulmamış ox olur.
O qaş-gözdü, kədərlənmiş gedər hey.

Sual: O nədi ki, haq yanında nahaqdı?
O nədi ki, yerə-göyə dayaqdı?
O kimdi ki, yatmayıbdı oyaqdı?
Xəstə Qasım hər elmdən halıdı.

Cavab: Böhtan sözdü, haq yanında nahaqdı
Haq nəzəri yerə, göyə dayaqdı.
Haq özü yatmayıbdı oyaqdı.
Bu sözlərdən Ləzgi Əhməd halıdı.

Sual: O nədi ki, haqdı çıxmaq olmaz əmrdən,
O nədi ki, gələr-keçər ömürdən?

Cavab: O ömürdü, gələr keçər, çıxmaq olmaz əmrdən,
O ay-gündü gələr-keçər ömürdən.

Sual: O nədir ki, alçaq yerdən axır hey,
O nədi ki, yerdən göyə baxır hey,
O nədi ki, nərdivanla çıxır hey.
O nədi ki, nərdivandan enir hey.

Cavab: O sudu ki, alçaq yerdən axır hey,
O uşaqdır yerdən göyə baxır hey.
O cahildir nərdivanla çıxır hey,
O gərdişdir nərdivandan enir hey.

Sual: O nədi ki, görür bütün cahanı,
O nədi ki, dəyişdirir havanı?
O nədi ki, nə canı var, nə qanı,
Ləhcə vurub öz-özünə danışır.

Cavab: O günəşdi görür bütün cahanı,
Fəsillərdi, dəyişdirir havanı.
Radiodu nə canı var, nə qanı,
Ləhcə vurub öz-özünə danışır.

Sual: Səndən xəbər alım, ay Aşıq Alı,
O nədi ki, onda dürlü hal olur?
O cahana, cahan ona dolanır,
Dəstəyə düzülüb dalbadal olur?

Cavab: Al cavabın deyim, ay Əsmər xanım,
O bir ildi onda dürlü hal olur.
O gün hesabıdı namə üstədir,
Həftələr düzülüb dalbadal olur.

Sual: Səndən xəbər alım: ay Xəstə Qasım,
Nə şəhərdi, yerdən ərşə yolu var?
O nə qurtdu, quzularınan gəzər,
Qurt quzunu yeyə bilməz feli var.

Cavab: Sənə xəbər verim: ay Ləzgi Əhməd,
Köül bir şəhərdi, ərşə yolu var,
Mömin o quzudu, şeytan isə qurt,
Qurt quzunu yeyə bilməz feli var.

Sual: Səndən xəbər alım, ay dədə Qasım,
O nədi ki, dürlü-dürlü halı var?



Nədən hasil oldu, ərşin arqacı?
O nədi ki, toxunmamış xalı var?

Cavab: Sənə cavab verim, ay Ləzgi Əhməd,
Bahardı ki, dürlü-dürlü halı var.
Nurdan xəlq olundu ərşin arqacı
O buluddu toxunmamış xalı var.

Sual: Usta bilirmisən elmin başını,
Nə ilə kəsərlər gözün yaşını?
O nədir ki, kəsər özü başını?
Bunu bilən aşıq ustad olmuşdur.

Cavab: Səbirdə bilərlər elmin başını,
Təvəkküldü kəsər gözün yaşını.
Buludlardı kəsən özü başını,
Bunu bilən ustad aşıq olmuşdur.

# CAVABLAR

1. Sübh çağı
2. Ay, gün
3. Qar
4. Çay
5. Su
6. Bulud
7. Yel
8. Günəş
9. Damcı
10. Yağış
11. Baca, od, tüstü
12. Günəş
13. Günəş şüası
14. Yol
15. Həftə günləri
16. İldırım, dolu
17. Günəş
18. Külək
19. Yer
20. Göy, ulduzlar
21. Göy, ulduzlar
22. İl, ay, gün
23. Qar
24. Göy gurultusu
25. Duman
26. Yay, qış[1]
27. Ulduzlar
28. Göy, yol, ulduzlar
29. Buz
30. İl, aylar, günlər, gecə, gündüz
31. Çay
32. Körpü altından axan su
33. Gecə və gündüz
34. Ay
35. Günəş
36. Od
37. Ulduzlar, Ay
38. Od
39. Yer
40. Fəsillər
41. Qor və ya od dənəsi
42. Ulduzlu səma və ya Yer
43. Ay, Günəş
44. Ulduz
45. Su, daş, ot
46. Tüstü, kül
47. Günəş
48. Günəş[2]
49. Ay
50. Şimşək
51. Tüstü
52. Tüstü
53. Günəş
54. Gecə
55. Buxarıda yanan ocaq
56. Bulud, göy gurultusu
57. Ulduzlu səma
58. Gecə və ulduzlar
59. Qar
60. Günəş, Ay
61. Od, tüstü
62. Gecə-gündüz
63. Od
64. Sel
65. Yel, sel
66. Çay
67. Qar
68. Külək, sel
69. Çay
70. Göy gurultusu, dolu
71. Dolu
72. İl
73. Səma, Günəş
74. Alov

[1] Bu tapmacanın cavabı bəzi rayonlarda *Ay və gün* kimi qeyd edilir.
[2] Tapmacanın *taxıl, su, Ay* və sairə cavabları da vardır.



75. Odun, kül, tüstü, od[1]
76. Qar və Günəş
77. Həftə və gün
78. Göy, bulud, yağış, Yer
79. Bulud, Yer[2]
80. Külək
81. Şaxta
82. Külək
83. Buz
84. Yer
85. Yer, göy
86. Od, tüstü
87. Od, tüstü
88. Yol
89. Qar
90. Günəş
91. Su
92. Su
93. Torpaq
94. Qar
95. Bulaq
96. Dəniz, çaylar
97. Ay
98. Günəş
99. Sel-su
100. Su
101. Su
102. Yağış
103. Yağış
104. Günəş
105. Bulud
106. Ayın, günün batması
107. Qar, Günəş
108. Yağış[3]
109. Dolu
110. Yağış
111. Qar
112. Şüa
113. Ulduzlar
114. Çay
115. Bulud
116. Ulduzlar
117. Göy
118. Günəşli göy
119. Ay
120. Yol
121. Göy, Yer, Ulduz, Ay
122. Buz
123. Damcı
124. Qar
125. Yel
126. Göy, Yer
127. Körpü altdan keçən çay
128. Fəsillər
129. Gecə, gündüz
130. Ay
131. Dünya, yel və dərya
132. Qış və yaz adlı gəlin
133. Yağış
134. Ulduz
135. Dan ulduzu
136. Su
137. Damcı
138. Bulud
139. Leysan
140. Günəş
141. Günəş
142. Çayları udan dəniz
143. Ulduz, səma
144. Gecə-gündüz
145. Buz
146. Ay
147. Günəş
148. Tüstü
149. Duman
150. Dolu
151. Günəş
152. Damcı

[1] Bu tapmacanın bir cavabı da *buğda və saman*dır.
[2] Bu tapmacanın başqa bir cavabı *at və onu əmən qulun* mənasında işlənir.
[3] Tapmacanın əsl mənalarından birisi *ad*dır.

153. Qış, yay
154. Günəş
155. Buz
156. Ay işığı
157. Ulduzlar
158. Ay işığı, göy qurşağı
159. Dəniz
160. Duman
161. Su
162. Yol
163. Yol
164. Tüstü
165. Dağ
166. Külək
167. Yağış, yel, Günəş
168. Fəsillər
169. Ulduzlar
170. Günəş
171. Daş
172. Həftənin günləri
173. Buz, qar
174. Çay
175. Tüstü
176. Tüstü
177. Ay, ulduzlar
178. Tonqal, ocağın əvvəlcə sakit, sona yaxın yırğalana-yırğalana yanması
179. Günəş
180. Boyaq kökü
181. Pambıq
182. Qızılgül
183. Sumaq[1]
184. Zəfəran
185. Pambıq
186. Gülburnu
187. Xına
188. Sulu qəlyandakı tənbəki
189. Xına
190. Limon
191. Qızılgül
192. Zəfəran
193. Məxməri gül
194. Qızılgül
195. Lalə
196. Limon
197. Xaş-xaş
198. Mixək gülü
199. Zəfəran
200. Tütün
201. Xına
202. Pambıq
203. Zəfəran
204. Pambıq
205. Yarpaq
206. Yarpaq
207. Söyüd ağacı
208. Bağ
209. Ağac
210. Ağac yarpağı
211. Ağaclar
212. Ağac
213. Lobya
214. Kələm
215. Soğan
216. Bibər
217. Çuğundur
218. Turp
219. İstiot
220. Qabaq
221. Badımcan
222. Qarpız
223. Qarpız vətağı
224. Qabaq
225. Kələm
226. Kartof
227. Kələm
228. Şamama
229. Kələm
230. Turp

[1] Bu tapmacanın başqa bir cavabı da *xına*dır.



231. Kələm
232. Soğan
233. Çuğundur
234. Soğan
235. İstiot
236. Kələm
237. Qarpız
238. Çuğundur
239. Soğan
240. Kök
241. Qarpız
242. Kartof
243. Qarpız
244. Xiyar
245. Xiyar tumu
246. Sarımsaq
247. Kələm
248. Boranı
249. Balqabaq
250. Xiyar
251. Qabaq, yemiş
252. Soğan
253. Qarpız
254. Qarpız
255. Xiyar, badımcan
256. Qarpız
257. Balqabaq, qarpız
258. Boranı
259. Soğan
260. Xiyar
261. Böyürtkən
262. Alma
263. İydə
264. Əzgil
265. Qara əncir
266. Zoğal
267. Alma
268. Fındıq
269. Əncir
270. Əzgil
271. Xurma
272. Heyva
273. Şaftalı
274. İydə
275. Əzgil
276. Fındıq
277. İydə
278. Heyva
279. Nar
280. Əncir
281. Püstə
282. Yaşıl qabıqlı qoz
283. Şabalıd[1]
284. Əncir qaxı
285. Qoz ağacı
286. İnnab
287. Zoğal
288. İydə
289. Əncir
290. İydə
291. İydə
292. Şaftalı
293. Püstə
294. Qoz
295. Qoz qərzəyi
296. Çiyələk
297. Zoğal
298. Şabalıd
299. Çiyələk
300. Nar
301. Qoz
302. Qoz ağacı, qoz qabığı, ləpəsi
303. Tənək, yarpağı, üzüm, çaxır
304. İydə
305. Qoz ləpəsi
306. Nar
307. Üzüm
308. Şaftalı
309. Çiyələk
310. Badam

[1] Tapmacanın digər cavabı *bibar*dır.

311. Şabalıd
312. Tənək
313. Böyürtkən
314. Şaftalı
315. Nar
316. Nar
317. Tut
318. Qoz
319. Qoz
320. Əncir
321. Qoz
322. Albalı
323. Püstə
324. Böyürtkən
325. Püstə
326. Fındıq
327. Moruq
328. Qara tut
329. Fındıq, şabalıd
330. Üzüm
331. Xurma
332. Xurma
333. Böyürtkən
334. İydə
335. Əncir
336. Şaftalı
337. İydə
338. Qoz
339. Üzüm
340. Nar
341. Armud
342. Çiyələk
343. Badam[1]
344. Çiyələk
345. Fındıq
346. Əzgil
347. Xurma
348. Əncir
349. Böyürtkən
350. Göbələk
351. Düyü
352. Xaşxaş
353. Xaşxaş
354. İtburnu
355. Düyü
356. Düyü
357. Sarmaşıq
358. Lobya
359. Taxıl
360. Lobya
361. Süpürgə
362. Qarğıdalı
363. Taxıl
364. Sumaq
365. Buğda
366. Darı
367. Tuğ süpürgəsi
368. Gicitkən
369. Göbələk
370. Çəltik
371. Göbələk
372. Göbələk
373. Yonca
374. Lobya
375. Qarğıdalı, tuğ süpürgəsi
376. Darı
377. Yovşan süpürgəsi
378. Süpürgə
379. Toxum
380. Buğda və saman
381. Arpa
382. Göbələk
383. Buğda
384. Qaratikan
385. Qarğıdalı
386. Süpürgə

[1] Bu tapmacanın *limon, portağal* kimi başqa cavabları da vardır.



387. Sünbül və oraq[1]
388. Donbalan, yer alması
389. Üzərlik
390. Buğda[2]
391. Qarğıdalı
392. Sarmaşıq
393. Günəbaxan
394. Günəbaxan tumu
395. Süpürgə
396. Göbələk
397. Qarğıdalı
398. Taxıl
399. Süpürgə
400. Göbələk
401. Lif
402. Göbələk
403. Gicitkən
404. Gicitkən
405. Buğda
406. Qarğıdalı
407. Buğda
408. Qarğıdalı
409. Düyü
410. Qamış[3]
411. Sarmaşıq
412. Qarğı dəstəsi
413. Qarğıdalı
414. Göbələk
415. Taxıl
416. Çəltik
417. Üzərlik
418. Qarğıdalı qamışı
419. Xaşxaş
420. Xaşxaş[4]
421. Küncüt
422. Pişik
423. Koramal
424. Keçi
425. Maral
426. Canavar
427. İlan
428. Balıq
429. Meymun
430. Qurbağa
431. İt
432. Qoyun
433. Tısbağa
434. Tısbağa
435. İlan, ilbiz
436. Kirpi
437. Quzu
438. Dəvə
439. İlan
440. Canavar
441. Şir
442. Ayı
443. İlan
444. Balıq
445. Siçan və pişik
446. Kirpi
447. Siçan
448. Fil
449. Balıq
450. Dəvə[5]
451. Maral buynuzu
452. Ayı
453. Kərtənkələ
454. Dəvə
455. Balıq
456. Qoç
457. Dovşan
458. Siçan
459. Donuz, it, qoyun, inək döşləri
460. Pişik

[1] Bu tapmacanın da bir neçə mənası vardır; onlardan biri də *yağış*dır.
[2] Bu tapmacanın *Günəş, su* və sairə cavabları vardır.
[3] Tapmacanın digər cavabı *oxlov*dur.
[4] Bu tapmacanın *qabaq, gəbə* və s. cavabları da mövcuddur.
[5] Tapmacanın bir cavabı da *çətən*dir.

461. Qatır
462. Siçan
463. Kirpi
464. Dəvə
465. Kirpi
466. Qurbağa
467. Siçan
468. İlan
469. Kərtənkələ
470. İlan
471. Porsuq
472. Koramal
473. Pişik
474. Dovşan
475. Balıq
476. Canavar
477. İnək
478. Balıq
479. İlan
480. Tısbağa
481. Ceyran
482. Dəvə
483. Kirpi
484. Kərtənkələ
485. Camış
486. Tısbağa
487. Küçük
488. Qoyun
489. İt
490. Tısbağa
491. Qurbağa
492. Dovşan
493. İlan
494. Kirpi
495. Qoyun
496. Canavar
497. Keçi
498. Tısbağa
499. Keçi
500. Keçi
501. Koramal
502. Qurbağa
503. Porsuq
504. Balıq
505. Qurbağa
506. Qurbağa
507. Qatır
508. Siçan və pişik
509. Kirpi
510. Siçan
511. Qatır
512. İlan
513. Tısbağa
514. Qoyun
515. Balıq
516. Tısbağa
517. Balıq
518. Tısbağa
519. Ceyran
520. Siçan
521. Çöl donuzu
522. Balıq[1]
523. Canavar, it, çoban, qoyun
524. Kərtənkələ
525. Kəklik
526. Sağsağan
527. Qaranquş
528. Cücə
529. Toyuq-cücə[2]
530. Qaranquş
531. Xoruz
532. Yarasa
533. Xoruz
534. Bayquş
535. Durna
536. Yarasa
537. Durna
538. Kəklik
539. Kəklik
540. Qızılquş

[1] Bu tapmacanın *xaş-xaş, qabaq, xalça* və s. cavabları da vardır.
[2] Bir mənası da *ulduz*dur.



541. Xoruz
542. Quş
543. Sağsağan
544. Quş
545. Xoruz
546. Ördək
547. Yarasa
548. Cücə
549. Gecəquşu
550. Xoruz
551. Xoruz
552. Yarasa
553. Yarasa
554. Xoruz
555. Sığırçın, ağacdələn
556. Yarasa balası
557. Cücə
558. Yarasa
559. Xoruz
560. Toyuq
561. Xoruz
562. Sağsağan
563. Ördək
564. Cücə
565. Yarasa
566. Yarasa
567. Çəyirtkə
568. Zəli
569. Xərçəng
570. Hörümçək
571. Arı
572. Baramaqurdu
573. Zəli
574. Arı
575. Kəpənək[1]
576. Çəyirtkə
577. Zəli
578. Kəpənək
579. Dozanqurdu
580. Atlı qarışqa
581. Barama[2]
582. Bal arısı
583. Birə
584. Baramaqurdu
585. Pərvanə
586. Barama
587. Qarışqa və yuvası
588. Hörümçək
589. Arı
590. Gənə
591. Qarışqa
592. İpəkqurdu
593. Dişqurdu
594. Bal arısı
595. Çəyirtkə
596. Ağcaqanad
597. Milçək
598. Kəpənək
599. Kəpənək
600. Ağcaqanad
601. Arı
602. Milçək
603. Bal arısı
604. Qarışqa
605. Barama
606. Əqrəb
607. Hörümçək
608. Arı
609. Arı pətəyi
610. Bal arısı
611. Əqrəb
612. Arı
613. Arı
614. Arı
615. Zəli
616. Bal arısı və pətəyi
617. Qarışqa
618. Qarışqa[3]

[1] Tapmacanın *su, iynəcə* və s. cavabları da vardır.
[2] Cüzi dəyişikliklə tapmacanın *çətən, qarğı, əncir qurusu* kimi cavabları vardır.
[3] Tapmacanın başqa cavabı *yer altından axan su*dur.

619. Qarışqa
620. Arı
621. İlbiz
622. Dişqurdu
623. Bal arısı
624. Dişqurdu
625. Kəpənək
626. Baramaqurdu
627. Qarışqa
628. İlbiz
629. Baramaqurdu
630. Kəpənək
631. Pərvanə
632. Kəpənək
633. Arı
634. Qarışqa, dəvə
635. Kəpənək
636. Qarışqa
637. Arı
638. Arı
639. Kəpənək, arı
640. Bal arısı
641. Arı
642. Çibin
643. Qarışqa
644. Arı
645. Qoyun quyruğu
646. Qatıq, qurd
647. At nalı və mıxları
648. Qatıq
649. Süd
650. Südün qaymağı
651. Yumurta
652. Süd
653. Motal
654. Yumurta
655. Yumurta
656. Bal
657. Nal
658. Yumurta
659. Yəhər
660. Sağıcı, inək və buzov
661. Yumurta
662. Yəhər, cilov, sinəbənd, üzəngilər, quşqun
663. At və peyini
664. Motal
665. İnək buynuzları
666. Maral buynuzu
667. Yumurta
668. Buxov
669. Qoyun südünün sərnicə sağılması
670. Quyruq
671. Qoyun əmcəyi
672. Yumurta qabığı
673. Qoyun yunu
674. Pendir
675. Dələmə
676. Maral buynuzu
677. Arı pətəyi və bal
678. Süd
679. Qara toyuq yumurtası
680. Öküz quyruğu
681. Maral buynuzu
682. Toyuq pətənəsi
683. Qoyun quyruğu
684. İnəyin südü sərnicə sağılarkən
685. İnəyin dövşləri
686. Atın ayaqları və quyruğu
687. Şan, bal
688. İt yalağı
689. Qurut
690. Maral buynuzu
691. At ayağına vurulan buxov
692. Qoyun sağılarkən
693. İnəyin dili və burnunun deşikləri
694. Qurud
695. Yumurta
696. İnək döşləri
697. Keçi buynuzu
698. Qaymaq
699. Motal
700. Yumurta
701. Nehrə yağı



702. Yəhər
703. Süd, yağ
704. İt, inək, qoyun əmcəkləri
705. Buxov
706. At quyruğu
707. Kərəməz, kəsmik
708. Mal peyini
709. Pətəkdə bal
710. Maral buynyzu
711. Yumurta
712. Balıq kürüsü
713. Yeni doğulmuş körpə
714. Əl
715. Göz
716. Dil
717. Dil
718. Qara göz
719. Dodaq
720. Göz
721. Ürək
722. Övlad
723. Ağız
724. Əmcək
725. Əl
726. Əl və barmaqlar
727. Ağız və barmaqlar
728. İnsan dişləri
729. Saqqal
730. Bilək, barmaqlar və dırnaqlar
731. Adam qolu
732. Əl
733. Göz, burun, qulaq, ağız suyu
734. Kəllə
735. Ürək
736. Ağız və dişlər
737. Ağızda dişlər
738. Övlad, beşik, ana döşü
739. Dil
740. Burun
741. İnsan dərisi
742. Ayaqlar
743. Dil
744. Ağız
745. Dil
746. Ana südü
747. Ağızda dişlər
748. Baş tükünün qırxılması
749. Burun
750. Baş, gözlər, qulaqlar, burun və ağız
751. Göz
752. Dil
753. Dişlər
754. Ağız və dil
755. Baş və tüklər
756. Dişlər
757. Kirpiklər
758. Ayaqlar və çəkmə
759. Dil, göz, qulaq
760. Uşaq
761. Ayaq
762. Beşikdə körpə
763. Göz
764. Baş tükünün ağarması
765. Göz
766. Ayaqlar və çəkmə
767. Göz
768. Baş, qaş, göz, burun
769. Damaq və dişlər
770. Damaq və diş
771. Dil, dodaq, diş
772. Ağız, dil
773. Uşaq
774. Qaş
775. Uşaq
776. Diş
777. Gözlər
778. Ana südü
779. Körpə, cavan, qoca
780. Əlin barmaqları və buğumları
781. Yeni doğulmuş uşaq
782. İnsan bədəninin tükü
783. Göz
784. Ana bətnində uşaq
785. Əl və ayaq dırnaqları
786. Əl

787. Əl və barmaqlar
788. Qulaqlar
789. Dil
790. Burun
791. Göz
792. Göz
793. Adam başı
794. Ağız, dil və diş
795. Adam
796. Ürək
797. Əl
798. Qulaq
799. Ağız, qulaq, göz
800. Ana bətnində uşaq
801. Dil
802. Beşikdə uşaq
803. Göz yaşı və saç
804. Ana
805. Burunun altı
806. Dil
807. Gözlər
808. Kirpiklər və qaş
809. Ayaqlar
810. Göz
811. Uşaq, gənc və qoca
812. Qulaq
813. Boğazın damarları və boğazın yolu
814. Dırnaq
815. Dişlər və dil
816. Göz
817. Baş və tüklər
818. Arvad
819. Saç
820. Uşaq
821. Ağız, qulaq, göz
822. Diş
823. Uşaq və ana südü
824. Uşaq və beşik
825. Dodaq, diş, ağız, qarın
826. Qol, barmaqlar, ovuc
827. Qıçlar, bədən, baş və saç
828. Saqqal və xına
829. Dırnaq
830. Diş
831. Saqqal, tük
832. Diş[1]
833. Papaq
834. Kəmər
835. Papaq
836. Başmaq
837. Kəlağayı
838. Məst
839. Çarıq
840. Başmaq
841. Məst
842. Üzük
843. Üzük
844. Köynək
845. Qızıldan bəzək şeyləri
846. Sırğa
847. Qurşaq
848. Çarıq
849. Papaq
850. Sırğa
851. Çarıq
852. Ayaqqabı
853. Sırğa
854. Qızıl[2]
855. Üzük
856. Əlcək
857. Çarıq
858. Mərcan
859. Çəkmə
860. Ayaqqabı
861. Başmaq
862. Qurşaq
863. Məst
864. Cavahirat
865. Papaq

[1] Tapmacanın digər cavabı *dəvə karvanıdır*.
[2] Tapmacanın bir cavabı da *yaxşılıq və pislikdir*.



866. Qızıl üzük
867. Şalvar
868. Üzük
869. Qızıldan bəzək şeyləri
870. Brilyant
871. Ayaqqabı
872. Çadır
873. Dəyə
874. Gecə
875. Çətən
876. Qapının dəstəyi
877. Buxarı
878. Divar
879. Qapı
880. Alaçığın çətəni
881. Dəyənin çubuqları
882. Gecə
883. Sütun
884. Dəyə
885. Qapı
886. Baca
887. Novdan
888. Tağ
889. Qapının tayları
890. Tüstü və baca
891. Pəncərə
892. Dəyə
893. Qapının tayları
894. Qapı
895. Yük yeri
896. Evdəki dirəklərin arası
897. Baca
898. Pəncərə
899. Baca
900. Ev, dam
901. Keçə
902. Evin dirəkləri
903. Divar, tir, baca
904. Qapı
905. Gecə
906. Baca
907. Pəncərə
908. Dəyə[1]
909. Beşik
910. Nərdivan
911. Şam
912. Süzülən düyü və sini
913. Tərəzi
914. Nehrə ilə yağ hasili
915. Çanaq, təknə
916. Güzgü
917. Tərəzi
918. İynə, sap
919. Həvəngdəstə
920. Tərəzi
921. Beşik
922. Soba
923. İynə
924. Qayçı
925. Lampa
926. Ələk
927. Həvəng
928. Sərnic
929. Həvəngdəstə
930. Daraq
931. Yorğan-döşək
932. Balta
933. Tərəzi
934. Nehrə
935. Samovar
936. Biz
937. Qayçı
938. İynə
939. Cəhrə
940. Qayçı
941. Lampa
942. Güzgü
943. Samovar
944. Maşa
945. Həvə
946. Daraq
947. Bıçqı

[1] Tapmacanın *dəvə, diş, çətən* və başqa cavabları da vardır.

948. Yun təmizləyən daraq
949. Stol
950. Cəhrə
951. Məcməyi
952. Aşsüzən
953. Çıraq
954. Kəfgir
955. Parç
956. Lampa
957. Lampa
958. Sacayaq
959. Məfrəş
960. Saat
961. Səhəng
962. Sac
963. Üskük
964. Kibrit qutusu
965. Neft
966. Lampa
967. Qıfıl
968. Sac
969. Tiyan
970. Dolça
971. Saat
972. Qazan
973. Ələk, un
974. Sacayağı və qazan
975. Güzgü
976. Cəhrə
977. Ələk
978. Xəlbir
979. Cəhrə
980. İynə
981. Qaşıq
982. Corab sülüsü
983. Cəhrə
984. Aşsüzən
985. Çuvalduz iynəsi və sap
986. İynə
987. Qıfıl
988. Qıfıl
989. Qazan
990. Qıfıl
991. Sac
992. Qıfıl
993. Sac
994. Qıfıl
995. Sandıq
996. Sandıq
997. Sac
998. Nehrə
999. Saat
1000. Samovar
1001. Kibrit qutusu
1002. Qaşıq
1003. Lampa
1004. Yumaq
1005. Qayçı
1006. Həvə
1007. Sənək
1008. Çaxmaq, qov
1009. Saat
1010. Qıfıl və açar
1011. Tərəzi
1012. Stol
1013. Ələk
1014. Yuxa yayılan və oxlov
1015. Cəhrə
1016. Qayçı
1017. Tərəzi
1018. Cəftə
1019. Aşsüzən
1020. Beşik
1021. Xalça
1022. Nəzbalış
1023. Qazan və xörək
1024. Ələk
1025. Üskük
1026. Saat
1027. Açar, qıfıl
1028. Qayçı
1029. Xana
1030. Çıraq
1031. Cəhrə



1032. Girvənkə
1033. Güzgü[1]
1034. Cəftə
1035. Yorğan-döşək
1036. Yorğan-döşək
1037. Saat
1038. Biz
1039. Lampa
1040. Yorğan-döşək
1041. Lampa
1042. Nərdivan
1043. Corab toxuyan iynələr
1044. Aftafa
1045. Güzgü
1046. Açar
1047. Güzgü
1048. Tərəzi
1049. Samovar
1050. Cəhrə
1051. Nənni, beşik
1052. Nehrə
1053. Təndir
1054. Stol
1055. Şiş
1056. Tərəzi
1057. Gil, lampa və piltəsi
1058. Lampa, neft, piltə, işıq
1059. Ələk
1060. Lampa
1061. Samovar
1062. Üskük
1063. Saat və əqrəbləri
1064. Saat
1065. Çıraq
1066. Saplanmış iynə
1067. İynə
1068. Şam və piltəsi
1069. Samovar
1070. Qəndqabı
1071. Səhəng
1072. Samovar
1073. Cəhrə
1074. Samovar
1075. Səhəng
1076. Samovar
1077. Piltə
1078. Saat
1079. Gəbə
1080. Qayçı
1081. Şam
1082. Oxlov
1083. Oxlov
1084. Oxlov
1085. Peç trubası
1086. Oxlov
1087. Paltar asılan kəndir
1088. Çıraq
1089. Diyircək
1090. Corab mili[2]
1091. Ocaqda sacayaq
1092. Cəhrə
1093. Açar
1094. Güzgü
1095. Xalça
1096. Nənni-beşik
1097. Samovar
1098. Xalça
1099. Güzgü
1100. Saat
1101. Samovar
1102. Tərəzi
1103. Corab toxuyan millər
1104. Tərəzi
1105. Dəhrə
1106. Çıraq
1107. Gəbə
1108. Sac
1109. Qapan tərəzisi

[1] Mənası ilk baxışda aydın olmayan bu tapmacanın əksər variantlarında cavab *güzgü* getdiyi üçün bizdə də bu şəkildə verilmişdir.
[2] Bəzi tapmacalarda *üç*, bəzisində isə *beş mil* işlənir.

1110. Güzgü
1111. Tərəzi
1112. Tüfəng
1113. Xəncərin qını
1114. Xəncər və qını
1115. Xəncər
1116. Qılınc
1117. Güllə və giliz
1118. Nizə
1119. Tüfəng[1]
1120. Tüfəng
1121. Qılınc
1122. Güllə
1123. Güllə
1124. Güllə
1125. Tüfəng
1126. Tüfəng və güllə
1127. Güllə
1128. Tüfəng
1129. Tüfəng
1130. Tapança
1131. Tüfəng
1132. Beşaçılan
1133. Tüfəng
1134. Tüfəng
1135. Xəncər
1136. Qılınc
1137. Tüfəng, güllə
1138. Güllə
1139. Tüfəng
1140. Top gülləsi
1141. Nizə
1142. Tüfəng
1143. Tüfəng
1144. Ox
1145. Qılınc
1146. Qılınc
1147. Bıçaq
1148. Nizə
1149. Böhtan
1150. Söz
1151. Söz
1152. İradə
1153. Yuxu
1154. Xəyal
1155. Yuxu
1156. Yuxu
1157. Nəfəs
1158. Nəfəs
1159. Fikir
1160. Xəyal
1161. Yuxu
1162. Fikir
1163. Yuxu
1164. Yalan
1165. Söz
1166. Səs
1167. Kölgə
1168. Fikir
1169. Nəfəs
1170. Ad
1171. Kölgə
1172. Ad
1173. Kölgə
1174. Ad
1175. Yuxu
1176. Səs
1177. Ləpir
1178. Kölgə
1179. Yuxu
1180. Ağıl
1181. Kölgə
1182. Söz
1183. Kölgə
1184. Kölgə
1185. Ad
1186. Fikir
1187. Məhəbbət, yaxşılıq
1188. Nəfəs
1189. Fikir, ağıl, nəfəs
1190. Fikir
1191. Könül

[1] Bir cavabı da *ildırım*dır.



1192. Söz
1193. Yer, yuxu, fikir
1194. Gözəl ad
1195. Yuxu
1196. Əriştə
1197. Plov
1198. Kəlləpaça
1199. Kündə
1200. Xamır
1201. Kabab
1202. Kabab
1203. Əriştə
1204. Un
1205. Kündə[1]
1206. Xörək
1207. Fəsəli
1208. Əriştə
1209. Cızbız
1210. Əriştə
1211. Halva
1212. Zurna
1213. Kaman
1214. Saz
1215. Qarmon
1216. Tütək
1217. Kamança
1218. Ney
1219. Kamança
1220. Nağara
1221. Qaval
1222. Saz
1223. Saz
1224. Nağara
1225. Saz
1226. Tar, saz
1227. Qarmon
1228. Tar
1229. Kamança
1230. Saz
1231. Kamança, qaval, tar
1232. Saz
1233. Dəyirman
1234. Traktor
1235. Vəl
1236. Ding
1237. Çanaq
1238. Dəyirman
1239. Toxumsəpən maşın
1240. Ding
1241. Dəyirman
1242. Dəyirman
1243. Buğdaölçən çanaq
1244. Çin
1245. Ding
1246. Vəl
1247. Jaba
1248. Yeldəyirmanı
1249. Buxov
1250. Boyunduruq
1251. Dəyirman
1252. Xış və əkin
1253. Kotan və büyü
1254. Buxov
1255. Zəncir
1256. Ding
1257. Dəyirman
1258. Dəyirman
1259. Ding, dəyirman
1260. Dəyirman
1261. Dəyirman
1262. Dəyirman
1263. Araba təkəri
1264. Pambıq maşını
1265. Zəncir
1266. Kombayn
1267. Bel
1268. Traktor
1269. Dəyirman və dələmə
1270. Kotan
1271. Traktor
1272. Dəyirman
1273. Dəyirman

[1] Bu tapmacanın *cəhrə* və başqa cavabları vardır.

1274. Kotan
1275. Dəyirman
1276. Kotan
1277. Zəncir
1278. Yaba
1279. Vəl və öküzlər
1280. Dəyirman
1281. Xırman vəli
1282. Dəyirman
1283. Dəyirman pəri
1284. Yazı
1285. Səhifə və yazı
1286. Kağız üstə yazı
1287. Yazı
1288. Qələm
1289. Yazı
1290. Məktub
1291. Nöqtə
1292. Kitab
1293. Gəmi
1294. "N" hərfi
1295. Kağız
1296. Paravoz
1297. Məktub
1298. Kitab
1299. Qlobus
1300. Qələm
1301. Təyyarə
1302. Peyk
1303. Təyyarə
1304. Radio
1305. Elektrik lampası
1306. Mürəkkəb və kağız
1307. Paravoz
1308. Qələm
1309. Yazı
1310. Təyyarə
1311. Kağız
1312. Telefon
1313. Paraxod
1314. Kitab
1315. Kitab
1316. Kosmonavt
1317. Yazı
1318. Qələm
1319. Paravoz
1320. Qayıq
1321. Mürəkkəb, qələm, iki barmaq və kağız
1322. Yazı, oxu
1323. Paraxod
1324. Kitab
1325. Gəmi
1326. Radio
1327. Vertalyot
1328. Nöqtə
1329. Radio
1330. Avtomaşın
1331. Soyuducu
1332. Qələm
1333. Təyyarə
1334. Gəmi
1335. Gəmi
1336. Yazı lövhəsi
1337. Qayıq
1338. Gəmi
1339. Gəmi
1340. Paravoz[1]
1341. Qələm
1342. Telefon
1343. Ərəbcə "ş" hərfindəki nöqtələr
1344. Orucluq
1345. Körük
1346. Çin
1347. Rəndə
1348. Xonça
1349. Ölü
1350. Yuva
1351. Doşab
1352. Rəndə

[1] Tapmacanın *yol, dəmir yolu* kimi cavabları da vardır.



1353. Səməni
1354. Qəlyan
1355. Duz
1356. Qovurğa
1357. İnək, balası, sağıcının başı və ayaqları
1358. Sulu qəlyan
1359. Boçka
1360. Sulu qəlyan
1361. Biz
1362. Papiros
1363. Tuluq
1364. Körük
1365. Təndir
1366. Papiros tüstüsü
1367. Balıq toru
1368. Dəllək
1369. Quyu
1370. Hörümçək toru
1371. Dünya, adam, ölü
1372. Göz yaşı
1373. Çay, ağac və torpaq
1374. Ülgüc
1375. Sulu qəlyan
1376. Qatıra qulun, göyə dirək, dəryaya körpü yoxdur
1377. Ülgüc
1378. Zəng
1379. Minarə
1380. Çətir
1381. Təsbeh
1382. Pul
1383. Ülgüc
1384. Boyaq küpü
1385. Gomuş öz balasından böyükdür
1386. Ayı, balıq, dəyirman daşı, halva
1387. Balta, balıq, at , xoruz
1388. Dolu, balıq, ayı, qoyun
1389. Canavar südü, hörümçək toru
1390. Göz yaşı, canavar südü
1391. Qır
1392. Toy, zurna
1393. Oruc
1394. Hasa
1395. Tor
1396. Hərəmiz adam adıdır
1397. Quru qəlyan
1398. Təsbeh
1399. Dağın təpəsinə vurulan çomaq
1400. Daş
1401. Neft
1402. Əhəng
1403. Qızıl
1404. Qan, bəlğəm, sövda, sərfə
1405. Balıq toru
1406. Mənası özündədir
1407. Duz
1408. Duz
1409. Neft
1410. Təndir
1411. Körük
1412. Papiros
1413. Piy
1414. Körük
1415. Əl ağacı
1416. Taxta
1417. Quş pətənəsi
1418. At çulunun üstündəki dəvə və qatır şəkilləri
1419. Səksən qoyun, yüz keçi dərisinin bir ata yüklənməsi
1420. Kənd adı
1421. Duz
1422. Qəlyan
1423. Qatır, yol, kənd
1424. Hörümçək toru
1425. Duz
1426. Civə
1427. Körük
1428. Hamam
1429. Təqvim
1430. Körük
1431. Pul
1432. Mıx

1433. Göy, ot, qurbağa
1434. Top, rezin
1435. Quyu
1436. Qoz öz qabığına girər, qala isə qapısına sığmaz
1437. Yağış, uşaq, pul, ölü
1438. Güllə, tənəli söz
1439. Zınqırov
1440. Çəkməyə vurulan mıx
1441. Papiros
1442. Çəkic
1443. Ağrı dağı, cənnət bağı
1444. Mənası özündədir
1445. Ocaq daşı
1446. İmperial, qızıl pul
1447. Atın üstündə bir nəfər, onun da əlində quş
1448. Duz
1449. Gön və civə
1450. Kösöv
1451. Qab altında saxlanılan pay
1452. Çəkic
1453. Sap, iynə, üskük, tikiş
1454. Qəlyan
1455. Sulu qəlyan
1456. Daş, ağac, su
1457. Su, daş, ot
1458. Xəzəl
1459. Tük
1460. Pul
1461. Təndir və çörək
1462. Körük
1463. Corab iynələri
1464. Körük
1465. Balıq toru
1466. Canavar, it, çoban, qoyun
1467. Xəritə



## MÜNDƏRİCAT

*Müqəddimə* .......... 4
Təbiət və təbiət hadisələri .......... 27
Nəbatat aləmi .......... 45
Mədəni bitkilər .......... 45
Ağaclar .......... 48
Bostan və tərəvəz məhsulları .......... 49
Meyvələr .......... 53
Yabanı və dənli bitkilər .......... 61
Heyvanlar .......... 69
Quşlar .......... 79
Həşəratlar .......... 84
Heyvandarlıq məhsulları və heyvanlarla əlaqədar şeylər .......... 93
İnsan və onun bədən üzvləri .......... 100
Geyim və bəzək şeyləri .......... 111
Çadır, ev və onların hissələri .......... 115
Ev təsərrüfatında işlənən şeylər .......... 119
Silahlar .......... 138
Qeyri-maddi və mücərrəd tapmacalar .......... 142
Xörəklər və başqa yeyinti məhsulları .......... 147
Musiqi alətləri .......... 149
Kənd təsərrüfatı alət və maşınları .......... 152
Mətbuat və texnikaya aid tapmacalar .......... 158
Müxtəlif mövzulu tapmacalar .......... 165
Bağlamalar .......... 178
*Cavablar* .......... 188

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Alianna Duxanina*

Korrektor: *Pərinaz Səmədova*

Yığılmağa verilmişdir 16.07.2004. Çapa imzalanmışdır 12.12.2004.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 13. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 235.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.